Ənvər Çingizoğlu
Nərminə Məmmədova

# ZÜLQƏDƏR ELİ

(Tarixi-geneoloji tədqiqat)

"Şərq-Qərb"
Bakı – 2011

**Elmi redaktorlar:**
t.e.d., prof. İbrahim Zeynalov
t.e.n. Bəhram Məmmədli

**Redaktor:**
Vasif Quliyev

**Ədəbi redaktorlar:**
f.e.d., Sədi Nuriyev
Əli Süleymani-Vəlixanlı

**Rəyçilər:**
prof., Müseyib Müseyibov
t.e.d., Adil Baxşəliyev
t.e.n., Tofiq Nəcəfli

**Dizayn və texniki redaktor:**
İlqar Cəfərov
Səbinə Vəliyeva

**Qədim Zülqədər eli Tatılı oymağının XX əsr nümayəndəsi, tanınmış dövlət xadimi MEHDİ MUSTAFAYEVİN xatirəsinə**

**Ə.Çingizoğlu. N.Məmmədova. Zülqədər eli (Tarixi-geneoloji tədqiqat).**
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 156 səh.

Kitab Azərbaycan xalqının etnogenezində, iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamış Zülqədər elinin və onun böyük oymaqlarından olan Tatılının yaşam yolundan, bu ellərin coğrafi yerləşmə və yerdəyişməsindən, təsərrüfat həyatından, etnik-tarixi, dini görüşlərindən, Azərbaycan xalqına bəxş etdikləri böyük simalardan bəhs edir. Burada irəli sürülən fikir və mülahizələrdən, ümumiləşdirmələrdən xalqımızın zəngin tarixi keçmişi ilə, o cümlədən digər ellərimizin tarixi ilə maraqlanan hər kəs bəhrələnə bilər.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-34-721-0**

© Ə.Çingizoğlu. N.Məmmədova, 2011
© "Şərq-Qərb" Nəşriyyat evi, 2011

# ZÜLQƏDƏR ELİNİN ÖYGÜSÜ

*Nəyin vardı, Zülqədər eli?*

Ulu yurdda binələşib, göz-göz oymaqlaşmışdın. Çadırın düzdə qurulardı, davarın dağa yayılardı. Başı ağ qarla örtülü dağın ətəyində binələrin vardı. Düşmən dağlardın, Zülqədər eli! Ağaların el dolandırardı, malın çöl doldurardı. Qoyunun düz doldurardı, quzuların küz. Dam dolu köşəyin, ev dolu uşağın vardı. Düşdüyün yurd gözəl, köçdüyün yol gözəl. Qızların ismətli, igidlərin ilqarlı idi.

Zülqədər oğulları – hərəsi bir sığnaq üstünə savaş edən sərdar, sərvər idi. Elə gedəndə elcə, çölə gedəndə çölcə olardı. Şümşad boylu igidlərin meydana gedəndə baş, xırmana gedəndə aş gətirərdilər. Qulac qollu, gen kürəkli, arşın addımlı oğulların sərhəd qoruyardılar. Səxavət sahibi, yatır yiyəli bəylərin dostun dadına çatar, düşməni dəyənəklərdi. Könlü zəngin, gözütox oğulların yaxşı-yaman, buğda-saman tanıyandı. Qapısından qonaq ayağı kəsilməzdi.

Eh, torpağını göz dolusu görən Zülqədər eli! Ağaların, bəylərin vardı ki, yer qədrini, tər qədrini bilərdilər. Ağaların səxavətdə, igidlərin vurmaqda ad çıxarmışdılar. Aca yeyim, yalavaca geyim verərdilər. Naxırın su bulandırar, sürün dağ dolandırardı. İlxın çöl yaraşığı, qatarın dil yaraşığıydı. Anbarda darısı, evdə qarısı olan qocaların qan bağlardı. Adamı yerişindən, ağacı kökündən, xırmanı tozundan tanıyan qocaların. Qarıları alqış deyəndə yağış yağar, göy ot bitər, qarğış deyəndə dağ əriyər, bağ quruyardı.

*Nəyin qalıb, Zülqədər eli?*

Bir zamanlar sərkeşlik, indi sarvanlıq edən oğulların! Savaşçıl oğulların sənət, sərvət ardınca gedir. Xəncəri xunlu, qəməsi qanlı igidlərindən qalan bükmə-büruncəkli, döşü dərd dolu, qəlbi qəm qapalı oğullar. Vətənin bir bölümünün yağı əlində qalmasından xalq içində xəcil gəzirlər.

Tərlan qıynaqlı, aslan pəncəli oğulların indi də var! Əlləri ərdəmli, özləri hünərli oğullar! Gözləri özlərində, sözləri dillərində, işləri əllərində oğulların bostan becərsələr, əkin əksələr də silah üçün xüsusi həvəs göstərirdilər. Hay deyəndə havar verirlər.

Qızların var – üzü gün görməmiş, ətəyinə əl dəyməmiş. Hamısı da yaraşıqlı, yapışıqlı. Hərəsi bir evə varanda ev yarıdan, sərv boylu, ulu soylu qızların!

Yuxarıdan düzüb, aşağıdan yığan, yol-yöndəm bilən, qaynananı gəlindən gileyli buraxmayan qızların! Beşikdəkinə də baxan, eşikdəkinə də. Ağgünlü, atlaz donlu qızlarının nəsəb-nəcabəti bəllidir. Adın üstlərindədir, Zülqədər eli!

Dölü düz olanın yolu da düz olar. Sən həmişə düz yol seçmisən, Zülqədər oğlu! Yolun ağ, yoldaşın haqq olsun!

# GİRİŞ ƏVƏZİ

Zülqədər eli Azərbaycan xalqının soykökündə iştirak edən igid-ilqarlı, varlı-vüqarlı ellərdəndir. Bu el bir çox oymaqlardan ibarət olmuşdur. Onlardan biri də Tatılı oymağıdır.

Tatılı obasının tədqiqinə əvvəlcə çöl axtarışlarından başladıq. El bilicisi kimi Ağabəy Xankişi oğlu Həsənovu (1929), Bəhlul Məşədi Bəşir oğlu Hüseynovu (1932) nişan verdilər. Bu el ağsaqqalları bizə zəngin məlumatlarla kömək etdilər.

Tatılı (oymağının, obasının, camaatının) kəndinin tarixini daha dəqiq öyrənmək üçün bir çox qiymətli mənbələrə, o cümlədən arxiv materiallarına müraciət edilib. Əldə olunmuş materialların müqayisəli təhlili aparılmışdır. Müraciət olunan əsas qaynaqlar İsgəndər bəy Türkmənin (Münşinin), Həsən bəy Rumlunun, Övliya Çələbinin, Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazinin, Faruq Sümerin, Refet Yinançın, M.Eliböyükün, Əli Sinan Bilgilinin, Erhan Afyoncunun, M.Salih Erpolatın, H.Aksütün, Osman Turanın, Tufan Cingiz Orhonlunun, Cevdet Turkayın, Besim Atalayın, Abbasqulu Ağa Bakıxanovun, Oqtay Əfəndiyevin, Tofiq Əhmədovun, İ.P.Petruşevskinin və onlarca başqa tədqiqatçıların əsərləri, təhrir və müfəssəl dəftərləri, iqtisadi vəziyyətlə bağlı məlumat verən "903 nömrəli tapu-təhrir dəftəri", "Gəncə-Qarabağ əyalətinin qanunnaməsi", 690 vərəqdən ibarət "Gəncə, Bərdə, Arazbar, Lori nahiyələrinin əhalisi və gəlirlərinə aid maliyyə dəftəri"dir (h.1140).

Tatılı oymağının daxil olduğu Zülqədər eli haqqında dolğun məlumat verən mənbələrdən biri İsgəndər bəy Münşinin (1560–1634) "Tarix-i aləm aray-i Abbasi" ("Dünya bəzəyi Abbasın tarixi)" əsəridir.

İsgəndər bəy Münşi peşəkar tarixçi olmaqla yanaşı, həm də uzun illər Səfəvilərin sarayında katib (münşi) vəzifəsində işləmişdir (1587–1629). Azərbaycanın bir çox şəhərlərini gəzmiş İsgəndər bəyin bu əsərində Təbriz, Ərdəbil, Naxçıvan, Əhər, Xoy, Maku, Gəncə, Ordubad, Şamaxı, Bakı haqqında maraqlı məlumatlar verilmişdir. O, Bağdad, Kərbəla, Nəcəfdə də olmuşdur.

On iki fəsildən ibarət olan «Tarix-i aləm aray-i Abbasi» əsəri İsgəndər bəy Münşinin şah əsəridir. Əsərdə Şah İsmayıldan tutmuş Şah Sultan Məhəmməd Xudabəndəyə kimi Səfəvilərin tarixi yığcam şəkildə qələmə alınmış, Səfəvi hökmdarlarının şəcərəsi verilmişdir. Əsərdə şah Abbasın hakimiyyəti dövrünə geniş yer verilmişdir.

İsgəndər bəy Münşi «Tarix-i aləm aray-i Abbasi» əsərini bitirdikdən sonra Şah Səfi (1629–1642) dövrünün tarixini yazmağa başlamışdır. 1634-cü ildə vəfat etdiyindən bu əsər yarımçıq qalmışdır.

Münşinin Azərbaycan tarixinin XVI–XVII yüzilliklərinə aid qiymətli mənbə hesab olunan «Tarix-i aləm aray-i Abbasi» əsəri Oqtay Əfəndiyev və Şahin Fazil tərəfindən Azərbaycan dilinə tərcümə olunmaqdadır.

Əsərin Azərbaycan dilində nəşri bir sıra qaranlıq məqamların üzərinə işıq salınmasına və orta çağ tarixinin saxtalaşdırılmasının qarşısının alınmasına yaxından kömək göstərə bilər. Bu cür qiymətli tarixi mənbələrin tərcümə edilərək nəşr olunması azərbaycanlı oxucuların şanlı tariximizlə fəxr etmələrinə yardımçı ola bilər.

Həsən bəy Rumlunun on iki cildlik "Əhsən ət-təvarix" əsəri istifadə edilən mənbələrdəndir. Bu əsərdən bizə yalnız sonuncu iki cild gəlib çatmışdır. Həmin cildlərdə I Şah Təhmasib (1524 – 1576) ilə II Şah İsmayılın (1576 – 1577) hakimiyyət illəri təsvir olunmuşdur.

Bizə gəlib çatan cildlərdə həmin dövrdə Azərbaycan və İranda baş verən ictimai-siyasi hadisələr, habelə dövrün görkəmli tarixi şəxsiyyətləri haqqında tərcümeyi-hal xarakterli məlumatlar da öz əksini tapmışdır.

Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazinin (1515–1580) «Təkmilətül-Əxbar» əsəri də Zülqədər eli tarixinin öyrənilməsi üçün qiymətli mənbədir.

Mövzunun yazılmasında "Şah Təhmasibin təzkirəsi" kitabı da etibarlı qaynaq rolunu oynamışdır.

"Qızılbaşlar tarixi" əsərində də Zülqədər eli haqqında çox qiymətli məlumatlar vardır.

Mövzunun işlənməsi prosesində mənbə və qaynaqlara, elmi ədəbiyyata, ayrı-ayrı müəlliflərin əsərlərinə, yeri gəldikcə müraciət etdiyimizdən onlar barədə burada geniş məlumat verməyə ehtiyac görmürük.

Kitabda Zülqədər elinin, onun Tatılı və digər oymaqlarının, Həsənağalı tayfasının tarixi, mədəniyyəti, təsərrüfat həyatı, etnik-tarixi, dini görüşləri şərh edilir, bu elin görkəmli simalarından bəhs olunur. Kitabda həmçinin Zülqədər-oğulları bəyliyinin və Tatılı oymağı ağalarının şəcərəsi göstərilir.

Qarşıya qoyulmuş problemin həllini bitmiş hesab etmək doğru olmaz. Yeni mənbələr öyrənildikcə, problemlə bağlı bir çox məsələlər üzə çıxa bilər, onların araşdırılma dairəsi genişlənə, dolğunlaşa, təkmilləşə bilər.

Oxuculara və mövzunun gələcək araşdırıcılarına uğurlar arzulayırıq. Kitab haqqında təklif və mülahizələrini bildirən hər kəsə əvvəlcədən təşəkkürümüzü bildiririk.

Axtarışlar, tədqiqatlar nəticəsində «Zülqədər eli» adlı bir kitab ərsəyə gətirildi. Kitabın yazılmasında köməyini əsirgəməyən arxiv əməkdaşlarına və bütün şəxslərə təşəkkür edirik.

# ZÜLQƏDƏR BƏYLİYİ

## Zülqədər elinin kökü

Müasir dövrdə Türkiyə Respublikasında yaşayan bütün Zülqədəroğulları (Dulkadiroğulları) oğuzların Bayat boyunun Bozok qoluna mənsubdurlar.

Zülqədəroğullarının mənşəyi, sosial, siyasi-iqtisadi həyatları haqqında Osman Turanın "Doğu Anadolu Türk Devletleri tarihi", Faruq Sümerin "Oğuzlar", Refet Yinançın "Dulkadir Oğuzları Beyliği" əsərlərində və başqa əsərlərdə geniş məlumat vardır.

Osman Turan "Doğu Anadolu Türk Dövlətləri tarixi" adlı əsərində zülqədərlərin oğuzların Bozok qolundan olduğunu göstərir[1].

Faruq Sümer zülqədərlərin Bayatlara mənsub olmasını təsdiq edir[2].

Cevdet Turkay "Kitabı Diyarbəkriyyə" adlı əsərində Zülqədəroğullarının Bayat boyundan olmasından, Zülqədəroğullarından Qarabəy, Nasir Hüseyn bəy və Abdi bəyin XV əsrin 50-ci illərində Qaracadağda məskunlaşmasından bəhs edilir[3].

Refet Yinanç "Dulkadir Oğuzları Beyliği" əsərində 1504-cü ildə Qara bəy oğlu Abdidən bəhs edir[4].

Bir sıra İran alimləri və İran Ensiklopediyası Zülqədəroğullarının Əfşar boyundan olduğunu yazırlar[5].

Zülqədəroğullarının (Dulkadiroğullarının) Əfşar boyuna bağlı bir el olduğu yazılır. Prof. Dr. Salim Cöhce göstərir: "Əvvəllər Dulkadiroğulları Əfşar bilinirdi, nə olduysa Bayat deyilməyə başlandı". Onun sözlərindən Zülqədəroğullarının (Dulkadiroğullarının) Əfşar ola biləcəyi ehtimal edilir.

M.Vəliliyə (Baharlı) görə, Zülqədər eli Oğuzların Qayı boyundandır. Hülakülərin hakimiyyəti dövründə 200 min türk ailəsi İrana köçürülmüşdür. Bu türklər Qayı adlanan xüsusi türk tayfası olub, Ağ hunların övladları hesab olunur. Qayı tükrləri əvvəllər Qərbi Türküstanda yaşamışlar. Onların məşhur

[1] Osman Turan. Doğu Anadolu Türk devletleri tarihi. – Türkiyə, 1973, s.195, dipnot 158.
[2] Faruq Sümer. Oğuzlar. – Bakı, 1992, s.165, 223.
[3] Cevdet Turkay. Kitabi Diyarbəkriyyə. – İstanbul: Diyarbəkir Valiliği, 1999. s. 254, 265, 273.
[4] Refet Yinanç. Dulkadir Oğuzları Beyliği. T.T.K. Ankara, 1989, s. 97–112.
[5] İslam Ansiklopedisi; Elbistan ve Dulkadirliler Maddesi. 3. cilt, – Ankara, 1989. s. 654 – 655.

qəbilələri içərisində Qacar, Əfşar, Zülqədər, Ustaclı, Çoban və başqaları var idi[1].

Zülqədər elinin nümayəndələri Böyük Səlcuq imperiyası dövründə Anadoluya gəlmiş, Maraş, Əlbistan, Malatya və Xarput istiqamətində məskunlaşmışlar.

Zülqədər eli Oğuzların Bozok qolunun Əfşar, Bayat, Bəydili, Eymur boylarından təşkil olunmuşdur.

## Zülqədər bəyliyinin tarixi

Türk əsilli Zülqədər sülaləsi **Həsən bəy Zülqədərinin** başçılığı ilə Xorasandan Anadoluya gələrək, orada bəylik qurmuşdur (1337–1515(22). Sülalə ilk dövrlərdə Maraş və Əlbistan arasındakı yaylaq bölgəsində yerləşmiş, sonralar daha geniş əraziyə yayılmışdır.

Göstərilən illər ərzində mövcud olmuş Zülqədər bəyliyi Anadolu tarixində böyük rol oynamışdır.

1334 – 1353-cü illərdə Zülqədər bəyliyinin hökmdarı Həsən bəyin oğlu **Zeynəddin Əhməd Qaraca bəy** olmuşdur. O, Elxani hökmdarı Əbu Səid Bahadur xanın zəifliyindən istifadə edərək, məmlüklərin Hələb valisi ilə birləşmiş və Əlbistanı ələ keçirmişdi. Bəylik qurduqdan sonra ilk savaşını Ərətna bəyliyinə qarşı başlamışdı.

XIII yüzilliyin sonlarında Hələb və Antəp arasındakı ərazilərdə yaşayan Bozoq türkmənləri çox vaxt məmlüklərin şimala doğru təşkil etdikləri yürüşlərdə iştirak edirdilər. Elxani hakimiyyəti altında olan Anadolunun içərilərinə qədər gələn bu türkmənlərin başında, qeyd etdiyimiz kimi, Zeynəddin Qaraca bəy dururdu. Onun ətrafında toplanan türkmənlər Antəpdən Əlbistana qədər uzanan əraziləri ələ keçirmişdilər.

1335-ci ildə Elxani hökmdarı Əbu Səid Bahadur xanın ölümündən istifadə edən türkmən bəylərindən olan Taraqlı Xəlil bəy Əlbistanı Əmir Ərətnanın əlindən almağa müvəffəq oldu. O, məmlüklərin Hələb valisinə hədiyyə olaraq yüz at göndərib valinin vasitəsilə Sultan Məhəmməd Nasirdən şəhərin hakimliyi fərmanını da əldə etdi.

Taraqlı Xəlil bəyin oğulları bölgədəki bütün türkmənləri öz hakimiyyəti altına toplamaq istəyən Qaraca bəyin narahatlığına səbəb oldu. 1337-ci ildə

[1] M.Vəlili (Baharlı). Azərbaycan: coğrafi-təbii etnoqrafik və iqtisadi mülahizat. – Bakı, 1993. s. 9.

Zülqədəroğlu Qaraca bəyin oğlu Xəlil bəylə döyüşdə Taraqlı Xəlil bəy məğlub edildi. Əlbistan Zülqədəroğlu Qaraca bəyin əlinə keçdi. Döyüşdə yaralanmış Taraqlı Xəlil bəy isə məmlüklərin Hələb valisi Altın Buğanın yanına qaçaraq ona tabe oldu və ondan yardım istədi. Hələb valisi Qaraca bəyə qarşı Taraqlı Xəlil bəyi dəstəkləyirdi. Buna görə Qaraca bəy Qahirəyə gedərək Sultan Məlik Məhəmməd Nasirdən Əlbistan naibliyinin fərmanını aldı. Bununla da o, bölgədəki türkmənlərin rəisi qəbul edildi. Beləcə, 1337-ci ildə məmlüklərin himayəsi altında Maraş və Əlbistan bölgələrində iki əsrə qədər davam edəcək bir bəyliyin təməli qoyuldu.

Qaraca bəy ölkəsinə dönərkən Qahirədə onun şərəfinə möhtəşəm bir ziyafət təşkil edildi və o zamanın adətinə görə Qaraca bəyə və onun silahdaşlarına qiymətli hədiyyələr və xələt verildi.

Qaraca bəy mərkəzi Əlbistan olan bəyliyini qurduqdan sonra, Anadoluda Elxani hakimiyyətinin yıxılmasından istifadə edərək, ətrafdakı digər şəhərləri tutmağa başladı. Dərhal şimala doğru göndərilən Zülqədər türkmənləri Əratna bəyin əlindəki yerlərə hücum etməyə başladılar. Məmlük sultanının etirazından sonra bu hücumlar dayandırıldı. Qaraca bəy 1338-ci ildə əmirlərindən bir qismini Əratnanın qüvvələri tərəfindən mühafizə edilən Darəndə qalası üzərinə göndərdi. Qaraca bəyə bağlı olan türkmənlər Darəndə qalasını ələ keçirdilər. Bununla da Darəndə zülqədərlərin əlinə keçdi.

Qaraca bəy Darəndəni dərhal Şam valisinin adamlarına təslim etdi və bu hərəkəti ilə məmlük sultanının sevgisini qazandı.

Darəndənin ələ keçirilməsindən sonra Qaraca bəyin Əmir Əratna ilə arası dəydi. Əratna bəy çoxsaylı bir ordu ilə zülqədərlərin ərazisinə hücum etdi. Zeynəddin Qaraca bəy torpaqlarına hücum edən Əratnanın ordusunu məğlubiyyətə uğradaraq bölgədən uzaqlaşdırdı. 1339-cu ildə baş verən müharibədə Qaraca bəy həm rəqibinin oğlunu əsir aldı, həm də zəngin qənimət ələ keçirdi. Bu müharibədən bir müddət sonra Sultan Nasirin vasitəsilə iki tərəf arasında sülh yarandı.

Zülqədəroğulları bəyliyi ilə əratnalılar arasındakı razılığa əsasən, Qaraca bəyin tabeliyində olan türkmənlər Orta Anadoluya hücumları davam etdirirdilər. Qaraca bəy Əratna ölkəsinə hücum edərkən Türkmən əmirlərindən biri olan Daşgunoğlu da, onun bəyliyini tanımayaraq, ardıcıl surətdə Zülqədər elinə basqınlar edirdi. Qaraca bəy Daşgunoğlunu və ona itaət etməyən digər türkmən bəylərini məğlub etdi. Dostu və hamisi Şam valisi Təngizin Misirə çağırılaraq, əvvəlcə İsgəndəriyyədə həbs edildiyinə, sonra isə öldürüldüyünə görə, Qaraca bəy Məmlük dövləti ilə münasibətini kəsdi. Bu hadisənin ardınca Məmlük sultanı Məlik Nasirin ölümünü eşidib, Misirdə baş verən qarışıqlıqdan da istifadə edərək, müstəqilliyini elan etdi (1341).

Qaraca bəy müstəqilliyini elan etdikdən sonra, Əratnaoğulları ilə ittifaq bağlayaraq, Hələbi ələ keçirmək üçün hazırlığa başladı. Bu zaman Məmlük sultanlığında hakimiyyət uğrunda mübarizə gedirdi. Misir atabəyi olan Əmir Qoşun Məlik Mənsuru öldürərək, beş yasındakı Məlik Əşrəfi taxta çıxarmış, bununla da özü dövlətə hakim olmuşdu. Bu vəziyyətə qarşı çıxan Hələb valisi Daşdəmir üsyan edərək Əlbistana gəlmiş və Qaraca bəy ilə birləşmişdi. Digər tərəfdən, üsyançılar çox keçmədən Misirdə Əmir Qoşunu öldürmüş, Məlik Əhməd Nasiri sultan elan etmişdilər. Hökmdara naib təyin edilən Daşdəmir (Taştemur) ilə bərabər Qaraca bəy də Qahirəyə getmişdi, ancaq az sonra dostu Daşdəmir həbs edildiyindən, eyni aqibətə düçar olmamaq üçün dərhal Maraşa dönmüş, məmlüklərə qarşı üsyan edərək, Hələbi təhdid etməyə başlamışdı.

Məmlüklərlə Zülqədərlər arasındakı mübarizə müharibəyə çevrildi. Qaraca bəy bir il içərisində Əratna, Qarabük istiqamətində Çobanlı Şeyx Həsəni məğlubiyyətə uğratdı, əldə etdiyi qənimətin bir hissəsini zəfər nişanəsi kimi Hələb valisi Yel Buğaya göndərdi. Zülqədər ölkəsindən keçərkən qənimətin böyük bir qismi türkmənlər tərəfindən ələ keçirildi. Bu vəziyyətə çox hirslənən Hələb valisi Yel Buğa 1343-cü ildə böyük bir ordu ilə Zülqədər ərazisinə hücum etdi. Məmlük və Zülqədər qüvvələri arasında baş verən müharibədə Qaraca bəy qələbə çaldı. Hələb qüvvələri 1344-cü ilin martında məğlub olaraq geri döndü. Bu məğlubiyyət Yel Buğaya çox pis təsir göstərdi və o, tabeliyindəki qüvvələri toplayaraq, Zülqədər bəyliyinə qarşı yeni bir yürüşə başladı. Böyük bir orduya qarşı dura bilməyəcəyini anlayan Qaraca bəy Düldül dağına çəkildi. Dağın ətəklərində baş verən ikinci Məmlük–Zülqədər döyüşündə də Qaraca bəyin qoşunu qələbə çaldı. Bu qələbə Qaraca bəyin nüfuz və qüvvəsini daha da artırdı.

Qaraca bəy bu qələbənin ardından məmlüklərin onun üzərinə daha böyük qüvvə göndərməsindən narahat olaraq, ələ keçirdiyi qənimətlərə əl vurmadan hamısını Qahirəyə göndərdi. O, müharibənin səbəbini Hələb valisinin üzərinə qoyaraq, özünün günahsız olduğunu bildirdi. Məmlük sultanı Məlik Saleh İsmayıl özünə qarşı güclü bir rəqib halına gəlmiş olan Zülqədəroğlu Qaraca bəyin üzrxahlığını qəbul etməyə məcbur qaldı və ona bəylik fərmanı göndərdi.

1345-ci ildə Qaraca bəy Çuxurobanın şimalında yerləşən Qabon qalasını ələ keçirdi.

Qaraca bəyin Qabon qalasını ələ keçirməsi Hələb valisi ilə münasibətlərinin yenidən pozulmasına səbəb oldu. Hələb valisi Qabon qalasına öz mühafızlərini yerləşdirmək istədi. Hələb valisi ilə Qaraca bəy arasındakı bu qarışıq durumdan faydalanan ermənilər Qabon qalasını geri aldılar (1346).

Zülqədər bəyi ilə Hələb valiləri arasında dostluq münasibətləri var idi. Hələb valiliyinə Arqunşahın təyin edilməsi pozulmuş əlaqələrin yenidən düzəlməsinə səbəb oldu. Beləcə, Qaraca bəyin məmlüklərlə münasibətləri yenidən nizama düşdü. Ancaq bir il sonra Qaraca bəyin məmlüklərlə münasibətləri təkrar pozuldu. 1347-ci ilin sonlarında Məlik Nəsir Həsənin Qahirədə taxta çıxmasından sonra Hələb valiliyində həyata keçirilən yersiz dəyişikliklər əlaqələri alt-üst etdi. Zülqədərlərin arzu etmədiyi Arıqtay 1348-ci ilin martında ikinci dəfə Hələb valiliyinə təyin edildi. Zeynəddin Qaraca bəy düşməni olan bir bəyin Hələbə hakim gətirilməsini görüncə Məmlük dövlətinə tabe olmadı və Məlik-Zahir adı ilə özünü müstəqil hökmdar elan etdi. Zeynəddin Qaraca bəy Hələb və ətrafındakı ərazilərə qarşı hərbi yürüşlərə başladı. Bundan başqa, o, Kilikiya erməni işxanlarına xəbər göndərərək, Məmlük sultanlığına ödədikləri vergini bundan sonra ona ödənilməsini tələb etdi.

Arqunşahın öldürülməsindən sonra Qaraca bəyin məmlüklərə qarşı düşmənçiliyi daha da artdı (1349). O, Hələb üzərinə daha çox hücumlar etməyə başladı. Onun məqsədi tamamilə müstəqil olmaq idi. Qaraca bəy Məmlük dövlətinə qarşı Suriyada qalxan bütün üsyanlara qoşuldu. O, Məmlük sultanlığına qarşı olan Hələb valisi Baybuğa ilə birləşərək Şam (Dimask) üzərinə yürüş etdi. Üsyanın böyüdüyünü görən Məmlük sultanı çoxsaylı ordunu üsyançıların üzərinə göndərdi. Əmir Baybuğanın məğlub edilərək öldürülməsindən sonra Qaraca bəy və digər üsyançı əmirlər Əlbistana çəkildilər. Misir sultanı və əmirlərinin təkid və təminatlarına baxmayaraq, Qaraca bəy üsyançıları təslim etmədi. Buna görə Sultan Məlik böyük bir ordunu Əmir Arqunun başçılığı ilə Əlbistan üzərinə göndərdi. Zülqədər bəyin bu davranışına çox hirslənən Məmlük sultanı Zülqədər bəyliyinin hakimiyyət fərmanını Üçoq türkmənlərinin rəisi Ramazan bəyə verdi.

Vəziyyətin təhlükəli hal aldığını görən Zeynəddin Qaraca bəy üsyançı əmirləri dərhal tutduraraq Qahirəyə göndərdi. Əmirlər, Qahirəyə gələr-gəlməz, öldürüldülər. Məmlük sultanı Məlik Saleh Qaraca bəyin də cəzalandırılmasını istəyirdi. Odur ki, Qaraca bəyi hiylə ilə yaxalamaq üçün Arqunşaha təlimat verdi. Tələ olaraq Qaraca bəyə bir fərmanla xələt göndərdi. Vali Arqunşah Qaraca bəyin fərmanını almaq və xələtini geymək üçün Məmlük sərkərdəsinin hüzuruna Hələbə dəvət etdi. Ancaq Qaraca bəy ona qarşı düzəldilən bu hiyləni hiss edərək Hələbə getmədi. Bunu görən Məmlük sultanı atabəyi Arqunşahın zülqədərlər üzərinə hücum etməsini istədi. Ramazanoğullarından və Suriya əmirlərindən aldığı köməkçi qüvvələrlə Əlbistana yürüş edən Əmir Arqun ona yardım etməsi üçün Sivas valisi Hacı Qutluşaha məktub göndərdi. Məktubu alan Qutluşah ordusu ilə Əlbistana gələrək Əmir Arqunun qoşununa qoşuldu.

Sayı 25.000 nəfərə çatan müttəfiq qüvvələr Zeynəddin Qaracanın ölkəsini dağıdaraq Əlbistanı xaraba qoydu. Müttəfiq qüvvələr Düldül dağına qaçan Qaraca bəyi mühasirəyə aldı. Arqunşah və müttəfiqlərinə qarşı 20 gün mübarizə aparan Qaraca bəy sonda məğlub oldu. Bütün sərvəti və yaxın adamlarını itirən Qaraca bəy çox çətinliklə qaçaraq Əratnaoğlu Qiyasəddin Məhəmməd bəyə sığındı.

Misir Məmlük sultanı Məhəmməd bəyə xəbər göndərərək, Qaraca bəyin ona təslim edilməsini tələb etdi. Əmir Arqun tərəfindən təhdid edilən Məhəmməd bəy Qaraca bəyi Hələbə göndərməyə məcbur oldu (22 sentyabr 1353). Qaraca bəy bir müddət burda həbsdə saxlandıqdan sonra Qahirəyə göndərildi. Qahirədə Məlik şahla görüşən Qaraca bəy 11 dekabr 1353-cü il tarixində işgəncə ilə öldürüldü.

**Zeynəddin Əhməd Qaraca bəyin Xəlil bəy, Sülü bəy, Osman bəy, İbrahim bəy, İsa bəy, Davud bəy adlı oğulları vardı.**

1353–1386-cı illərdə Zülqədər bəyliyinə **Xəlil bəy** başçılıq etmişdir.

Bəyliyin başına keçdikdən sonra cəsur bir insan olan Xəlil bəyin ilk işi atasının intiqamını almaq oldu. Xəlil bəy atasını məmlüklərə təslim etmiş Əratnaoğlu Məhəmməd bəydən intiqam almaq məqsədilə onun ölkəsinə basqın edərək şəhər və kəndlərini talan etməyə başladı. 1360-cı ildə digər bir türkmən rəisi Ömər bəy əratnalılardan Malatyanı almışdı. Xəlil bəy də ölkəsini Zamantıya qədər genişləndirdi.

Malatyanı ələ keçirən Ömər bəy həmin ildə öldükdən sonra Xəlil bəy Zülqədər bu şəhəri də ələ keçirmək istədi. Ancaq Malatya xalqı şəhəri məmlüklərə təslim etdi. Bu hadisə Xəlil bəy ilə məmlüklər arasında düşmənçiliyə səbəb oldu. Xəlil bəy əratnalılara tabe olan Xarput üzərinə yürüş edərək qalanı asanlıqla ələ keçirdi. Beləcə, Xarputa yerləşən Xəlil bəy bu dəfə məmlüklərə tabe olan Hələb və Malatya qalalarını sıxışdırmağa başladı. 1361-ci ildə Hələb valisi böyük bir ordu ilə onun üzərinə yürüş etsə də məğlubiyyətə uğrayaraq geri çəkildi. Xəlil bəyin Məmlük ərazisinə etdiyi basqınların qarşısını almaq üçün Misir sultanı Məlik əl-Əşrəf Şaban Hələb valisi Seyfəddini Xəlil bəyin üzərinə göndərdi. Zülqədər türkmənlərini Xarput qalasında mühasirə edən Əmir Seyfəddin onları məğlubiyyətə uğrada bilməyərək geri döndü (1367).

Xəlil bəy məmlüklərə qarşı çıxanda onlarla düşmənçiliyini daha da artırmaq istəmirdi. Bu məqsədlə o, Misirə gedib Sultan Məlik Əşrəf Şabandan bağışlanmasını xahiş etdi. Xarputu sultana verəcəyini vəd edib, ölkəsində hakimiyyətini təsdiq edən bir fərman aldı. Ancaq Xəlil bəy ölkəsinə qayıtdıqdan sonra Məmlük sultanına verdiyi vədi yerinə yetirmədi. Buna görə də məmlüklər onu cəzalandırmaq üçün yeni müharibə hazırlığına başladılar.

Məmlük qüvvələri 1366-cı ilin sonlarında ikinci dəfə Xarput üzərinə yürüş etdi. Xəlil bəy çoxsaylı Məmlük ordusuna qarşı çıxa bilməyəcəyini başa düşüb, şəhəri təslim etmək məcburiyyətində qaldı. Hələbə aparılan Xəlil bəy sultanın əmri ilə sərbəst buraxıldı.

Xəlil bəy on ildən sonra Xarput və onun ətrafındakı əraziləri yenidən ələ keçirdi. Xarput, Maraş, Behisni və Amik qalalarına sahib olan Xəlil bəy bu bölgələrdə məmlüklər əleyhinə fəaliyyətlərini davam etdirirdi. Onun bu hərəkəti, xüsusilə 1377-ci ildə Məlik Mənsur Əlinin hakimiyyətə gəlməsindən sonra (əslində, Misirdə ölkəni 13 ərkur idarə edirdi) Bərkuku çox hirsləndirdi. Güclü sərkərdə sultanlıqdan çıxardığı bir qərarnamə ilə Xəlil bəyi hakimlikdən salaraq, yerinə Məmlük sərkərdəsi Mübarəkşah Tazonu Əlbistana hakim göndərmək istədi. Bu vəziyyət zülqədərlər ilə məmlüklər arasında yeni düşmənçiliyə səbəb oldu. Mübarəkşah 1378-ci ildə Hələb ordusu ilə Zülqədər bəyini hakimiyyətdən salmaq üçün Əlbistana hərəkət etdi. Xəlil bəy Zülqədər torpaqlarına girən Mübarəkşah ordusunun qarşısında əvvəlcə məğlub olsa da, sonradan qəfil hücuma keçərək onları məğlubiyyətə uğratdı, Mübarəkşahı yaxalayaraq öldürdü (sentyabr 1378).

Bu xəbəri eşidən Məmlük sultanı Əlbistanı Malatya valisi Yel Buğaya verərək, onu Xəlil bəy ilə mübarizə etmək üçün vəzifəyə gətirdi. Məmlük ordusu bu yürüşdə də məğlub oldu. Ramazanoğullarından da yardım alan zülqədərlər Ayaş (Yumurtalıq) mövqeyindəki vuruşmada Məmlük qüvvələrini yerlə yeksan etdilər (fevral 1379).

Əratnalı Qiyasəddin Məhəmməd bəyin ölümündən sonra yaranmış qarışıqlıqdan istifadə edən Xəlil bəy bu ölkənin torpaqlarına göz dikməyə başladı. O, əratnalı valilərin üsyanını və əratnalılara qarşı müharibə edən hər kəsi müdafiə etməyə başladı. Bu zaman əratnalılar da Ərzincanı ələ keçirmək istəyirdilər. Xəlil bəy oğlu İbrahim bəyi Mütahhərtənin köməyinə göndərdi. Ərzincan əmiri Mütahhərtən zülqədərlərin yardımı sayəsində əratnalılara qalib gəldi.

Məmlüklər son məğlubiyyətdən sonra Zülqədər məsələsini qəti olaraq həll etmək üçün böyük hazırlıqlara başladılar. Bu məqsədlə Suriyadakı bütün valilərdən qüvvələrini toplayaraq zülqədərlər üzərinə hücum etmək tələb olundu. Şam valisi İşıq Teymur, Hələb valisi İnal Yusuf, Trablus valisi Gümüş Buğa və Hama valisi Taş Teymur qüvvələrini Hələbdə birləşdirdilər. Müxtəlif ərəb qəbilələri də onlara qatıldı. Çoxsaylı Məmlük ordusu 3 iyul 1381-ci il tarixində Maraşa çatdı. Bu vuruşmada Xəlil bəyin qardaşı Sülü bəyin tabeliyindəki ordu müttəfiq qoşunları tərəfindən məğlub edildi. Maraş şəhəri məmlüklərin əlinə keçdi (6 iyul 1381). Sülü bəy əvvəlcə Əlbistana çəkildi. Məmlüklər isə onu təqib etməkdə idi. Ona görə Xəlil bəyin təhkim etdiyi

Xarputa getmək məcburiyyətində qaldı. Məmlüklər Əlbistanı ələ keçirib, Malatya üzərinə yürüş etdilər. Fərat çayını keçə bilməyən Məmlük ordusu Hələbə geri döndü. Beləliklə, Zülqədər bəyliyi iki böyük şəhəri – Maraş və Əlbistanı itirdi. Zülqədər bəyliyində yalnız Xarput qaldı.

Xəlil bəy bu çətin vəziyyətdən çıxmaq üçün Məmlük əmirlərinə xəbər göndərərək, onlara itaət edəcəyini bildirdi. Bundan sonra Məmlük ordusu bölgəni tərk etdi. Məmlüklər bölgədən çəkildikdən sonra Xəlil bəy, əvvəlki razılaşmadan vaz keçdi, təkrar Məmlük ərazisi üzərinə basqınlar etməyə başladı. Onun bu hərəkəti Hələb valisi Yel Buğanın yenidən Zülqədər torpaqlarına hücum etməsinə səbəb oldu (1392). Xəlil bəy Yel Buğanın qarşısında dura bilməyərək sərt, keçilməz dağlara çəkildi. Onun qaçdığını görən Yel Buğa Maraşdan Hələbə geri döndü.

Hələb valisi Yel Buğa ilə Zülqədər Xəlil bəyin müharibə etdiyi vaxt Misirdə qarışıqlıqlar yaranmış və sultanın atabəyi olan Bərkuk özünü sultan elan etmişdi. Onun sultanlığını qəbul etməyən bəzi türk əmirləri və Əlbistan naibi təyin edilən Əlaəddin Altın Buğa üsyan etdilər. Altın Buğa zülqədərlərlə razılaşaraq Darəndəni mühasirə etsə də mühasirə faydasız oldu. Hələb valisi Yel Buğanın müttəfiq qüvvələr üzərinə gəlməsi xəbərini eşidən Altın Buğa Qazı Bürhanəddin Əhmədin yanına gedərək ona sığındı.

Qazı Bürhanəddin Əhməd Əratna xanədanlığına son qoyaraq, Orta Anadolunun ən güclü dövlətini qurdu. Bu güclü dövlət adamı məmlüklərlə düşmənçilik etdiyinə görə Xəlil bəy onunla dostluq münasibəti qurmağa başladı. O, üsyan edən valiləri məğlub etmək üçün qardaşı Osman bəyi bir dəstə ilə Qazı Bürhanəddinin yanına göndərdi. Bununla da Qazı Bürhanəddin Əhməd ilə zülqədərlər arasında uzun müddət davam edəcək bir dostluğun əsası qoyuldu.

Zülqədəroğlu Xəlil bəy 1384-cü ilin əvvəllərində məmlüklər üzərinə yenidən hücum edərək Əlbistan və Maraşı geri aldı. Hələb valisi Yel Buğa Əlbistan və Maraşın zülqədərlər əlinə keçdiyini xəbər alar-almaz, dərhal Maraşa gedərək buradakı zülqədərləri məğlubiyyətə uğratdı. Bunu görən Xəlil bəy şimala doğru çəkilərək, Qazı Bürhanəddinin dəstəyi ilə Məmlük hakimiyyətində olan Darəndə və Divriği bölgələrini qarət etməyə başladı. Bu xəbəri eşidən kimi Yel Buğa Maraşdan Əlbistana yollandı və müttəfiqlərin qüvvələrini əvvəlcə Darəndə, sonra isə Sivas yaxınlığında iki dəfə məğlubiyyətə uğratdı.

Məmlüklər qarşısındakı davamlı məğlubiyyətlər Xəlil bəy ilə qardaşı Sülü bəy arasında narazılığın yaranmasına səbəb oldu. Bir müddət sonra Sülü bəy həyatına toxunulmayacağına dair söz aldı və Hələb valisi Yel Buğanın yanına gedərək ona itaət edəcəyini bildirdi. Sultan Bərkuk onun dərhal tutulub

Qahirəyə göndərilməsini tələb etdi. Yel Buğa isə verdiyi sözə əməl edərək Sülü bəyi sultana göndərmədi və qaçmasına göz yumdu. Sülü bəyin qaçmasına şərait yaratdığına görə Hələb valisi Yel Buğa Misirə çağırılaraq həbs edildi. Xəlil bəyin digər qardaşları İbrahim bəy, Osman bəy və İsa bəy də böyük qardaşları Xəlil bəydən üz döndərərək Sultan Bərkukun himayəsinə sığındılar.

Məmlük Sultanı Bərkuk Xəlil bəyin sürəkli basqınlarından yorulmuşdu. Bu onu Xəlil bəydən qurtulmaq üçün tədbirlər görməyə məcbur etdi. Bu işi isə Hələbdəki türkmən tayfasından olan Yağmuroğlu İbrahim bəyə tapşırdı. Xəlil bəyi öldürmək əmri alan İbrahim bəy o zaman yaylaqda olan Xəlil bəyi hiylə işlədərək öldürdü (Aprel 1386).

Xəlil bəyin ölümündən sonra hakimiyyət başına onun ən kiçik qardaşı **Sülü bəy** keçdi. Yeri gəlmişkən, Xəlil bəyin Əli bəy (ləqəbi – Əlaəddin), Məhəmməd bəy (ləqəbi – Nəsrəddin), Əbdürrəzzaq bəy adlı oğulları vardı.

Sultan Bərkuk Sülü bəyi müstəqil hakim kimi tanıdı.

Zülqədərlərin bərpa olunmasını istəməyən Sultan Bərkuk Sülü bəyin bəyliyin başına keçdiyini eşidən kimi Həmadakı qüvvələri onun üstünə göndərdi. Sülü bəy Əlbistana gələn bu qüvvələr ilə Göksun yaylağında qarşılaşdı. Baş verən vuruşmada Məmlük qüvvələri məğlub edildi. Döyüşdə Həma və Besni valiləri də öldürüldü. Bu xəbər Sultan Bərkuka çatdı. O, Sülü bəyin qarşısına rəqib olaraq çıxartmaq üçün Qahirədə həbsdə olan İbrahim bəy və Osman bəy qardaşlarını sərbəst buraxdı. Osman bəy Sülü bəyə tabe oldu. İbrahim bəy isə bir müddət Sülü bəyə qarşı uğursuz mübarizə apardı. Bundan sonra Sultan Bərkuk Sülü bəyin qarşısına bu dəfə Xəlil bəyin qatili Yağmuroğlu İbrahim bəyi çıxartdı. Ancaq İbrahim bəy də Maraş ətrafında baş verən döyüşdə zülqədərlərə məğlub oldu (1387).

Sultan Bərkuk Sülü bəyi məğlub edə bilmədiyini görüb, onun bəylik fərmanını təsdiq etmək məcburiyyətində qaldı. Sülü bəyin hakimiyyətinin ilk illərində qarşısına bir rəqib kimi qardaşı oğlu, Məmlük əmirlərindən kömək alan Nəsrəddin Məhəmməd bəy çıxdı. Sis naibi Sungur bəy ilə birləşən Məhəmməd bəy 1388-ci ildə əmisi Sülü bəyi məğlubiyyətə uğratdı. Bu vuruşmada Məmlük sultanının Malatya naibi Mintaş Sülü bəyin tərəfinə keçdi. Məğlubiyyətdən sonra Sülü bəy Dəvəli qalasına çəkildi. Yel Buğa, Mintaş və digər Türk-Məmlük əmirlərinin Sultan Bərkuka qarşı üsyanında Sülü bəyin verdiyi Zülqədər qüvvələri, Qeysəri üzərinə hücumda isə qardaşı oğlu Məhəmməd bəy və onun tabeliyində olanlar sultan Bərkukun tərəfində vuruşurdular.

Üsyançı qüvvələr Sultan Bərkuku taxtdan saldı. Yel Buğa ilə Mintaş arasında hakimiyyət uğrunda mübarizə başladı. Yel Buğanı məğlub edən Mintaş özünü atabəy elan etdi. Ancaq çox keçmədən Bərkuk üstünlük qazanaraq hakimiyyəti

yenidən ələ aldı. Sülü bəy və Mintaş təkrar bir araya gələrək Məmlük ərazisinə qarətçi yürüşlərini davam etdirdilər. Onlar Antəp şəhərini ələ keçirdilər.

Bu dövrdə Əmir Teymur Şərqi Anadolu hərbi səfərinə çıxmışdı. Sülü bəy onun yanına elçilər göndərərək itaət etdiyini bildirdi. Sülü bəy Əmir Teymuru Suriya üzərinə hücum etməyə sövq etdi (1394). Zülqədəroğlu Sülü bəyin bu hərəkətindən xəbər tutan Məmlük sultanı Bərkuk böyük bir ordu hazırlayaraq zülqədərlərin üzərinə göndərdi (1395). Hələb valisinə tabe olan Məmlük ordusu Sülü bəyi ağır məğlubiyyətə uğratdı. Canını güclə qurtaran Sülü bəy bütün məiyyətini itirdi. Bu qələbəyə də qane olmayan sultan Bərkuk Sülü bəyə sui-qəsd təşkil edərək onu öldürtdü (mart 1398).

**Sülü bəyin Sədəqə bəy, Əhməd bəy adlı oğulları, Dövlət xatın adlı qızı vardı.**

1398-ci ildə Sülü bəyin öldürülməsindən sonra onun yerinə zülqədərlərin başına oğlu **Sədəqə bəy** keçdi. Buna rəğmən, əmisi oğlu **Nəsrəddin Məhəmməd bəy** Sədəqənin bəyliyini tanımadı. Nəsrəddin Məhəmməd bəy Zülqədər taxtını əldə etmək üçün Osmanlı Sultanı İldırım Bəyaziddən kömək istədi. O, İldırım Bəyazidin dəstəyi ilə 1399-cu ildə Zülqədər hökmdarı oldu. Bununla da osmanlılar ilə məmlüklər arasında Zülqədər bəyliyi üzərindəki hakimiyyət uğrunda mübarizə başladı. Bu mübarizə 1515-ci ilədək davam etdi.

Nəsrəddin Məhəmməd bəy bəyliyi qoruyub saxlamaq üçün osmanlılardan kömək almaqla yanaşı, məmlüklərlə dostluq münasibətləri qurmuşdu. O, İldırım Bəyazidin tərəfdarı olaraq, Sülü bəyin tam əksinə, Əmir Teymurla düşmənçilik edirdi. Əmir Teymur 1400-cü ildə Sivası mühasirə etdiyi zaman Əlbistan türkmənləri onun ordusuna basqınlar edirdilər. Türkmənlərin bu hərəkətləri Zülqədər ölkəsinin Əmir Teymur ordusu tərəfindən qarət edilməsinə səbəb oldu. Əmir Teymur Sivas mühasirəsindən sonra Əlbistan və Zülqədər torpaqlarını işğal edərək bütün məmləkəti viran qoydu. O, Malatya və Behisnini də zəbt etdi. 1401-ci ildə Suriyadan qayıdanda da Zülqədər torpaqlarına yenidən girən Əmir Teymur oranı qarət edərək xarabaya çevirdi.

Nəsrəddin Məhəmməd bəy məmlüklər və osmanlılarla dost olduğu halda, qonşuları Qaramanoğulları və Ramazanoğulları bəylikləri ilə daim düşmənçilik edirdi. Məmlük sultanı Məlik Müəyyəd Şeyx Qaramanlıların əlindəki Kayseri qalasını ələ keçirdikdən sonra buranı mükafat olaraq Nəsrəddin Məhəmməd bəyə verdi (1419). Bu zülqədərlər ilə qonşuları arasında düşmənçiliyin başlanğıcını qoydu. Məmlük ordusu Suriyaya qayıtdıqdan sonra Qaramanoğlu Məhəmməd bəy Ramazanoğlu İbrahim bəy ilə birləşərək Kayseri üzərinə yürüş etdi. Ancaq Zülqədəroğlu Nəsrəddin Məhəmməd bəy bu müttəfiq ordunu məğlubiyyətə uğratdı, Qaramanoğlu Məhəmməd bəyi əsir aldı və onu oğlu Davud bəyin mühafizəsində Məmlük sultanına göndərdi.

Zülqədəroğlu Nəsrəddin Məhəmməd bəy bir tərəfdən məmlüklərlə mübarizə edir, digər tərəfdən isə Kayseri şəhərinə görə qaramanlılarla mübarizə aparırdı. Məhəmməd bəyin oğlu Süleyman bəy Kayseridə vali idi. 1438-ci ildə Qaramanoğlu İbrahim bəy Kayseri şəhərini ələ keçirdi. Zülqədəroğlu Məhəmməd bəy Kayserini qaytarmaq üçün oğlu Süleyman bəyi Osmanlı sultanı II Muradın yanına göndərərək ondan kömək istədi. Kayserinin qaramanlılar tərəfindən geri alınması Zülqədərlər qədər osmanlıların da mənafeyinə toxunurdu. Osmanlılar müharibə vəziyyətində olduqları bir bəyliyin genişlənib güclənməsinə seyirçi qala bilməzdilər. Bu səbəbdən, Osmanlı sultanı II Murad Kayseri üzərinə hücum edərək onu Qaramanlıların əlindən aldı və şəhərin idarəsini təkrar Zülqədər Nəsrəddin Məhəmməd bəyə verdi (1439).

Zülqədəroğlu Nəsrəddin Məhəmməd bəyin osmanlılarla yaxınlaşması Məmlük sultanı Çaxmağın bu bəyliyə qarşı düşmənçiliyini daha da artırdı. Ancaq zülqədərlərin osmanlılar ilə daha çox yaxınlaşmasından çəkinən Sultan Çaxmaq düşmənçiliyi çox davam etdirmədi. Nəsrəddin Məhəmməd bəy də məmlüklərə sədaqətini göstərmək üçün Qahirəyə gedərək orada bir ildən çox qaldı.

Zülqədər bəyliyinin başında duran Nəsrəddin Məhəmməd bəy 1442-ci ildə vəfat etdi.

**Nəsrəddin Məhəmməd bəyin Süleyman bəy, Rüstəm bəy, Davud bəy, Fəyyaz bəy adlı oğulları, Əminə xatın adlı qızı vardı.**

Nəsrəddin Məhəmməd bəyin ölümündən sonra Zülqədəroğulları bəyliyinin başına **Süleyman bəy** keçdi. Süleyman bəy 1442-ci ildən 1454-cü ilədək Zülqədər bəyliyinin başçısı oldu. Onun hakimiyyəti dövründə Zülqədər-Osmanlı münasibətləri geniş inkişaf etdi. Süleyman bəy qızı Siti xatını şahzadə Muradın oğlu II Mehmetə (Fatehə), digər qızını Məmlük sultanı Zahir Çaxmağa ərə verdi. Zülqədər bəyliyi iki böyük dövlətlə qohumluq əlaqələri yaradaraq öz varlığını qoruyub saxlaya bildi.

**Süleyman bəyin Şahbudaq bəy və Şahsuvar bəy, Məlik Arslan bəy, Əlaüddövlə Bozqurd bəy, İsa bəy adlı oğulları, Siti Mükrimə xatın adlı qızı vardı. İsa bəyin isə Ərdivanə bəy, Salman bəy, Xudadad bəy, Yəhya bəy və Yunis bəy adlı oğulları vardı.**

1354-ci ildə atası Süleyman bəyin ölümündən sonra yerinə oğlu **Məlik Arslan bəy** Zülqədər bəyliyinin hökmdarı oldu və 1465-ci ilədək bəyliyi idarə etdi. Onun dövründə zülqədərlər ilə ağqoyunlular arasında müharibə oldu. Zülqədərlərin əlində olan Xarput (Elazığ) 1465-ci ildə Ağqoyunlu hökmdarı



Uzun Həsən tərəfindən alındı. Məmlük dövləti ilə münasibətləri pozulan Məlik Arslan bəy Əlbistanda məsciddə ibadət edərkən Məmlük sultanı Xoşqədəm tərəfindən öldürüldü (1465-ci il).

Məlik Arslan bəyin oğlu Əmiraslan bəy bəylikdə hakimiyyəti ələ keçirməyə çalışsa da bir nəticə alınmadı.

Məlik Arslandan sonra qardaşı **Şahbudaq bəy** Zülqədər hakimi oldu. Şahbudaq bəy birinci dəfə1465-ci ildən 1467-ci ilədək, ikinci dəfə isə 1472-ci ildən 1480-ci ilədək Zülqədər bəyliyinin hökmdarı olmuşdur.

Süleyman bəyin oğlu **Şahsuvar bəy** 1467-ci ildən 1472-ci ilədək bəyliyin hökmdarı olmuşdur.

Şahsuvar bəyin  Osmanlı hökmdarı Sultan Fatehin köməyi ilə hakimiyyətə gəlməsi osmanlılarla məmlüklər arasındakı dostluq münasibətlərini pozdu. Məmlük sultanı Xoşqədəm Zülqədər taxtı üçün yeni bir namizəd tapdı. Onun Şahsuvar bəyin əmisi Rüstəm bəyi taxtı ələ keçirməyə təşviq etməsi nəticəsiz qaldı. Bundan sonra Məmlük sultanı Şahbudaq bəyə qüvvələr verərək onu Maraş və Əlbistan üzərinə göndərdi. Qardaşlar arasındakı mübarizədə Şahsuvar bəy qələbə çaldı. Məmlük sultanı zülqədərlər üzərinə Şam valisi Berdi bəyin başçılığı ilə daha bir ordu göndərdi. Şahsuvar bəy Osmanlı hökmdarının köməyi ilə Məmlük ordusunu məğlubiyyətə uğratdı (1467). Bir il sonra Sultan Qayıtbayın Əmir Qulaqsızın başçılığı ilə göndərdiyi çoxsaylı ordunu da məğlub etdi. Şahsuvar bəy Darəndəni məmlüklərin əlindən aldı.

Bu qələbədən daha da cürətlənən Şahsuvar bəy Məmlük ordusuna yardım etmiş Ramazanoğullarını cəzalandırmaq fikrinə düşdü. Onlara qarşı hücuma keçdi. Ramazanoğullarının əlindəki Payas və Sis (Kozan) şəhərləri Zülqədərlərin əlinə keçdi.

Məmlük sultanı Qayıtbay bu dəfə atabəyi Əmir Özbəkin başçılığı ilə başqa bir ordunu Zülqədərlərin üstünə göndərdi. Bu ordunu da məğlubiyyətə uğradan Şahsuvar bəy Məlikül-Müzəffər ləqəbini qazandı.

Ordularının davamlı surətdə Şahsuvar bəy tərəfindən məğlubiyyətə uğradılmasını görən Sultan Qayıtbay Fateh Sultan Mehmetə məktub yazaraq zülqədərlərin hücumlarının qarşısını almaq üçün ondan kömək istədi. Sultan Şahsuvar bəydən məmlüklərə qarşı hücumları kəsməyi tələb etdi. Şahsuvar bəy Osmanlı hökmdarını dinləmədi və hücumlarını davam etdirdi. Sultan Qayıtbay bu dəfə Əmir Yaşbəyin başçılığı ilə zülqədərlərin üzərinə yeni bir ordu göndərdi. Ceyhun çayı kənarında baş verən döyüşdə zülqədərlər məğlubiyyətə uğradıldı.

Məmlüklərə qarşı davam gətirə bilməyən və Zamantı qalasına çəkilən Şahsuvar bəy uzun bir mühasirədən sonra yaxalanaraq Qahirəyə aparıldı və burada üç qardaşı ilə birlikdə öldürüldü (1472).

**Şahsuvar bəyin Əli bəy və Qasım bəy adlı oğulları vardı.**

Məmlük sultanı Qayıtbayın köməyi ilə Şahbudaq bəy ikinci dəfə Zülqədər hakimi təyin edildi. Ancaq osmanlılar bu dəfə onu qəbul etmədilər. Şahbudaq bəyin qardaşı **Əlaüddövlə Bozqurd** bəyə dəstək verərək, Zülqədər hökmdarlığının 1480-ci ildə onun əlinə keçməsini təmin etdi.

Süleyman bəyin oğlu Bozqurd bəy «Əlaüddövlə» ləqəbini daşıyırdı. Osmanlı Sultan Fateh Mehmetin köməyi ilə hakimiyyətə gələn Əlaüddövlə Bozqurd bəy 1480-ci ildən 1515-ci ilədək bəyliyi idarə etdi. Sultan Fatehin ölümündən sonra o, məmlüklər qarşısında tək qaldı. O, üzərinə göndərilən Məmlük ordularını dalbadal məğlub etdi. Zülqədər bəyliyi üzündən Osmanlı–Məmlük münasibətləri pozuldu. Çuxurovada hakimiyyət uğrunda mübarizədən başlayan Osmanlı–Məmlük müharibələri 1485–1491-ci illər arasında davam etdi. Əlaüddövlə Bozqurd bəy qızı Ayşə xatını sultan II Bəyazidə verdi. Bu evlilikdən Səlim Yavuz dünyaya gəldi. Əlaüddövlə Bozqurd bəy də Yavuzun babası oldu.

Əlaüddövlə Bozqurd bəy Məmlük və Osmanlı torpaqları arasında yerləşən bəyliyini qoruyub saxlamaq üçün hər iki dövlətlə yaxın münasibətlər qurdu.

Yeritdiyi uğurlu siyasət nəticəsində uzun illər bəyliyin başında durdu. O, 1501-ci ildə yaranmış türk Səfəvi dövləti ilə mübarizə etmək məcburiyyətində qaldı. Belə ki, I Şah İsmayıl Əlaüddövlə Bozqurdun qızı Bəyli Xatınla evlənmək istədi. Lakin bu istək rədd edildi, Səfəvi dövləti ilə zülqədərlər arasında düşmənçilik yarandı. Zülqədər torpaqlarına girən Şah İsmayıl sonra Maraşı ələ keçirdi. Zülqədərlərə hirslənmiş I Şah İsmayıl Diyarbəkiri ələ keçirərək bölgə üzərinə hərəkət etdi (1508). I Şah İsmayılın Osmanlı torpaqlarından keçərək Əlbistana gəldiyini görən Bozqurd Durna dağına qaçdı və osmanlılardan kömək istədi. Harburt qalasını və Diyarbəkiri zəbt edən I Şah İsmayıl ölkəsinə qayıtdı. I Şah İsmayılın çəkilib getməsindən sonra Əlaüddövlə bəy Maraş və Əlbistanı yenidən geri qaytardı. Əlbistan xaraba qoyulduğundan paytaxt Maraşa köçürüldü. Bundan sonra Əlaüddövlə bəy osmanlılara qarşı məmlüklərin yanında yer almağa başladı. Yavuz Sultan Səlim Şah İsmayıla qarşı Çaldıran səfərinə başladı. O, bu səfərə Əlaüddövlə bəyi də çağırdı. Lakin Əlaüddövlə bu döyüşə qatılmadı, hətta I Şah İsmayıl ilə möhkəm ittifaq qurdu. Əlaüddövlə bəy Yavuz Sultan Səlimin yanında olan qardaşı Şahsuvar bəyin oğlu Əli bəyin osmanlılar tərəfindən dəstəklənməsini

yaxşı qarşılamırdı. Bu üzdən Çaldıran savaşına gedən Osmanlı ordusunun yolunu kəsərək təchizatlarını qarət etdi.

Yavuz Sultan Səlim 1514-cü ildə Çaldıran döyüşündəki qələbədən sonra Zülqədər bəyliyini ortadan qaldırmaq üçün hərəkətə keçdi. Zülqədər torpaqları alındığı təqdirdə Kayseri sancaq bəyliyinə gətirilmiş Şahsuvaroğlu Əli bəyə veriləcəyini bildirdi. 1515-ci ildə Əli bəy və Rumeli bəylərbəyi Sinan paşa Əlaüddövlə bəyin üstünə göndərildi. 13 iyun 1515-ci ildə Göysun yaxınlığında Durna dağında osmanlılar ilə zülqədərlər arasında baş verən döyüşdə Əlaüddövlə bəy məğlub olaraq oğlanları və qohum-əqrəbası ilə birlikdə edam edildi. Bununla da, Zülqədəroğulları bəyliyi süqut etmiş oldu.

Əlaüddövlə Bozqurd bəyin Şahrux bəy el arasında Kor Şahrux adlanırdı. Əhməd bəy, Turaq bəy, Süleyman bəy, Ərdivanə bəy adlı oğulları, Ayşə xatın, Bəyli xatın adlı qızları vardı. Onlardan Zülqədər bəyliyinin hökmdarı Əli bəy oldu (1515–1522).

1515-ci ildə Maraş və ətrafındakı ərazilər osmanlılar tərəfindən işğal edildi. Ancaq Zülqədəroğulları bəyliyinə birdən-birə son verilmədi. Yavuz Sultan Səlim Zülqədər torpaqlarının idarəsini Şahsuvaroğlu Əli bəyə verdi. Əli bəyin Zülqədər hökmdarı, yoxsa Osmanlı dövlətinin valisi olduğu məlum deyildi. Şahsuvaroğlu Əli bəy Maraş və Əlbistan ərazilərindən əsgər toplayaraq Yavuz Sultan Səlimin məmlüklərin üstünə səfərlərində iştirak etdi. 1516-cı ildə Nizip ərazisində Mərcidabık döyüşündə Osmanlı ordusu Məmlük ordusunu ağır məğlubiyyətə uğratdı. Məğlubiyyətə dözməyən Məmlük sultanı Kansu Qavri (Quri) üzüntüdən öldü. Onun yerinə Tumanbay Məmlük sultanı oldu. Əli bəy bu müharibədə böyük qəhrəmanlıqlar göstərdi. Antəp və ətrafındakı ərazilərin osmanlıya qatılmasında böyük rol oynadı. Osmanlı ordusunun Suriya və Misirə yürüşü zamanı Əli bəy onlara bələdçilik etdi. 1517-ci ildə Qahirə yaxınlığında Ridaniyə döyüşündə qələbə qazanmaqda böyük rol oynayan Əli bəy Yavuz Sultan Səlimin etibarını qazandı. Məmlük sultanı Tumanbay tutulduqda Yavuz Sultan Səlim onu Əli bəyə təslim etdi. Əli bəy də atası Şahsuvar bəyin Qahirədə edam edilməsinin intiqamını alaraq, Tumanbayı edam etdirdi.

Misir səfərindən qayıtdıqdan sonra Əli bəy öz məmləkətinə döndü. O, bəyliyin mərkəzini Maraşdan təkrar Əlbistana köçürdü. Əli bəy özünü müstəqil bir dövlətin hökmdarı kimi görməklə bərabər, Osmanlı dövləti ilə dostluq edirdi. O, osmanlılara hər yerdə kömək edirdi. 1519-cu ildə əvvəlki Zülqədər torpaqları olan Bozoqda (Yozgat) ortaya çıxan Cəlalın osmanlılara qarşı üsyanını yatırtdı, Cəlal və adamlarını aradan götürdü.

Məmlük dövlətini yenidən qurmaq üçün Canberdi Qazali 1521-ci ildə Suriyada Osmanlı dövlətinə qarşı böyük bir üsyan başladı. Bu üsyanı yatırmağa Osmanlı sərkərdəsi Fərhad paşa göndərildi. Əli bəy Fərhad paşanı gözləmədən Canberdi Qazalinin üstünə yürüş etdi, onu məğlub edərək qətlə yetirdi. Bu, Osmanlı vəziri Fərhad paşanın Əli bəyi qısqanmasına səbəb oldu. Əli bəy osmanlılara bağlılıq göstərməsinə rəğmən, özünü bir xanədan üzvü kimi görürdü. Osmanlı dövləti isə onu bir sancaqbəyi kimi qəbul edirdi. Misir və Suriyani fəth edən osmanlılar torpaqları arasında müstəqil bir dövləti əsla qəbul edə biməzdilər. Zülqədər ölkəsində Əli bəyin bəzi işlərindən narahat olan xalq sultana şikayətlər edirdi. Həmin şikayətlərə əsasən, Osmanlı dövləti Əli bəyin ölkəsinə təftiş məmurları göndərdi. Əli bəy daxili işlərinə qarışıldığını düşünərək, göndərilən məmurları dərhal qətlə yetirdi. Bu hadisə iki tərəf arasında səbr kasasını daşdıran son damla oldu. Əli bəyi qısqanan və onu qəbul etməyən Fərhad Paşa, Sultan Süleyman Qanunidən onun qətlinə fərman aldı. İran səfəri bəhanəsilə Toqata çağırılan Əli bəy Artuqovada (Artova) oğulları ilə birlikdə 1522-ci ildə qətlə yetirildi.

Zülqədər bəyliyinin süqutundan sonra həmin torpaqlarda Maraş və Bozoq sancaqları yaradıldı. 1531-ci ildə mərkəzi Maraş olmaqla Zülqədər əyaləti yaradıldı. Antəp, Sis və Bozoq bu əyalətin tərkibinə qəza kimi daxil edildi.

Maraşın istilasından sonra bu ərazilərdə tez-tez Osmanlı idarəçiliyinə qarşı üsyanlar baş verirdi. Bu üsyanlardan ən böyüyü Söklənoğlu Musanın, Atmacanın başçılığı ilə olmuş üsyanlar idi.

Üsyanların əksəriyyəti məğlubiyyətlə nəticələndi.

**Şahrux bəyin Məhəmməd bəy, Mirzəli bəy, Əhməd bəy adlı oğulları vardı.**

Məhəmməd bəy Əlbistanda anadan olmuşdu. O, Səfəvilərə sığınmış və Astrabad valisi təyin edilmişdi. Ancaq ətrafındakılar onun şiə mənsəbini qəbul etməsinə şübhə edirdilər. Sultan Süleyman Qanuninin İraq səfəri zamanı I Şah Təhmasib tərəfindən min nəfərlik Zülqədər ordusu ilə osmanlılara qarşı göndərilmişdi. Lakin Məhəmməd bəy Zülqədəri Səfəvi dövlətindən üz döndərmiş, Osmanlı dövləti tərəfinə keçmişdi. Sultan Süleyman Qanuni onu daha əvvəl Osmanlı dövləti tərəfinə keçmiş Üləma sultanı ilə birlikdə Təbriz üzərinə göndərmişdi. Həmin hadisə I Şah Təhmasibin qardaşı Sam mirzənin üsyanı ilə eyni vaxta düşmüşdü.

Tarixçi Mehmet Solakzadə də Zülqədər bəylərindən Məhəmməd bəyin qızılbaşlardan üz çevirərək Osmanlı dövlətinə sığındığını (29 sentyabr, 1534) təsdiq edir[1].

[1] Solakzade Mehmet Hemdem. Haz. Dr. Vahit Çabuk. – Ankara: Kültür Bakanlığı Yayınları, №1089.

Zülqədər Məhəmməd Sultan Süleyman Qanuninin əmri ilə Ərzurum əyalətinə bəylərbəyi təyin edilmişdi (sentyabr, 1535-ci il).

Məhəmməd xan 1535–1539-cu illərdə Ərzurumun bəylərbəyi olmuşdu.

Zülqədər Məhəmməd xan, qardaşı Mirzə Əli bəy, Bəhram bəy və qardaşı oğlu Şahməhəmməd bəylə birlikdə Zülqədərdən olan dəstələri və Təbrizdən qoşulan sünni əhalini Ərzuruma köçürtdülər. Qardaşlar Təbrizdən gələn şəhər xalqını da burada yerləşdirdilər və özləri Bayburd qalasında qaldılar. Beləliklə, Ərzurum həm Osmanlı şəhəri olaraq canlanır, həm də başqa yerləri işğal etmək üçün baza rolunu oynayırdı.

1536-cı ildə Məhəmməd bəy gürcü bəylərini Osmanlı dövlətinə tabe etdirmişdi.

XVI əsr Osmanlı mənbələrində 1536-cı il 26 sentyabr, 1538-ci il 31 may tarixləri arasındakı («Tabii Məhəmməd Xan» adlı dəftərdə, «Dəftəri Vilayəti-Ərzurum tabii Məhəmməd xan» adlı icmal dəftərlərində) ilk Ərzurum bəylərbəyi olan Zülqədər Məhəmməd xan haqqında ətraflı məlumat verilir.

Gelibolulu Mustafa Əli Çələbi də Osmanlı xidmətinə daxil olan iki qardaş – Məhəmməd xan və Mirzəli bəy zülqədərlər haqqında məlumat vermişdir.

Məhəmməd xan 1570-ci ildə vəfat etdi[1].

**Məhəmməd xanın Şahəli bəy adlı oğlu vardı.**

Şahrux bəyin ikinci oğlu Mirzəli bəy Əlbistan şəhərində anadan olmuşdu. O, I Şah Təhmasibə xidmət etmişdi. Sonralar o, qardaşı ilə bərabər Osmanlı dövləti tərəfinə keçmişdi. Onun Rasin sancağında beş nahiyəsi və Rumelidə xas mülkü var idi. Həmin beş nahiyə bunlar idi: Abnik, Güney Rasin, Quzey Rasin, Zivin və Mıcıngerd.

Mirzəli bəy 1548-ci ildə məşhur Qars qalasını təmir etdirmişdi, 1572-ci ildə Ərdəhanın sancaqbəyi olmuşdu.

**Mirzəli bəyin Şahməhəmməd bəy və Bəhram bəy adlı oğlanları var idi.**

Şahməhəmməd bəy Əlbistanda doğulmuşdu. Atası ilə bərabər Osmanlı tərəfinə keçmiş, Rasində məskunlaşmışdı. Burada o, 1538-ci ildə ziyamət almışdı.

Şahməhəmməd bəy 1560–1571-ci illərdə Qarsın sancaqbəyi olmuşdu.

[1] Əli. Künhül-Əhbar. III cild. İstanbul, 1277–1285, səh. 234.

**Şahməhəmməd bəyin Ömər bəy adlı oğlu var idi.**

Ömər bəy 1572-ci ildə Ərzurumun Həsənqala bölgəsində doğulmuşdu. Buna görə həmin dövrün bəzi qaynaqlarında Ömər bəydən Nəfidən Ərzənür-Rumi deyə, bəzilərində «Nəfi bəy» deyə bəhs olunur.

Ömər bəy Nəfi kiçik yaşlarından mükəmməl təhsil görmüşdü. İlk təhsilini Həsənqalada almış, sonra Ərzuruma gələrək təhsilini mədrəsədə davam etdirmişdi. Burada o, ərəb və fars dillərini öyrənmiş, fars ədiblərinin məşhur əsərlərini oxumuşdu. Ömər bəy Nəfi hələ Ərzurumda təhsil alarkən gənc yaşlarında şeir yazmağa başlamışdı. İlk təxəllüsü Zarri ("zərərli") idi. 1585-ci ildə Ərzurum dəftərdarı olan Gelibolulu Müvərrix Əli onun şeirlərini oxumuş və bəyənmişdi. O, gənc şairə «Nəfi», yəni «yararlı» təxəllüsünü vermişdi.

Ömər bəy Nəfi Osmanlı sultanı I Əhmədin hakimiyyəti dövründə İstanbula gəlmiş, dövlət xidmətinə girmiş və bir müddət müxtəlif işlərdə işləmişdi. Sultan II Osman və sultan IV Muradın dövrlərində Ömər bəy Nəfi sarayla daha yaxın əlaqə qurmuşdu.

Ömər bəy Nəfi XVII yüzilliyin və eləcə də sonrakı bütün türk ədəbiyatının ən böyük qəsidə şairi kimi tanınır. O istər öz dövründə, istərsə də sonrakı yüzilliklərdə qəsidə yazan bütün şairlərə təsir etmişdir.

Həcvləri ilə də məşhur olan Nəfi dövrünün bir çox tanınmış adamlarının, o cümlədən baş vəzirlərin nifrətini və qəzəbini qazanmışdı. Acı dilli, «qamçı qələmli» Nəfi sultan IV Murad tərəfindən uzun müddət qorunub himayə edilmişdi. Sultan IV Murad ondan bir də həcv yazmamasını tələb etmişdi. Nəfi Sultan IV Murada bu barədə söz versə də vəzir Bayram Paşa haqqında yenidən həcv yazmışdı. Bu həcvinə görə 1635-ci ildə sarayın odunluğunda kəməndlə boğularaq öldürülmüş və cəsədi İstanbul boğazından dənizə atılmışdı.

**Tuti-i möcizə-guyəm nə desəm laf değil**
**Çərh ilə söyləşəməm ayinəsi saf değil.**

**Ehl-i dildir diyemem sinəsi saf olmayana**
**Ehl-i dil birbirini bilməmək insaf değil.**

**Yinə əndişə bilir kadr-i dür-i güftarım**
**Rüzigar isə dəni dəhr isə sərraf değil.**

**Girdi miftah-ı dər-i gənc-i məani əlimə**
**Aləmə bəz-i göhər eyləsəm itlaf değil.**

**Levh-i mahfüz-ı suhandir dil-i pak-i Nəfi**
**Tab-ı yaran kimi dükkançe-i sahhaf değil.**

**Bəzi həcvləri:**

Tahir əfəndi ona şiə əsilli olduğunu (qəlp olduğu) söyləyərkən yazdığı həcv:

**"Tahir əfəndi bizə qəlp demiş,**
**İltifatı bu sözdə zahirdir.**
**Məzhəbim malikidir zira,**
**Etiqadımca qəlp Tahirdir."**

Aralarında düşən mübahisədən sonra dövrünün müftisinə yazdığı həcv:

**Fırsati**

**"Fırsati sən bu səmti bilməzsən**
**Eyləmə gəl bizimlə yox yerə cəng**
**Sənə qaç kərə dedim, anlamadın**
**Sözdə məzmun gərəkdir a pəzəvəng".**

Baş vəzirə yazdığı **"Köpək"** adlanan həcv:

**Gürci hınzırı a samsun-ı müəzzəm a köpək,**
**Kandə sən kandə nigehbani-i aləm a köpək.**

**Vay ol dövlətə kim ola mürəbbisi anun,**
**Bir sənin kimi dəni cəhl-i mücessəm a köpək.**

**Nə gunə qaldi mədəd dövlət-i Al-i Osman,**
**Hey yazuq hey nə musibət bu nə matəm a köpək.**

Nə xəyanətdür o sədrə bu zamanda ki, anun,
Olmaya sahibi bir Asəf-ı kərəm a köpək.

Xidmət-i dövlətə sair vüzəradan görələr
Bir fürumayə qoca ayuyı əqdəm a köpək.

Bu mahlallərdə ki, Bagdadı ala şah-ı Əcəm
Arz-ı rumu edə teshir Abaza həm a köpək.

Satdınız iki soysuz bir olub xanlığı
Kimsəyi etmədünüz bu işə məhrəm a köpək.

Paymal eylədiniz səltənətın irzini həm
Yox yerə oldı tələf ol qədər adəm a köpək.

Heç xanlıq satılır mı, hey ədəbsiz xain,
Tutalım olmamış ol fitnə müəzzəm a köpək.

Sən qədər düşmən-i dövlət mi olur a xınzır,
Nə durur səltənətun sahibi bilsəm a köpək.

Əhl-i dil düşməni din yoxsulu bir məlunsan,
Öldürürlərsə əgər can-be-cəhənnəm a köpək.

Böylə qalurmu soysuzlar əlində dövlət,
Noldu ya geyrət-i şahənşah-i əzəm a köpək.

Haqq götürdü ərəbi getdi hələ dünyadən
Kim götürsə əkəbincə səni bilməm a köpək.

**Filə naçar məgər yüklədələr tabutunu**
**Çəkəməz cife-i murdarunu adəm a köpək.**

**Fillər də çəkəməzsə nə əcəb laşəni kim,**
**Var mı bir sənciləyin div-i mülahhəm a köpək.**

**Sən soysuz eşşək, ol kirli orospu yaraşur**
**Bindürüb sırtına təşhir edərsəm a köpək.**

Mirzəli bəyin ikinci oğlu Bəhram bəy Şiraz şəhərində anadan olmuşdu. 1534-cü ildə atası ilə bərabər Osmanlı tərəfə keçmişdi. Bəhram bəyə də Atabəy ölkəsindən tutulan ərazilərdən 1538-ci ildə ziyamət verildiyi haqqında qaynaqlarda məlumatlar vardır.

Aşağıda Zülqədər bəyliyinin şəcərəsi verilir.

## Zülqədər bəyliyinin şəcərəsi



# ZÜLQƏDƏRİLƏR VƏ SƏFƏVİLƏR

Zülqədər elinin qollarından biri Qızılbaş tayfa ittifaqına qoşulmuş, Səfəvilər dövlətinin qurulmasında yaxından iştirak etmişdi.

Məşhur türkoloq Faruq Sümer Zülqədər elinin Qızılbaş tayfa ittifaqının yaranmasında oynadığı rol haqqında yazır: «Səfəvi dövlətini quran tayfaların əksəriyyəti tamamilə türklərdən ibarət idi. Bu tayfanın da böyük əksəriyyətini Anadolu türkləri təşkil edirdi. Qızılbaş tayfasını təşkil edən əsas oymaqlar bunlardır: Ustacalı-ustahacılı (Səfəvi dövründə ustaclı), Rumlu, Təkəlü, Zülqədər, Şamlı, Əfşar, Qacar»[1].

Zülqədər elinin nümayəndələri hələ Əmir Teymurun hakimiyyəti dövründə Ərdəbildə yaşayırdılar. Tarix elmləri doktoru Oqtay Əfəndiyev "Azərbaycan Səfəvilər dövləti" adlı əsərində Şah İsmayılın Azərbaycan hüdüdlarını tərk edərək Kiçik Asiyaya daxil olmasından əvvəl, qoşununun tərkibinə daxil olan Şamlı, Rumlu, Ərəşli, Zülqədər tayfalarından, həmçinin də Qaradağ, Əhər və Talış sufilərindən bəhs olunur[2].

Əhməd Zəki Vəlidi «Toğan» adlı kitabında Səfəvilərin ilk dövrlərində Azərbaycana hakim olan türk və türkmənlər haqqında yazır: «Teymur Ərdəbildə Şeyx Səfiəddin türbəsini ziyarət etməyə gəldikdə Ərdəbil şeyxi Xoca Əlinin xahişi ilə Rumlu, Şamlı, Musullu, Quzanlu, Kavanlı, Zülqədər və Qacarları Səfəvi şeyxinin tabeliyinə vermişdi. Ərdəbil və Muğan tərəflərində şeyxlərin «qızılbaş» ordusunu təşkil edənlər də Ustaclı, Şamlı, Təkəli, Baharlı, Zülqədər, Əfşar, Qacar və Varsaqlar idi. Səfəvilər dövründə «Otuz iki cavanşir» adı ilə adlanan Cavanşir qəbiləsi Şirvanda və Qarabağda yaşayırdı.[3]

Zülqədər elinin əksəriyyəti I Şah İsmayıla qoşulmuşdu. Onların başçıları Qızılbaş tayfa ittifaqında əhəmiyyətli yer tuturdular. Şahın qorçubaşılarından Dədə bəy, İlyas bəy (Keçəl bəy) Hacılar, Ümmət bəy Sarışıxlı, Süleyman bəy və başqaları Zülqədər elindən idilər.

Zülqədər eli haqqında "Qızılbaşlar tarixi"ndə müfəssəl məlumat verilir: "Bu tayfa Əlbistan və Maraşda yaşayıb və özlərinin müstəqil hökmdarları olub. Məsələn, onların çoxu, o cümlədən Məlik Aslan, Nəsrəddin, Süleyman və Əlaüddövlə Səfəvi xanədanının müridləri idi. I Şah İsmayılın hakimiyyətə

---

[1] Faruq Sümer. Oğuzlar. – Bakı, 1992, səh. 163.

[2] Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. – Bakı, 1993

[3] Əhməd Zəki Vəlidi. Toğan. – Bakı, Azərbaycan, 2007, səh. 52.

gəldiyi ilk dövrlərdə onların böyük əksəriyyəti saraya gəldi və Şirazın idarəsi onlara tapşırıldı. Şirazda Xəlil Sultan, Əli Sultan, Murad Sultan, Həmzə Sultan, Qazi xan, İbrahim xan, Əli Sultan Tatıoğlu, Şahvəli Sultan, Bərxurdar Sultan, Məhəmmədcan Sultan, Vəli Sultan hakimlik etmişdilər.

Bu tayfanın böyük əmirlərindən Məhəmməd xan Zülqədəroğlu Şah Təhmasibin yanında böyük nüfuza malik idi. 940-cı ildə (23.VII.1533–12.VII.1534) Rum padşahı Sultan Süleyman İrana gələrkən Məhəmməd xan Sultaniyyədə Şah ordusuna qoşuldu. Onun adından Ərzurum hakimi oldu. O, Rumelidə vəfat etdi.

Zülqədəroğullarından biri də, əmir Şahqulu Xəlifədir. Şah Təhmasibin qorçusu olan Şahqulu Xəlifə Dəli Şeyxin öldürülməsindən sonra eşikağası olmuşdu. Məhəmməd bəy Ərdivanoğlunun vəfatından sonra isə o, Şah Təhmasibin möhrdarı vəzifəsinə təyin edilmişdi. Şahqulu Xəlifə Astarabadda xəstəlikdən vəfat etdi.

Şahrux xan da Zülqədəroğullarındandır. O, II Şah İsmayılın və Sultan Məhəmməd padşahın vaxtında möhrdarlıq vəzifəsini daşımışdır.

Ümmət xan Zülqədəroğullarındandır. Türkmən və Təkəli döyüşlərində məğlub olandan sonra, Yezdə getmiş və orada qorçubaşı Qulu xan Əfşarın vəziri Məqsud bəyin əli ilə öldürülmüşdür.

Zülqədəroğullarından Əli xan Sultan Məhəmməd tərəfindən Şiraza hakim göndərilmişdir. Zülqədər əyanları ondan üz döndərdilər. Əlixan vəkili və kürəkəni Mehdiqulu bəy tərəfindən öldürülmüşdür.

Yaqub xan Zülqədəroğullu I Şah Abbas tərəfindən Fars vilayətinə hakim təyin edilmişdir. Sonralar I Şah Abbasa itaətsizlik etdiyinə görə, cəzalandırılmış və edam etdirilmişdir.

Bu tayfanın əmirlərindən biri də Nadir xandır, möhrdar olmuşdur.

"1500-cü ildə Qızılbaş qoşunu Şirvana yürüş edərkən Zülqədər sərkərdələrindən Salman bəy Həzin və başqaları bu səfərdə iştirak etmişdilər.

1506-cı ildə I Şah İsmayıl Süleyman bəyi cəzalandırdı. Zülqədər qoşununun başçılığı Ümmət Sarışeyxli Zülqədərə tapşırıldı və ona Sultan Xəlil ləqəbi verildi. Şiraz vilayətinin idarəsi ona layiq görüldü."[1]

1509-cu ildə Əbdal Dədə bəy Zülqədər əmirlikdən çıxarıldı. Onun mülkü Zeynal xan Şamlıya verildi.

---

[1] Qızılbaşlar tarixi. – Bakı, 1993, səh. 31–32.

1514-cü il Çaldıran döyüşündə Osmanlı ordusuna qarşı vuruşan Qızılbaş ordusunun sol qolunda Xəlil sultanın başçılığı altında Zülqədər qoşunu dayanmışdı.

1520-ci ildə Xəlil sultan Zülqədər gözdən düşüb Şah tərəfindən öldürüldükdən sonra Farsın bəylərbəyliyi İzzəddin Əli sultan Çiçəkli-Zülqədərə tapşırıldı[1].

1525-ci ildə Əli sultan Çiçəkli-Zülqədər ustaclıların fitnəsini yatırmaq üçün səfərbər edilmişdi.

Özbəklərin Xorasana hücumunu dəf etməyə yollanan Qızılbaş əmirləri arasında Əli sultan da var idi. I Şah Təhmasib onun haqqında yazırdı: «Əmirləri yığıb bu barədə söhbət edib məsləhətləşdik. İraq və Fars vilayətlərinin əmirlərinin Təbəristan sərhədindəki Larican yaylağında ona qoşulmaları şərtilə Div Sultan özbəklərin dəf edilməsini öhdəsinə götürdü. Bu barədə ona əmrlər verdim: İsfahan hakimi Cuhə sultan Təkəli, Şiraz valisi Əli sultan Zülqədər, Həmədan hakimi Qaraca sultan Təkəli və Məşhəd hakimi Burun sultan Təkəli yaylaqda onun başçılığı ilə birləşib özbəkləri Xorasandan qovsunlar. Lakin birləşmə məsələsində ziddiyyətlər baş verdiyi üçün özbəkləri qovmaq tədbiri dayandırıldı və Xorasana getmədən onlar geri qayıtdılar"[2].

Əli sultan Çiçəkli-Zülqədər 1525-ci ildə Təbrizdə vəfat etdi. Onun yerinə öncə qardaşı oğlu Murad sultan, sonra isə Həmzə sultan Camışlı-Zülqədəri təyin edildi.[3]

1527-ci ildə Mustafa bəy (Köpək sultan) Ustaclı Gilandan qoşun toplayaraq Ərdəbilə gəldi. Ərdəbilin hakimi Badəncan sultan Rumlunu məğlub edib, öldürdü. Oradan Çuxursəd əyalətinə, Rumlu elinin yaşadıqları yerə hərəkət etdi. Vəkil Əli bəy (Div sultan) bu xəbəri eşidib Çuxa sultan Təkəli və Məhəmməd xan Zülqədərin yaxından köməyi ilə səkkiz min qorçu ilə Qərbi Azərbaycana yollandı. Tərəflər Naxçıvanda, Araz çayının sahilində üz-üzə gəldilər. Ustaclı qoşunu darmadağın edildi. Qoşunun başçısı Mustafa bəy öldürüldü.

I Şah Təhmasibin hakimiyyəti illərində Zülqədər elinin tanınmış əmirləri – Murad sultan Çiçəkli, Həmzə sultan Camışlı, Qazı xan Sarışıxlı, Qaya sultan, Şirhəsən bəy İymur, Süleyman bəy Mülkənoğlu, Bayandır bəy Mülkənoğlu,

---

[1] Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. – Bakı: Elm, 1996, səh. 38.

[2] I Şah Təhmasibin təzkirəsi. – Bakı, 1996, səh. 17.

[3] Yenə orada, səh. 18.

Əli sultan Tatıoğlu, bayraqdar Şahverdi xəlifə Söklənoğlu və başqaları müxtəlif dövlət vəzifələrinə təyin edilmişdilər.

Möhrdarlıq vəzifəsinə çox zaman Zülqədər əmirləri təyin olunurdu. Möhrdarlardan Mahmud bəy Ərdivanəbəyoğlu, Şahqulu bəy Qurğulu, Nadir xan, Şahrux xan Sarışıxlı və digərlərini göstərmək olar.

1530-cu ildə Zülqədər elindən Özkəmər (bəzi qaynaqlarda adı Ürkməz yazılır) bəy Ülamə bəy Təkəli ilə birləşib Osmanlı dövlətinə qaçmışdı. Həsən bəy Rumlunun yazdığına görə, hicri 937 (1530/1531)-ci ildə Səfəvilərə xəyanət etmiş Ülamə bəy Təkəlinin I Şah Təhmasibə göndərdiyi elçi Ürkməz bəy Zülqədər Təbrizdə diri-diri yandırılmışdı[1].

Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazinin "Təkmilətül-əxbar" kitabında Zülqədər müridlərinin XVI əsrin 30-cu illər tarixi haqqında ətraflı məlumat verilir. Bu kitabda Cuhə Sultan ilə Zülqədər Ustaclı və Əfşar tayfalarının təkəlilərə qarşı mübarizəsi Təkəli tayfasının Təhmasib tərəfindən cəzalandırılması və Cuhə Sultan Təkəlinin öldürülməsi ətraflı şərh olunmuşdur[2].

Əbdi bəy Şirazinin qeyd etdiyi kimi, 1533-cü ildə I Şah Təhmasibin möhrdarı Mahmud bəy qopuq oyununda atdan yıxılıb öldü. Onun vəzifəsinə eşikağası Şahqulu xəlifə Qırğulu-Zülqədər təyin edildi.

1534-cü ildə Osmanlı hökmdarı I Sultan Süleyman Azərbaycana yürüş etdiyi zaman Təkəli və Zülqədər tayfalarının bəzi nümayəndələri osmanlıların tərəfinə keçdi. Məhəmməd xan Zülqədərin xəyanət edərək Osmanlı ordusuna qaçması I Şah Təhmasibə çox pis təsir etdi. Şah onu «oğul» adlandırırdı. Sultan Məhəmməd xanı Adilcəvaza hakim təyin etmişdi. Məhəmməd xan Üləma bəy Təkəli ilə birləşib Azərbaycana hücum etmişdi. Gəlibolulu Mustafa Əli Çələbi bu sırada Osmanlı dövlətinə xidmət edən iki qardaş (Məhəmməd xan və Mirzəli bəy Zülqədər qardaşları) haqqında məlumat verir: «Şahsuvar oğlu Əli bəyin qorxusundan şah tərəfinə qaçıb, orada xanlıq alan Məhəmməd xan və qardaşı Mirzə Əli bəy Sultan Süleyman Qanuniyə sığınmışdır. Məhəmməd xana Qars sancağı bəyliyi (doğrusu Qarsın da daxil olduğu Ərzurum sancağı) və qardaşına Çemişkəzək sancağı (doğrusu mərkəzi Avnik olan Rasin) vəzifəsi verildi. Bir az sonra Əli bəyə Qars bəylərbəyliyi verildi; Rasin bəyi (əslində Tiflis bəylərbəyi) olarkən vəfat etdi. Amma Məhəmməd xana Ərzurum bəylərbəyiliyi verildi. Daha sonra sədaqətli xidmətinə görə Rumelidə iki sancaq (inzibati bölgü) daha əlavə verildi. Məhəmməd xan Zülqədər 1569–1570-ci ildə vəfat etdi.

[1] Həsən bəy Rumlu. Əhsən ət-təvarix. X cild. – Tehran, 1331, səh. 238.

[2] Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Göstərilən əsəri, səh. 63.

1534-cü ildə Elaldı bəy Hacılar-Zülqədər Osmanlı ölkəsinə elçi getmişdi. Şah Həmzə sultan Camışlı-Zülqədəri Fars bəylərbəyliyindən çıxarıb Qazı xan Sarışeyxli-Zülqədəri təyin etmişdi.

1534-cü ildə I Şah Təhmasib Xorasanda olarkən qardaşı Sam Mirzəni Ağzivər xan Şamlı ilə bərabər Herata bəylərbəyi təyin etmək istəyir. Şiraz hakimi olan Qazi xan Zülqədər şaha məsləhət verir ki, bu təyinatın zərəri olar[1].

1535-ci ildə I Sultan Süleyman yenidən Azərbaycana yürüş etdi. Üləma bəy Təkəlinin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, Məhəmməd paşa özünün sayca üstünlüyünə arxalanıb, yeniçərləri ön sırada yerləşdirərək qızılbaşlılarla döyüşə girməyi qərara aldı. Lakin Şiraz hakimi Qazi xan Zülqədər Türkmən və Zülqədər tayfalarından olan qorçular dəstəsi ilə düşmənə hücum etdi. Həsən bəy Rumlunun sözləri ilə desək, «bir anda» hücuma keçən qızılbaşlar qalib gələrək, Sultanın bir neçə əyanını əsir aldılar. Qızılbaşlar böyük qənimət ələ keçirdilər[2].

1535-ci ildə məşhur Zülqədər əmirlərindən biri Şahqulu xəlifə Qırğuludur. Sarayda məmur, möhrdar olmasına baxmayaraq, o, döyüşən dəstəyə rəhbərlik edirdi.

Döyüşən orduda qorçu Şirhəsən bəy Eymur, Şahverdi xəlifə Söklən və başqaları yaxşı ad çıxarmışdılar.

Adlı-sanlı Zülqədər əmirlərindən biri olan Sədrəddin bəy haqqında "I Şah Təhmasibin təzkirəsi"ndə kifayət qədər məlumat verilir. Sədrəddin bəy haqqında yazılır: «Müntəşa sultan bəzi əmirlər ilə birlikdə Çərxəbənddə olanda hələ Həzrəti Xandigar Ucan mahalına çatmamış, Sədrəddin bəy Zülqədəroğlu ilə birlikdə Çərxəbənddən çıxaraq qaravul getmişdi. Yolda beş-altı yüz nəfərdən ibarət Rum qaravulları ilə üz-üzə gəlirlər. Onlar əvvəlcə vuruşmaq istəsələr də sonra Zülqədəroğlu adamları ilə birlikdə bütün avadanlıqlarını qoyub qaçırlar. Onlar deyirmişlər ki, arxada Rum qoşunu çoxdur. Əgər vuruşma başlanarsa, onlara kömək gələr və bunları məhv edərlər. Bu əsnada Sədrəddin bəyin adamlarından üç nəfəri rumlulardan bir neçə nəfəri əsir tutmaq məqsədilə karvansaraya soxulur. Bu zaman rumlular yetişirlər. Onlar karvansaradan çıxaraq rumlular ilə vuruşmaq istəsələr də qorçubaşının atı xəndəyə yıxılır. Rumlular tökülüb onu diri tutaraq Xandigarın yanına aparırlar. Xandigar ona xələt verir. Bir məktub yazıb, onun vasitəsilə göndərir.

[1] I Şah Təhmasibin təzkirəsi, səh. 31.

[2] Həsən bəy Rumlu.  Göstərilən əsəri, səh. 238

1540-cı ildə Həsən sultan Əfşar qiyam etmişdi. Bu hadisə ilə bağlı Əbdi bəy Şirazi yazır: «Bütün Fars əmirləri–Zülqədər, Əfşar və onlardan başqa tayfalar Rey şəhərinin qalasının mühasirəsinə getdilər ki, Həsən Sultanı tutub saraya gətirsinlər. Bunun üçün Qazı xan Sarışeyxli Zülqədər və başqaları da oraya getdilər. Hökmə əsasən, Qazı xan Zülqədər onu saraya gətirərkən yolda, Gərmrudun Miyanə məntəqəsinə çatdıqda, Qazı xan vəfat etdi. Qazı xanın mühafizəçiləri Həsən sultanı Şah Təhmasibin sarayına gətirdilər.

Qazı xanın vəzifəsi Keçəl bəy Hacılı Zülqədərin oğlu İbrahim bəyə verildi və o İbrahim xan ləqəbi aldı»[1].

1546-cı ildə Şah qardaşına qarşı qiyam edən Alxaz (Əlqasib) Mirzəylə danışıq aparmaq üçün möhrdar Şahqulu xəlifə Zülqədəri başqa qızılbaş əmirlərilə bərabər onun yanına göndərdi. Görüş Cavadda oldu. Onlar Şahzadəni dilə tutub vergi ödəməyə razı saldılar.

1546-cı ildə Zülqədər və Əfşar ellərinin arasına nifaq düşdü. Bir-birlərini qırmağa hazırlaşarkən Şahın möhrdarı Şahqulu xəlifə araya girib onları sakitləşdirdi[2].

1547-ci ildə I Şah Təhmasib Gürcüstana hərbi səfərindən qayıdarkən Gəncədən keçdi, Yevlaxda dayandı. O, buradan 5 min atlı ilə İbrahim xan Zülqədəri, Hüseyncan sultan Rumlunu, Göyçə sultan Qacarı, Şahverdi sultan Ziyadoğlunu, Xacə Basanı Şamaxıya göndərdi. Əlqasın əmiri Mehtər Dövlətyar bundan xəbər tutub Əlqasın ailəsini də özü ilə götürdü və Gülüstan qalasında gizləndi. Şahın əmirləri qalanı mühasirəyə aldılar. Alxaz (Əlqasib) Mirzə sonda məğlub olub, Osmanlı dövlətinə sığındı[3].

Zülqədər elinin tanınmış əmirlərindən olan Kor Söhrab bəy şahzadə Əlqas Mirzəni öyrətdiyinə görə, I Şah Təhmasib tərəfindən öldürülmüşdü.

1547-ci ildə kürd bəyləri Səfəvilər dövlətinə basqın etdiyi zaman Urmiyanın hakimi Vəli sultan Zülqədər onları məğlubiyyətə uğradıb ölkədən qovmuşdu. Məğlubiyyətə uğradılan kürdlər Osmanlı torpağına çəkildilər.

1548-ci ildə I Sultan Süleyman Azərbaycana hücuma keçdi və müəyyən əraziləri, o cümlədən Təbrizi işğal etdi. Azərbaycan əhalisinin ciddi müqaviməti və ərzaq catışmazlığı üzündən onlar geri çəkilməyə başladılar və Vanı ələ keçirib, orada yerləşdilər.

---

[1] I Şah Təhmasibin təzkirəsi, səh. 91.

[2] Həsən bəy Rumlu. Əhsən ət-təvarix. X cild. səh. 238

[3] Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Göstərilən əsəri, səh. 84.

Sultan Süleyman Van qalasını İsgəndər paşaya verib, özü Diyarbəkirə döndü. İbrahim xan Zülqədər və Məhəmmədi bəy Türkman Sultanın geri çəkilən ordusunun arxasınca hərəkət etdilər. Şəbüstər yaxınlığında Suriya və Diyarbəkir paşası, Maraş paşası ilə baş vermiş şiddətli vuruşmada onlara böyük tələfat üz verdi. I Şah Təhmasib Əli sultan Tatıoğlunu on min nəfərlik qoşunla Əxlat, Gözəldərə, Adilcəvaz və Muş ərazilərini viran qoymaq üçün göndərdi. Əli sultan vəzifəsini yerinə yetirib geri qayıtdı.

1548-ci ildə qarovulbaşı Qara xəlifə Zülqədər Malatya sancaqbəyi Osmanlı Osman bəyə qarşı vuruşda öldürüldü.

Süleyman bəy Mülkənoğlu Zülqədər 1548-ci ildə I Şah Təhmasibin hərəmxanasının qorçularının yasavulbaşı olmuşdu.

1551-ci ildə Bayandur bəy Mülkənoğlu-Zülqədər şah köçünü Qarabağa gətirmişdi. Həmin il şah Qarabağda qışlamışdı.

1552-ci ildə Əli sultan Tatıoğlu Dəmirçili-Zülqədər Şahqulu sultan Ustaclının əvəzinə Xorasan hakimi təyin edilmişdi.

1552-ci ildə Osmanlı ordusu yenidən Səfəvilər dövlətinə soxulduğu zaman I Şah Təhmasib düşmən ordusuna qarşı dörd istiqamətdə qoşun göndərmişdi. Ərəb İraqı istiqamətində İbrahim xan Zülqədər və Şahqulu xan Əfşar öz qoşunları ilə vuruşurdu.

1554-cü ildə I Sultan Süleyman Azərbaycana yürüş etdiyi zaman Zülqədər əmirlərindən Şahqulu xəlifə seçildi. Həmin ildə şah Təbət ağa Mehnalı-Zülqədəri barış üçün Osmanlı sarayına göndərildi.

1555-ci ildə Fars hakimi İbrahim xan Hacılar – Zülqədər şahın gözündən düşdü. Əli sultanın Şiraza hakim təyin edilməsi haqqında Əbdi bəy Şirazi yazır: «Qəzvinə xəbər çatdı ki, Şiraz hakimi İbrahim xan Gərmsir şəhərinin kələntəri Əmir Şəmsəddin Şəhriyar Cəhraminini kor edib. Onun İbrahim xana bu qəbahəti işlətməyi tövsiyə edən nökərlərini ələ keçirib, cəzalandırmaq üçün fərman verildi. Onları cəzalandırmaq üçün Əli sultan Dəmirçili Zülqədərin oğlu Şahrux bəy Tatıoğlu Şiraza yola düşdü. Şirazın idarəsi Əli sultana verildi. Şahrux bəy hökmə əsasən Şiraza gedib, İbrahim xanın boynuna zəncir vurdu. Həmçinin bu hadisədə iştirak edən qorçular öz cəzalarına çatdılar. Şahrux bəy atası müqəddəs Məşhəddən Şiraza gələnə qədər Şirazı idarə etdi»[1].

1557-ci ildə bu və ya digər şəkildə hakimiyyətə qarşı çıxdıqlarına görə,

[1] Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Göstərilən əsəri, səh. 104.

Zülqədər əmirlərindən Şahrux bəy Tatıoğlu, İbrahim yüzbaşı Qurğulu, İsfəndiyar bəy Qayıtmaz bəy oğlu, Cami bəy, Qara bəy Qurğulu, Süleyman bəy Bayatoğlu, qorçu yüzbaşısı Həsən bəy Bayatoğlu I Şah Təhmasib tərəfindən cəzalandırıldılar.

Tatarlar Şirvana yenidən soxulduğu zaman bəylərbəyi Məhəmməd xəlifə Hacılar-Zülqədər Əmir xan Mosullu-Türkməndən kömək istədi. Əmir xan köməyə gəlsə də, ürəkdən döyüşmədi. Bu dəfə Şahrux xan Zülqədər onu suçlayaraq özü vuruşmağa getmək istədiyini bildirdi. Ustaclılar da onun tərəfini tutdular. Qızılbaşlar arasında qarşıdurma yenidən başlandı. Əvvəl türkmənlərə tərəf olan Zülqədərlər və Şamlılar bu dəfə Ustaclılara tərəf çıxdılar. Şahrux xan Zülqədər açıq-açığa Əmir xanla düşmənçilik edirdi. Məhəmmədqulu xan Əfşar araya girərək onları barışdırdı.

1558-ci ildə İbrahim xan Hacılar-Zülqədər həbsdən azad edilib Astarabada hakim təyin edilmişdi. İbrahim xan həmin ildə türkmənlər tərəfindən öldürülmüşdü.

1558-ci ildə Ərəşti (Duraq) ağa Mehnalı-Zülqədər Osmanlı sarayına elçi getmişdir.

1562-ci ildə vəfat edən şahzadə Məhinbanu Sultanın cənazəsini hərəm eşikağası Mövlanə Yolqulu bəy Eymur-Zülqədər Quma aparıb həzrəti-Fatimənin yanında dəfn etmişdir.

1562-ci ildə yasavulbaşı Hüseyn bəy Qalxançıoğlu-Zülqədər Özbək hakimi Pir Məhəmməd xanın yanına elçi göndərilmişdir.

1575-ci ildə I Şah Təhmasib xəstələndiyi zaman, qızılbaşlar iki cəbhəyə ayrıldılar. Zülqədər elinin məşhur əmirlərindən olan möhrdar Məhəmmədqulu bəy Heydər Mirzənin tərəfini tuturdu. Şahqulu sultan Təbət ağa oğlu Mehnalı başda olmaqla, Zülqədər əmirlərinin bir qismi onları bir neçə dəfə barışdırmağa səy göstərərək, elçi getmişdi. Lakin onları barışdırmaq cəhdi nəticəsiz qaldı. Bəzi əmirlər isə İsmayıl Mirzənin tərəfini saxladılar.

1576-cı ildə I Şah Təhmasib xəstələndiyi zaman onun oğulları – Məhəmməd, İsmayıl və Heydər arasında ədavət yenidən qızışdı. Hər kəs öz namizədini dəstəklədi. Şah vəfat etdikdən sonra Zülqədər elinin dəstəklədiyi İsmayıl Mirzə şah oldu. II Şah İsmayıl, Səfəvi Vəli xan Qalxançıoğlu-Zülqədəri Fars əyalətinə bəylərbəyi təyin etdi. O, üstəlik şahın yeni dünyaya gəlmiş oğlu Şahşüca Mirzənin lələsi oldu[1].

[1] Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Göstərilən əsəri, səh. 104.

Saray çevrilişi nəticəsində 1577-ci ildə II Şah İsmayıl öldürüldü. İkihakimiyyətlilik yarandı. Zülqədər eli hələ südəmər olan Şahşüca Mirzənin vəliəhdliyini istəyirdi.

II Şah İsmayıl öləndən sonra məmləkəti müvəqqəti idarə etmək üçün «ağsaqqallar şurası» yaradıldı. Şuraya Zülqədər elindən möhrdar Şahrux xəlifə, Ustaclı elindən Pirə Məhəmməd xan Çavuşlu, Türkmən elindən Əmir xan Mosullu, Şamlı elindən Sultan Hüseyn xan Bəydili, Təkəli elindən Müseyib xan Şərəfəddinli, Əfşar elindən Məhəmmədqulu xan Araşlı daxil idi.

1578-ci ildə Məhəmməd Mirzə Xudabəndə şah elan edildi. Yeni şah zəif gördüyü üçün əslində dövləti arvadı Xeyrənnisə bəyim, oğlu Həmzə Mirzə və vəziri Mirzə Salman Cabiri idarə edirdi. Şah taxta əyləşən kimi, yeni təyinatlara başladı. Zülqədər əmirləri Fars əyalətini yenidən idarə etməyə başladılar.

1578-ci ildə Osmanlı sultanı III Murad (1574–1585) Amasiya sülh müqaviləsini pozub, Səfəvilər dövlətinə yürüş etdi. Zülqədər eli ölkəni müdafiə etməyə qalxdı. Səfəvi ordusunun rəhbərliyində birliyin olmaması, qızılbaş əmirlərinin özlərinə həddən artıq arxayın olmaları, qüvvələr nisbətinin osmanlıların xeyrinə olması 1578-ci il avqust ayındakı döyüşdə səfəvilərin məğlubiyyətinə səbəb oldu.

Osmanlı sultanının göstərişi ilə Krım tatarları Azərbaycana soxulanda Möhrdar Şahrux xan Zülqədər qızılbaş əmirləri ilə birgə onlara qarşı döyüşə başladı.

Bəylərbəyi Araz xan Rumlu 1578-ci ilin payızında osmanlılara qarşı döyüşdə əsir alındı və edam edildi. Yeni bəylərbəyi təyin etmək lazım idi. Qızılbaş əmirləri atası Abdulla xanın uzun müddət Şirvanın bəylərbəyi olduğunu əsas gətirərək, Həmzə xan Təmişli-Ustaclının namizədliyini irəli sürdülər.

Şahın arvadı bu təklifə etiraz edib qışın şaxtasında saraya qayıtdı. Qızılbaş əmirləri də hirslənib Xeyrənnisə bəyimin ardınca Qəzvinə qayıtdılar.

Qəzvinə toplaşan qızılbaş əmirləri, o cümlədən əmirlərin başçısı Şahrux xan Zülqədər, sözü bir yerə qoyub and içdilər ki, dövlət işinə qarışan şah arvadını öldürsünlər. Pirə Məhəmməd xan Çavuşlu onları bu fikirdən daşındırmağa çalışdı. Hirslənmiş əmirlər saraya hücum edib, Xeyrənnisə bəyimi və onu müdafiə edən əyanları öldürdülər. Xeyrənnisə bəyimi öldürənlərin arasında Həsənəli bəy Əlkəsənoğlu-Zülqədər də var idi.

Osman paşanın iki qoşununu dağıtmış Məhəmmədqulu xəlifə Hacılar-Zülqədər Şirvana bəylərbəyi təyin edildi.

1579-cu ilin yayında Krım xanı Məhəmməd Girey Osmanlı sultanının tələbi

və hərbi qənimət ələ keçirmək məqsədilə Bağçasaray və Şimali Qafqaz istiqamətlərindən Şirvana doğru irəlilədi. O özünün qardaşları Qazı Girey, Səfi Girey və Səadət Gireyin müşayiəti altında, yüz minlik ordu ilə oktyabr ayında Dərbəndə çatdı və Osman paşa tərəfindən şadlıqla qarşılandı.

Şah Məhəmməd Xudabəndə Həmzə Mirzə qoşunlarla birlikdə Qəzvindən qərbə tərəf hərəkət etdi və oktyabrın 19-da Təbrizə daxil oldu. Türklərə qarşı Şirvanda hərbi əməliyyatlara rəhbərliyi Təbrizdən həyata keçirmək üçün Qızılbaş qoşunlarının qərargahı burada yerləşdirildi. Şirvan hakimi Məhəmməd xəlifə Zülqədər öldürülmüş Adil Gireyin qardaşlarının böyük qüvvələrlə onun «qan intiqamını» almaq üçün Dərbəndə gəlmələri barədə şaha məlumat verdi. Təbrizdə hərbi şuranın iclasında Mirzə Salmanın başçılığı ilə əmirlərin qoşunlarını tatarlara qarşı göndərmək qərara alındı. Lakin əmirlər yürüşə hazırlaşdıqları bir zamanda tatarlar Şirvana basqın etdilər. Məhəmməd xəlifə cəsur döyüşçü idi və azsaylı igid döyüşçüləri ilə Samur sahilində tatarlarla qeyri-bərabər döyüşə atıldı. Tatarların yeni, əlavə qüvvələr alması sayəsində qızılbaşlar darmadağın edildilər. Məhəmməd xəlifə isə həlak oldu.[1]

Qızılbaş nümayəndə heyəti 1580-ci ilin yayında Hacı Maqsud bəy Zülqədərin başçılığı ilə Ərzuruma gəldi. Avqustun 15-də onları İstanbulda Sultan III Murad qəbul etdi. Şah Məhəmməd Xudabəndənin məktubu Sultan III Murada təqdim edildi.

1580-ci ildə Osmanlılar və onların təhriki ilə Krım tatarları Şirvan üzərinə hücum edərkən, Zülqədər və Ustaclı ellərindən Şirvana kömək göndərilmişdi. Səfəvi qoşunları ilk döyüşlərdə məğlub olsalar da Pirə Məhəmməd xan Çavuşlunun və digər əmir qoşunlarının köməyi ilə osmanlı və tatar qoşunları üzərində qələbə çalınmışdı.

1581-ci ildə Zülqədər bəyi Şahqulu sultan Təbətoğlu Osmanlı dövlətinə elçi getmişdi. Ərzurumda Osmanlı sədrəzəmi (baş vəziri) və sərdarı (komandanı) Sinan Paşa ilə görüşmüşdü.

Qızılbaş əmirləri arasında daim ziddiyyətlərin olmasını arzulayan baş vəzir Mirzə Salman vəliəhd Mirzə Həmzəni adlı-sanlı Qızılbaş əmirləri Məhəmmədqulu bəy Əfşara, Şahrux xan Zülqədərə və Məhəmməd xan Türkmənə qarşı qaldırmağa çalışırdı. O, şahzadəni inandırmağa çalışırdı ki, «bu üç xadim sağ olduqca, şahın canişini gülüstani-ətir saçmayacaq və çiçək açmayacaq» (İsgəndər bəy Münşi)[2].

[1] O.Əfəndiyev. Göstərilən əsəri, səh.149–150.

[2] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Redaktor Vasif Quliyev. – Bakı: Şuşa, 2000, səh. 228–233.

Qızılbaş əmirləri də vəzirin onlara qarşı fitnələrindən xəbərdar idilər və onu öldürmək qərarına gəlmişdilər. Heratda olarkən Mirzə Salman məiyyəti ilə şəhər ətrafına gəzintiyə çıxmışdı. Aralarında Məhəmmədqulu xan Əfşarın oğlu Yusif xanın, Məhəmməd xan Türkmənin oğlu Vəlican xanın, Şahrux xan Zülqədərin qardaşı oğlu Xəlil sultanın da və başqa qızılbaş gənclərinin də olduğu dəstə qocaman əmirlərin göstərişi ilə onların arxasınca düşdü. Yolda təqib edilməsi barədə məlumat alan Mirzə Salman tələsik geri qayıtdı. O, sığınacaq tapmaq ümidi ilə saraya – şahın və Mirzə Həmzənin yanına gəldi. Belə olduqda, qızılbaş əmirləri saraya gələrək vəzirin onlara verilməsini tələb etdilər. Onlar açıq şəkildə bildirdilər ki, Mirzə Salman qızılbaşların düşmənidir, tayfalar arasında ədavət və düşmənçilik salır. Xorasan əmirləri arasında itaətsizliyin və qiyamın günahkarıdır. Nə qədər ki, o sağdır, əmirlər arasında birlikdən söhbət gedə bilməz. Şahın və Mirzə Həmzənin təslim olmaqdan başqa çarəsi qalmadı. Çünki əmirlər əks təqdirdə Abbas Mirzə ilə birləşəcəklərilə hədələyirdilər. Əmirlər baş vəziri öldürüb, var-dövlətini müsadirə etdilər.

1584-cü ildə şah və şahzadə qışı Təbrizdə keçirdilər. Yeni ilin yaz mövsümünə hazırlaşan Qızılbaş ordusunda ziddiyyət yenidən alovlandı. Artıq böyümüş Həmzə Mirzə anasının qisasını almağa çalışırdı. O, Təbriz bəylərbəyi Əmir xan Mosullu-Türkmanı özünə həmfikir etmək istəyirdi. Əmir xan Osmanlı yürüşünü bəhanə gətirərək onu fikrindən daşındırmağa çalışdı. Həmzə Mirzə fikrini dəstəkləmədiyi üçün Əmir xandan incidi. Zülqədər elinə də elə bu lazım idi.

1585-ci ilin yayında Osmanlı ordusu Azərbaycana yürüş etdiyi zaman şah və şahzadə Qarabağda yaylaqda idilər. Müdafiə planı hazırlandı. Bütün əyalətlərə xəbər göndərildi. Bəylərbəylər və hakimlərə qoşunları ilə Təbrizə toplanmaları əmr olundu. Türkmən və Təkəli elinin əmirləri şahın əmrini rədd etdilər. Həmzə Mirzə 20 min nəfərlik ordu ilə Qarabağ yaylaqlarından Təbrizə hərəkət etdi.

Məhəmmədi xan (Toxmaq) Ustaclı Təbriz ətrafında, Sufiyan istiqamətində osmanlılarla rastlaşdı. Əvvəl qızılbaşlar qələbə qazansalar da sonradan osmanlıların çoxluğu öz sözünü dedi. Qızılbaş ordusu geri çəkildi.

Qazi Əhməd Qumi yazır ki, Osmanlıların Təbrizdəki qətllərindən xəbər tutan Həmzə Mirzə qəzəblənərək qoşunla Təbrizin həndəvərinə gəldi və döyüş meydanına atıldı. Bu zaman Xurcunlu tayfasının adamlarından bir dəstə qızılbaşlara qoşuldu. Çərxçi (qoşunun önündə durub döyüşə aparan şəxs) vəzifəsinə təyin edilmiş Əbülqasım sultan Zülqədər bu əhvalatdan xəbər tutub sürətlə özünü xurcunlulara çatdırdı.

Osmanlı qoşunun sərdarı Cığaloğlu qorxub geri çəkilməyə başladı.

1586-cı ildə şahın möhrdarı Şahrux xan Zülqədər döyüşdə yaralanıb əsir düşdü və orada öldürüldü[1].

Şahzadə Həmzə Mirzə Əliqulu xan Ustaclını özündən aralamadığından onu bəylərbəylikdən çıxarıb, yerinə Hüseynqulu sultan Fəthoğlunu təyin etmişdi. Təbriz şəhərinin müdafiəsini möhkəmləndirmək işi Pir Qeyb xan Ustaclıya tapşırılmışdı. Həmin dövrdə Osman paşa güclü hücumla Təbrizi aldı. Pir Qeyb xan və Hüseynqulu sultan şəhəri tərk edib, Qarabağda, Özümdil mahalında şaha qoşuldular.

İntriqaçı Əliqulu xan Fəthoğlu şahzadənin beynini doldurdu ki, qorçubaşı Məhəmmədqulu xan Əfşar və Məhəmməd xan Türkmən bir çox qızılbaş əmirləri ilə bərabər ananı öldürüblər. Cavan və təcrübəsiz Həmzə Mirzə onun təhriki ilə qorçubaşını hədələməyə başladı. Bu zaman Məhəmmədqulu xan qaçıb osmanlılara qoşuldu. Məhəmməd xan Mosullu-Türkman isə Təkəli və Zülqədər ellərini də başına yığıb qiyama başladı. Zülqədər elinin başında Fars əyalətinin bəylərbəyi Ümmət xan dururdu. Qiyamçılar dövlət qoşunundan çox idilər. Onlar tələb etdilər ki, Əmir xanın qatilləri, ilk növbədə Əliqulu xan Fəthoğlu onlara verilsin, ustaclı və şamlı əmirlər vəzifədən çıxarılsın.

Həmzə Mirzə qiyamçılarla danışıq aparmaq üçün Həbib bəy Zülqədərini onların yanına göndərdi. Qiyamçılar Həbib bəy Zülqədərini öldürdülər.

Şahzadə Ustaclı və Şamlı əmirlərinə döyüş əmri verdikdə, qiyamçılar tələblərini yumşaltdılar. Lakin Həmzə Mirzə onların mülayim tələbini də rədd etdi.

1586-cı ildə sarayda şahzadə Həmzə Mirzədən narazı olan Zülqədər, Əfşar və Qacar ellərinin nümayəndələri onun güzəştə getməsini tələb etdilər. Qiyamçılar tətəfindən Əliqulu xanın Təbrizdəki evi, habelə ustaclı evləri dağıdılıb qarət olundu.

1586-cı ildə qiyamı yatıran Həmzə Mirzə Təbrizə qayıtdı. Şahzadə Həmzə Mirzə yenidən qoşun toplamaq istədi. Türkmən, Təkəli, Zülqədər ellərinin qırılanı qırılmış, qalanların bir hissəsi osmanlıların tərəfinə keçmiş, bir hissəsi isə ölkəyə səpələnmişdi.

Xorasandakı ustaclılar və şamlılar Abbas Mirzəni şah görmək arzusunda idilər. Osmanlılar saray çəkişmələrindən istifadə edib, Azərbaycana hücumlarını genişləndirmişdilər.

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, səh. – Bakı, 2000, 228 – 233.

Həmzə Mirzədən narazı olan qüvvələr onu erməni dəlləyinin əli ilə öldürdülər. Qızılbaş əmirlərinin əsas kütləsi Qəzvin sarayından üz döndərib, Abbas Mirzəni şah kimi irəli sürən Xorasan əmirlərinin tərəfinə keçdilər. Fars və Qarabağdakı Zülqədərlər də Xorasan qızılbaşlarının tərəfini tutdular. Zülqədərlər Fars əyalətinə Şah Məhəmməd Xudabəndə tərəfindən təyin olunmuş hakimi də (Şiraz şəhərinin girəcəyində) öldürdülər.

I Şah Abbas Səfəvi taxtına çıxandan sonra dövlət islahatlarına və yerdəyişmələrə başladı. Zülqədərlər igidlikləri, qəhrəmanlıqları sayəsində bəzi əyalət və vilayətlərin idarəsini əllərində saxladılar.

I Şah Abbas üsyanların yatırılmasında Şiraz hakimi Yaqub xan Zülqədərdən istifadə etmişdi.

Hüseyn bəy carçıbaşı I Şah Abbasın sarayında xidmət edən Zülqədər bəylərindən idi. Hüseyn bəy 1606-cı ildə şahın Şirvan səfərində iştirak etmişdi. Şah ona mühüm vəzifələr tapşırmışdı. Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" kitabında yazırdı: «Səhərin mühasirəsindən 6 ay keçəndən sonra, şahanə məclis quruldu. Qarçiqay bəy qulamlar və tüfəngçilərlə qalanı və darvazaları almağa, Hüseyn bəy carçıbaşı Zülqədər isə Əhməd Paşanı, Şəmsəddin Paşanı, onun qardaşını və oğlunu, Kiçik Həsəni və bir neçə başqa adamları tutub, hüzura gətirməyə məmur edildi»[1].

I Şah Abbas hamilərinin, lələlərinin köməyi ilə ölkəni idarə edirdi. Kor ayaması ilə tanınan Həmzə bəy Zülqədər Sultan Hüseyn Mirzənin lələsi və vəkili idi. «Şah Sultan Hüseyn Mirzəyə və Həmzə bəy Zülqədərə xələt verib, Qəndəhara göndərdi. Sultan Hüseynin ətrafında olan qızılbaşlar və kürdlər Həmzə bəyi hakim kimi qəbul edə bilmirdilər. Onu şahzadənin gözündən salaraq, öldürülməsi üçün razılıq əldə etdilər. Həmzə bəy bu qəsddən duyuq düşüb, Sultan Hüseynin böyük qardaşı Rüstəm Mirzənin yanına qaçdı. Rüstəm Mirzə Qəndəhara getmək qərarına gəldi. Sultan Hüseyn Mirzə də qoşun toplayıb qardaşı ilə vuruşmağa hazırlaşdı.

Rüstəm Mirzənin qoşunu Qəndəhara yaxınlaşdı. Sultan Hüseyn Mirzənin qoşunundakıların çoxu Zülqədər elindən olduğundan, hamısı qaçıb başçılarının yanına gəldi. Sultan Hüseyn Mirzəyə yardım edənlərin sayı az olduğuna görə, gənc şahzadə məğlub oldu.

Həmzə bəyin kürəkəni və Bayat elinin başçısı olan Məhəmməd bəyi Sultan Hüseyn Mirzəyə lələ təyin edib, Həzərcat qalasında dustaq kimi saxladılar.

Həmzə bəy bir müddət Qəndəharı idarə etdi. Məhəmməd bəy Bayat da onunla

[1] Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm. – Bakı: Mömin, 2001, səh. 138.

düşmənçiliyə başladı. Həmzə bəyin digər düşmənləri ilə birləşən Məhəmməd bəy Bayat Həmzə bəyi öldürmək üçün Sultan Hüseyn Mirzədən göstəriş aldı. Sultan Hüseyn Mirzənin dustaqlığının altıncı ayında Həmzə bəyi öldürdülər.

Dəli Məlik öz adamları ilə Ərəş qalası qarşısında yerləşdi. Lakin Dəli Məlikin dəstəsi qızılbaş qoşununun Gürcüstan və Şirvan üsyanını yatırmağa gəlməsini eşidərək, dağılışıb getdi. O, Gürcüstan və Dağıstanda avara-vətən və bədbəxt olub, adı batdı"[1].

Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində Şirvanda Dəli Məlik adlanan Məlik Piri Kəbristanın 1615-ci ildə üsyan qaldıraraq, Ərəş hakimi və möhürdarı olan Şahqulu bəy Zülqədərin qız nəvəsi Məhəmmədhüseyn Sultanı və yaxın adamlarını öldürüb, var-yoxunu ələ keçirməsi haqqında geniş məlumat verir.

[1] Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm, – Bakı, 2001, səh. 141.

# ANADOLU ZÜLQƏDƏRİLƏRİ

Zülqədər türkmənlərinin Anadoluda dağıldıqları istiqamətlər – Kangal, Gürün, Şarkışla və Divriğidir. Bu ətraflarda yaşayan Yeni İl türkmənlərinin mühüm bir hissəsi Zülqədər türkmənlərinə mənsub oymaqlardan təşkil olmuşdu. 1548-ci ildə Yeni İlə mənsub 68 oymağın 55-i, 1583-cü ildə isə 190 oymağın 149-u Zülqədər idi. Yeni İl türkmənləri adı ilə meydana gətirilən bu təşəkkülün əsas hissəsini zülqədərlər təşkil edirdi.

XVI yüzilliyin sonlarında Orta Anadoluda yaşayan Danişmendli türkmənləri bir qəza halında birləşmişdilər. Gündəşli, Herikli, Ceceli, Cerid, Çöplü Əfşarı, Çomdan, Davud Hacılı, Qarahacılı, Qızıl Qocalı, Kulfallı, Küşnə, Sarsallı, Səlmanlı, Yeğen Alili kimi Zülqədər türkmənlərinə mənsub bəzi tayfalar da Danişmendli qəzasına daxil edilmiş və bundan sonra Danişmendli türkməni kimi tanınmışlar .

Kütahya və Aydına qədər uzanan sahədə dağınıq halda yaşayan zülqədərlərə mənsub camaatın bir hissəsi əhalidən ayrılaraq, ya başqa ərazilərdə, ya da məlum bir sancağın sərhədi daxilində məskunlaşmışdılar.

Zülqədər türkmənlərini meydana gətirən əsas hissə Dokuz, Cerid, Ağçaqoyunlu, Anamaslu, Qızıllı, Qara Yuvalı, Eymir, Avcı, Döngələli, Qurbətan, Əfşar, Çimeli, Alcı (Elci), Çağırganlı, Gündəşli, Tecirli (Tecerli), Küşne, Eymürlü və Küreciyan, Koyuncuyan, Sayyadan və Dağınıq tayfaları və bunlara bağlı olan 700-ə qədər obadan ibarət idi.

Zülqədər türkmənləri və oğuzların Əfşar, Yıva və Eymir boyları da var idi. Başqa oğuz boylarından Qarxun, Bayat və Yazır adlarına da təsadüf olunur.

Zülqədər türkmənləri ikiyə ayrılmışdı. Onların bir qisminə bu ayrılıqdan sonra «İfraz-ı Zülkadiriye» deyilmişdir. İfraz-ı Zülkadiriye (və ya Zülqədəriyə) türkmənləri Çuxurovada, Qərbi Anadoluda Aydın və Balıkəsir torpaqlarına qədər uzanan bir sahəyə yayılmışdılar.

Zülqədər türkmənlərinin müəyyən hissəsi heyvandarlıqla məşğul olurdu. Maraş şəhərində yaşayan Zülqədər türkmənlərinin bir qisminin isə əsas məşğuliyyətləri dabbaqlıq idi.

İstanbul, Bursa kimi böyük şəhərlərin ət ehtiyacını (ət, pendir, kərə yağı, dəri kimi heyvandarlıq məhsulları) maldarlıqla məşğul olan zülqədərlər təmin edirdi.

Zülqədər türkmənlərinə mənsub bəzi ailələr sarayın ehtiyacı olan ovçu

quşların yaxalanması, saxlanılması, öyrədilməsi kimi işlərlə də məşğul olurdular. Bu fəaliyyətlərinin əvəzində onlar bəzən vergilərdən azad olunurdular. Ovçu peşəsi ilə məşğul olan bu ailələr şahin, laçın, qırğı, tərlan, qızılquş və s. kimi yırtıcı və ovçu quşlarının yuvalarını və yumurtalarını qoruyurdular. Onlar ovladıqları və yetişdirdikləri bu quşları Doğancı başına təslim edirdilər.

Zülqədər türkmənləri orta əsrlərdə, Maraş başda olmaqla, Çuxurova, Bozoq, Kırşəhər, Nevşəhər, Aksaray, Kırıkqala, Aydın, Balıkəsir, Afyon və İzmirə qədər olan geniş bir sahədə məskunlaşmışdılar.

# FARS ZÜLQƏDƏRİLƏRİ

Fars əyaləti İranın cənubunda geniş əraziyə malik olub, şimal tərəfdən İsfahan əyaləti, qərbdən Xuzistan, cənub və cənubi-şərqdən Fars körfəzi, şərqdən isə Kerman əyaləti ilə əhatə olunur. Paytaxtı Şiraz şəhəridir. Fars əyalətinin Şiraz, Abadə, Qaşqay, Kuhgiluyə, Mərkəz, Xəmsə, Neyriz və Larestan adlı vilayətlərə bölünürdü. Bəhbəhan, Beyza, Məməsəni, Kərbəla, Kazerun, Kuhgiluyə, Firuzabad, Fəsa, Larestan, Xəfr, Cəhrum (Cöhrəm də deyilir), Hoşivar və başqa bölgələri var. Orta yüzilliklərdən bəri Şirazda, Kuhgiluyədə, Kazerunda və başqa bölgələrdə zülqədərlər yaşayırlar.

Xacə Zeynalabdin Əli bəy Şirazinin «Təkmilətül Əxbar»da yazdığı kimi, 940-cı ildə Şiraz hakimliyi Həmzə sultan Zülqədərdən alınaraq Xəlil sultanın qardaşı Qazi xan Zülqədərə verilmişdi[1].

953-cü ildə isə İbrahim xan Tavaçıbaşı Zülqədər Şiraz hakimi oldu.[2]

Şirazda hakimlik etmişlər: Xəlil sultan, Əli sultan, Murad sultan, Həmzə sultan, Qazi xan, İbrahim xan, Əli sultan Tatıoğlu, Şahvəli sultan, Bərxudar sultan, Məhəmmədcan sultan, Vəli sultan.

---

[1] Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Təkmilətül-Əxbar, – Bakı, Elm, 1996, səh. 75.

[2] Nizamşah. Tarih-i Qızılbaşan. – Tehran, 1361, (Yayına Hazırlayan Mir Haşim Muhaddis), səh. 49, 155.

# BƏKDİK OYMAĞI

1434-cü ildə Zülqədəroğlu Nəsrəddin Məhəmməd bəy tərəfindən Qazı mədrəsəsi tikilmişdir. Əlaüddövlə bəy mədrəsəyə xidmət edən Bəgtutulu (Bəgtutlu) camaatının adını verərək Bəktutiyə adlandırmışdır. Övliya Çələbinin yazılarında «Bəğdudiyyə» adlı bir mədrəsənin olduğu göstərilir[1].

Maraş vəqfləri ilə bağlı Rahmi Təkinin tədqiqatlarına[2] görə, Bəgtutlu camaatı Bəy Dik (Bəktik) camaatıdır. Əlaüddövlə bəy tərəfindən bu camaata xüsusi diqqət göstərilib. Bunun səbəbi bəgtutilərin Zülqədəroğlu olmasıdır. Əlaüddövlə bəyin şeyxülislamı Mövlana Bəktuti həzrətləri idi. Mövlana Bəktuti Ustad Nəcib Fazil Qısakürəyin 12-ci nəsildən babası olmuşdur. Osmanlı dilində olan şəcərədə, "O və Bən" kitabında şeyxülislamın babasının Zülqədəroğullarından olduğu göstərilir[3]. Konya-Ereğli bəkdiklərindən olan Qara bəkdiklər, Bəktutizadə Qaraca Məhəmməd Mustafa əfəndi oğlu Qaraca Əhməddən törəyiblər. Bu bəktutilər Sülü Bəy oğlu Sədəqə bəyin törəmələridir. Kırşəhir bəkdikləri də Sülü bəyin nəslindədir, oğlu Pir Qaibdən törəyiblər.

Maraş Bəktutiyə mədrəsəsi vəqfinin rəiyyəti də, xidmətçisi də, sahibi və alimi də bəkdiklər olmuşlar. Maraşda bütün məşhur alimlər bəktutidir, yəni bəkdikdir. 1563-cü ildə «Maraş Təhrir Dəftəri»ndə Bəgtutlu məhəlləsində yaşayan o dövrün alimlərindən bəhs edilmişdir. Övliya Çələbi Qüdsdə ziyarət etdiyi məzarlıqda dəfn edilmiş bəktutilərdən və dayısı Zülqədərli Səlim bəydən bəhs edib. Məhəmməd Sürəyyanın yazdığı Sicill-i Osmani də "Ali Bəktut" nəsli olaraq qeyd edilir. Şair və alim Sünbülzadə Vəhbi Saçaklızadələr, Muidzadələr, Sütçü İmam, Nəcib Fazilin də mənsub olduğu qısakürəklər, Şeyx Qüddisi və Nabi məşhur bəktutilərdəndir.[4] Urfada şair Nəfinin nəsli olan Hacı Qaffarzadələr də[5] Erəğli bəkdiklərindən Gaffarlının bir qoludur. Nevşəhirli Damat İbrahim Paşanın anası Fatma xanım da bəkdikdir. Kazım Qarabəkir Paşa Bəktutiyə mədrəsəsi türkmənlərindən "Qara Bəkirin türkmənləri"

---

[1] Övliya Çələbi. Səyahətnamə. C. XIII.

[2] Yaşar Baş, Rahmi Tekin. Maraş Vakıfları. (Dulkadirli ve Osmanlı dönemi) – Konya-Erəğli, 2007.

[3] R.Yinanç, M.Eliböyük. Maraş Tahrir Defteri. C. 1–2, – Ankara, 1988.

[4] Məhəmməd Sürəyya. Sicill-i Osmanı. 6. c., – İstanbul, 1996.

[5] ŞURKAV. Şanlıurfa Uygarlığın Doğduğu Şehir. – Ankara, 2002.

oymağındandır. Osmanlının ilk PTT Baş Müdiri Əhməd Fahri bəy və Şükrü paşa da Nevşəhir bəkdiklərindəndir.

Məşhur bəkdiklərin müasir nümayəndələrindən Vural Ögər (Ögər Turizm), Fərrux Bozbəyli, mərhum Aslan Nihat Bəkdik (məşhur futbolçu və siyasətçi), Köksal Özbək («Fənərbaxça»nın əvvəlki məşqçisi), mərhum Kərim Bəkdik, Murat Bəkdik və Prof. Dr. Coşkun Bəkdik kimi şəxsləri göstərmək olar.

Bursa, Balıkəsir (Bəydioğulları, Sülükioğulları), Kütahya-Tavşanlı (Bəydi və Sülükioğulları), Afyon-Sandıklı və Əmirdağ, Sivas, Samsun, Yozgat, İzmir-Tirə, Aydın-Sökədə də bəkdiklər var. Bundan əlavə, kürdləşmiş bəkdiklərə də rast gəlinir. Bunlar Atmalu daxilindəki bəklər, sadakalar, kızkapanlı, qarahasanlı, qaralar ilə dudukan (dudiganlı, dudikanlı), dunikan, dudiran və badikan tayfalarındandır[1].

Hindistanın Koil şəhərindən Anadoluya gələn və kürdləşən Zəngənə tayfası ("Bəttik" adlı tayfa[2]) 1927-ci ildə şərqdən Şücaəddin nahiyəsinə (Niğdə-Ulukışla), oradan da Ereğliyə köç etmişlər. Xalq arasında bəkdiklərə də «bəttik»lər deyildiyindən, bu bəttiklər ilə türkmən bəkdiklər bəzən qarışıq salınır. Əsl türk olan «bəkdik»lərin bu qrup ilə qarışdırılmaması üçün əsl bəkdiklərin tələffüzlərinə diqqət etmək lazımdır.

## Bəkdiklərin Daxili Anadoluya köçü

Övliya Çələbi bəkdiklərin Maraşa Ərəbistan, Qaraman və başqa vilayətlərə yürüşlərindən bəhs etmişdir. Zülqədəroğulları bəyliyinin süqutundan sonra Maraşda Zülqədəroğulları ilə Bəyazıdoğulları arasında XIX yüzilliyə qədər davam edən hakimiyyət uğrunda mübarizə getmişdir[3]. Bu mübarizənin nəticəsində məğlub olan bəkdiklər Maraşdan sürgün edildilər. Maraşdakı «Qanlıdərə» və «Boğazkəsən» yerləri öz adlarını bu döyüşlərdən almışdır.

Qaynaqlarda «bəkdük» adına ilk dəfə 1520-ci il tarixli «Sivas Təhrir Dəftəri»ndə və Kırşəhir ətrafında rast gəlinir. Bu qaynağa görə, bəkdiklər Kırşəhirə köçürülən Varsaq türkmənlərinə tabe idi. Onlar bölgəyə 1500–1520-ci illərdə gəlmiş və 15 tayfa olaraq Kamana yerləşmişdilər. Baş tayfa Zülqədəroğlu Sülü bəyin oğlu Əhmədin oğlu Pir Qaybın tayfasıdır. Bu

[1] ŞURKAV. Şanlıurfa Uygarlığın Doğduğu Şehir. Ankara, 2002.

[2] Friç. Kürtlər. – İstanbul, 1918.

[3] Bəkir Sami Bayazıt. Kahramanmaraşta Bayazıtoğuları. 1514–1990, Kahramanmaraş.

bəkdiklər arıklar, qaracalar, yənicə bəkdiklər, çunkar, okçu məhməd, qara balı, ulak, səfərlü, kazıklı, incuk olaraq yazılmışdır[1].

Digərləri isə müasir dövrdə Aksaray-Sarıyahşi-Bəkdik kəndini quran kəndxuda Qoca Yaqub tayfası ilə kılavuzlu, kəpirli və bulduklardır. Yuxarıda göstərildiyi kimi, Varsak türkmənləri içindəki Toklu Gümüş və buna bağlı Gümüşkin Batuk, Gümüşkin və Süleymanlı camaatları ilə Qaracalar və buna bağlı Qara Bəkirli, Qara Qoçlu camaatına tabe olan Kaman (Kamanlı) camaatı ilə Qara Qoçlu daxilindəki Qarxın tayfasından olan Qızqapan tayfası da bəkdikdir. Bundan başqa, Kusuna tabe olan aşıqlı tayfası da Akkaş bəkdiklərindəndir.

Bir sıra qaynaqlarda (1530-cu il tarixli 908 saylı «Muhasəbə-i Vilayət-i Diyar-i Bəkr və Ərəb və Zül-Qədriyyə Dəftəri»ndə) Sağırlı və Sofular obalarının XVI əsrdə Kırşəhirdə olduqları göstərilir. 1728-ci ildə Nəvşəhirə yerləşən bəkdiklərin, 1530-cu ildə Koçhisarda olan Qara Qocalu (Qaracalar) (Qara Bəkdiklər) olduqları da qaynaqlarda qeyd olunur. Müasir dövrdə Aksaraydakı Zülqədəroğullarından Arıbaş nəslinin də Qara Qaracalardan olduğu göstərilir. Zülqədəroğlu olduğu bilinən Bozokdaki Qızıl Qocalular əslində «Qaracalar»dır. 1584-cü ildə Qeysəridə (Kayseri) Çöplü əfşarları daxilində bəkdiklərdən Süllü, Sağırlı və Qaralar kimi obaları var idi.

Sultan IV Muradın 1635-ci il tarixli fərmanında Maraş Məktubiyə Mədrəsəsi rəiyyətindən – Bəktük adlı camaatdan 300 evin Qaraman Erəğlisi Horti Dərbəndinə, 300 evin isə Konya Saidəli – Qazınxanı Dərbəndinə köçürüldüyü göstərilir. Onların Qazınxanına köçürüldüyünə dair əlavə heç bir məlumat yoxdur. Bu fərmanla Xanı Dərbəndinə Hortu (Sazkeçid) kəndi, Bəkdik Qaffarlı ilə Qarabəğdik camaatı yerləşdirilmişdir. Ancaq Qara Bəkdiklər buranı tərk edərək Aksaray-Koçhisar tərəfinə qaçdı. Onlar burada Danişməndli türkmənləri tayfasına qatıldılar. 1656-cı ildə Kırşəhir-Nəvşəhir-Aksaray bölgəsindən olan Rum Evi danişməndliləri arasında olan Bəkdiklərdən 20 evin vergi ödəməsi haqqında məlumat verilir[2].

Bu bəkdiklər Anadoluda görünən ikinci bəkdik qrupudur. 1709-cu ildə qara bəkdiklər Aksaraydan alınıb təkrar Maraşa yerləşdirildi. Onlar yenidən Bəktutiyə Mədrəsəsi vəqfinə rəiyyət oldular. Qara bəkdiklər isə Maraşı tərk edərək Aksaraya geri qayıtdılar. Onlar vergilərini əvvəlki kimi Maraşdakı mədrəsəyə ödəyirdilər. 1722–1723-cü illərdə qara bəkdiklərin təkrar Erəğli-

---

[1] Səbahattin Yaşar. XV. Yüzyılda Kırşehir Varsakları. – Ankara, 2005.

[2] Tufan Cingiz Orhonlu. XVII–XVIII Yüzyıllarda Danişməndli Türkmənləri. – İstanbul: Yeditəpə Yay, 2005.

Hortu Xanı Dərbəndinə köçürülmələri haqqında fərman verildi. Qara bəkdiklərin bir qismi Qeysəri-İncəsu Dərbəndinə köçürüldü[1].

Müasir Ereğli bəkdikləri arasında olan 5 əsas tayfa qaralar (qara qaracalar), kamanlı, kavuklu, sağırlı (Sağıroğulları, Sunguroğulları, Sugurlu) və Qaracimlər bölgəyə Dərbəndçi olaraq 1723-cü ildə kavuklular isə 1743-cü ildə Maraşdan gətirilərək yerləşdirilmişdi. Kazım Süllüyə görə, hər bəkdik oymağının dini inancları bir-birindən fərqli idi. Qara bəkdiklər (qara qaracalar) qoyunu (qoyunun mələk olduğu inancı vardır), kavuklular laçin balabanı, Kaman bəkdiklər iti, qaracimlər isə qaratanayı inanc yeri kimi qəbul etmişdilər.

Koçhisardan olan Bəkdiklərdən 79 ev isə Nevşəhirə köçürülərək yerləşdirilmişdi[2].

Bəzi qaynaqlara görə (1530-cu il dəftəri), qara qaracalar qara bəkdiklərdir.

Bəkdik türkməni olduqlarını unutmayan bəkdiklər, sadəcə Konya-Erəğli və Niğdə-Bor bəkdikləridirlər. Onlar türkmənlik adət-ənənələrini davam etdirirlər.

Erəğlinin Hortu kəndindən Bora doğru yayılaraq bir çox kəndlər salınmışdır. Bəkdiklər sünni müsəlmanlar arasındakı türkmənlərdən hesab edilir[3].

Bəktuti qolu çoxsaylı islam alimi yetişdirmişdir. Türkmənlərdə olan Şaman-Heterodoks islam inancı bəkdiklərdə bu gün də saxlanmaqdadır. Məsələn, fırtına gələrkən uşaqlar "Əli burda! Əli burda!" – deyə, qışqırırlar. Bəkdik kəndində məscid tikilib qurtardıqdan sonra azan səsini duyanlar "Bat dünya bat, Bəkdikdə də azan oxunur!" demişdilər.

[1] Cingiz Orhonlu. Osmanlı İmparatorluğunda Dərbənd Təşkilatı. – İstanbul: Ərən Yay., 1990; Tufan Cingiz Orhonlu. Osmanlı İmparatorluğunda Aşirətlərin İskanı. – İstanbul: Ərən Yay., 1987; Yusuf Halaçoğlu. XVIII Yüzyılda Osmanlı İmparatorluğunun İskan Siyasəti və Aşirətlərin Yerləştirilməsi, – Ankara, 1997.

[2] Zeynəb Korkmaz. Nevşəhir və Yörəsi Ağızları, – Ankara, 1994.

[3] Peter Alford Andreeviç. Türkiyədə Etnik qruplar. Çevireni Mustafa Küpüşoğlu. – İstanbul, 1992.

# QARABAĞ ZÜLQƏDƏRİLƏRİ

Qarabağ Azərbaycanın, qədim Arranın əyalətinin adıdır. Əvvəl onun paytaxtı Bərdə şəhəri olmuş, sonra Gəncəyə köçürülmüşdür.

Qaynaqların məlumatına görə Gəncə-Qarabağ bəylərbəyliyi Gəncə, Bərdə, Axstabad (Akstafa), Bərgüşad, Arasbar qəzalarından və «Mülki-ulusati-Cavanşir» ölkəsindən ibarət olmuşdur.

Mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi xeyli geniş əraziləri əhatə edirdi. "Təzkirətül-müluk"da Qarabağ bəylərbəyliyinə daxil olan və hakimlər tərəfindən idarə olunan 9 nahiyənin adı sadalanır və onların iqtisadi, hərbi vəziyyəti bəylərbəyliyin ümumi illik gəliri haqqında maraqlı statistik məlumatlar verilir.

Bəylərbəyinin və ona tabe olan nahiyə hakimlərinin ümumi gəliri 24780 tümən 9988 dinar təşkil edirdi. Qarabağ bəylərbəyliyinin daimi qoşununun ümumi sayı 6084 nəfərdən ibarət idi[1].

Mənbələrdə Qarabağ bəylərbəyliyinin ictimai-siyasi həyatında qacarlarla yanaşı, bayazidli, şahsevən, avanşir, otuzikilər, iyirmidördlər, şəmsəddinli və s. kimi türk tayfalarının tarixdə oynadıqları rol haqqında ətraflı məlumatlar vardır.

1593-cü il «Osmanlı Təhrir dəftəri»ndə Gəncə-Qarabağ bəylərbəyliyinin Gəncə (Gəncə, Gəncə Aranı, Gəncə Dağıstanı, Şəmkir Aranı, Sonqur Dağıstanı, Kürəkbasan Aranı, Şütür, Danqı, Zəyəm Aranı, Yaylaq, Tovuz, Dəmirçihəsənli-Qazax nahiyələrindən), Bərdə (Bərdə, Sir, Pətəklik, İncərud nahiyələrindən və ulusati-İyirmidörd ölkəsindən), Xaçın (Xaçın, Qaraağac, Ağcabədi, Çalabed Dağıstanı, Çalaberd, Qarqar, Mağavuz nahiyələrindən və ulusati-Hacılı, ulusati-Otuziki ölkələrindən), Ağstabad (Ağstabad-Böyükçay, Quzey, Güney, İncə Dağıstanı, İncə nahiyələrindən), Dizaq (Arasbar, Dizaq Dağıstanı, Dizaq nahiyələrindən), Həkəri (Keştasb, Həkəri, Zarıs, Alpavut nahiyələrindən) və Vərəndə sancaqlarından (Vərəndə nahiyəsindən) ibarət olduğu göstərilir[2].

---

[1] Mirzə Səmia. Təzkirətül-müluk. Hazırlayan dr. S.M.Dəbirseyaqi. –Tehran, 1368, səh. 76-78;

[2] Sazman-e edari-ye hokumət-e Səfəvi ya təliqat-e Minorski bər "Təzkirətul-müluk" (Tərcümə edən Məsud Rəcəbniya). –Tehran, 1368, s.179,181.

1727-ci il «Osmanlı Müfəssəl dəftəri»ndə isə Gəncə-Qarabağ bəylərbəyliyi Gəncə mahalından (Gəncə şəhəri, Gəncəbasar, Sunqurabad, Şəmkürbasan, Kürəkbasan, Kiçik Kürəkbasan, Böyük Kürəkbasan, Şütürbasan, Talış, Gülüstan, Yevlaq-Qaramanlı, Danqı nahiyələrindən), Xılxına mahalından (Xılxına şəhəri, Xılxına, Həsənsu, Tavus, Axıncı, Əsrik, Qaraqaya, Türkənlər, Yuxarı Zəyəm, Aşağı Zəyəm nahiyələrindən), Bərdə mahalından (Bərdə şəhəri, Bərdə, İncərud, Sir, Bayad, Xaçın, Çelaberd, Keştək, Vərəndə, Dizaq, Köçəz, Zarıs, Keştasf nahiyələrindən), Arasbar mahalından (Arasbar, Həkəri, Çuləndər nahiyələrindən), Lori mahalından (Güney, Quzey nahiyələrindən) və Cavanşir, Otuziki, Kəbirli, Kəngərli, Ətyeməzli, Püsyan və Qaraçorludan ibarət olduğu qeyd edilir.

1748-ci ildən sonra Qarabağ bəylərbəyliyi iki xanlığa – Gəncə və Qarabağ xanlığına bölündü. Borçalı, Lori və Qazax mahalları Gürcüstana birləşdirildi. Şəmşəddil (Şəmşəddil) mahalından tutmuş Kürəkçayadək Gəncə xanlığına, Kürəkçaydan Araz çayınadək olan ərazilər Qarabağ xanlığına verildi.

1831-ci ildə dairədə keçirilmiş kameral təsvir sənədləri Gəncə xanlığının 6 mahaldan ibarət olmasını qeyd edir: 1) Dağlıq mahalı – dairənin cənub-qərbində, Gəncə dağlarında yerləşir; 2) Şəmşəddil distansiyası ilə sərhəddə olub Şəmkir çayının hər iki sahilində yerləşən Şəmkir mahalı; 3) Qarabağ əyaləti ilə həmsərhəd olub Kürəkçayın əsasən sol və bir az da sağ sahilini əhatə edən Kürəkbasan mahalı; 4) Şəmkir və Kürəkbasan arasında yerləşən Gəncəbasar mahalı; 5) Kür çayının sağ sahili boyu Samux dağ silsiləsini əhatə edən Samux mahalı; 6) Bütün dairəyə səpələnmiş, köçəriliklə məşğul olan Ayrumlar mahalı. Görünür, Gəncə xanlığı ləğv edildikdən sonra, çox ehtimal ki, XIX əsrin 20-ci illərinin ikinci yarısında, çar məmurları Yelizavetpol dairəsinin inzibati quruluşunda bəzi dəyişikliklər etmiş və nəticədə yeni bir mahal-Dağlıq mahalı yaradılmışdır.

1796-cı ilin aprelində general V.Zubovun komandanlığı altında rus qoşunları Cənubi Qafqaza hərbi yürüş edərək, Dərbəndi, Qubanı, Bakını, Şamaxını və s. Azərbaycan ərazilərini işğal etdi. General Rimski-Korsakovun başçılıq etdiyi ayrıca korpus həmin ilin dekabrın 13-də Gəncəyə çatdı. Hələ sentyabrda Cavad xan Zubova məktubla müraciət edərək rus himayəsini qəbul etməyə hazır olduğunu bildirmiş, rus qoşunlarının qarşılanmasına şəxsən çıxmış və şəhər açarlarını general Rimski-Korsakova hədiyyə etmişdi. Lakin rus generalı onun sülhpərvərliyini lazımınca qiymətləndirmədi. O tələb etdi ki, Cavad xan qalanı sakinlərdən boşaltsın və ora rus qarnizonunu yerləşdirsin. Cavad xan onun bu tələbini qəbul etmək məcburiyyətində qaldı. Rimski-Korsakov Gəncəyə polkovnik Voyeykovu komendant təyin edərək, özü şəhər kənarında yerləşdi.

1796-cı il noyabrın 6-da II Yekaterinanın vəfat etməsi ilə taxta çıxmış I Pavel anasının yeritdiyi xarici siyasətdən imtina etdi və rus qoşunlarının dərhal Cənubi Qafqazdan çıxarılması haqqında əmr verdi. Rus hərbçiləri Gəncə torpaqlarını tərk etldilər. Bu hadisəni «Gülüstani-İrəm» kitabında təsvir edən A.Bakıxanov yazırdı: "Ruslar qayıtdıqları zaman Gəncəni Gürcüstan valisinə verdilər. Vali İrakli xan, qarabağlı İbrahim xan və şəkili Səlim xan qoşunla Gəncənin xaricinə gəldilər. Gəncə hökumətinə şəmşəddilli Əli sultanı naib təyin etdilər. Əli sultan keçmişdə Cavad xanın ona etmiş olduğu yaxşılıqlara və onu həbsxana cəzasından azad etdiyinə görə, Cavad xanın hüzuruna gəlib, qalanın açarını ona təslim etdi və onun xidmətində durdu. Bu hadisədən sonra Gəncə əhalisi ona tabe oldu. Ətrafa dağılmış xanlar da öz mülklərinə qayıtdılar"[1].

1801-ci il Cavad xan Gürcüstan və digər qonşularla münasibətdə siyasət yeritməyə başladı. O, Şəmşəddilin geri qaytarılması istiqamətində fəal addımlar atdı. Gürcüstanın Rusiya himayəsinə keçməsindən, xüsusən də 1801-ci il sentyabrın 12-də Rusiyaya birləşməsi haqqında manifestin dərcindən sonra Şəmşəddil Rusiyanın tərkib hissəsi hesab olunurdu. Ona görə də Cavad xanın Şəmşəddili qaytarmaq cəhdləri Rusiyaya meydan oxumaq demək idi.

Son dərəcə ehtiyatlı, hər addımını ölçüb-biçən, öz qüvvəsini yetərincə ayıq-sayıq dəyərləndirən, zəruri hallarda güclü rəqiblərinə güzəştə getməyi bacaran, diplomatik manevrlər edən Gəncə hökmdarı Cavad xan dönməz, prinsipial, öz dövləti maraqlarını təkidlə müdafiə edən dövlət xadimi idi.

1801-ci ilin baharında Cavad xanın qoşunları Şəmşəddilə ilk hücumlar etdi. Şəmşəddildə olan 2300 ailədən təqribən 1900-ü öz ağaları ilə birlikdə Gəncəyə köçdü. Həmçinin Cavad xanın ruslara qarşı mübarizə edən gürcü şahzadəsi Aleksandra sığınacaq verməsi rus komandanlığını hirsləndirmişdi.

1801-ci ilin yanvarından Cavad xanla Knorrinq yazışırdılar. Cavad xan yaxın adamı Gürgün bəy vasitəsilə Knorrinqə belə bir məktub göndərmişdi: "Məktubunuzun məzmunundan aşkar olur ki, Şəmşəddili guya mənə Ağa Məhəmməd xan verib. Şəmşəddili heç kim bizə verməyib və ona görə də onu bizdən almağa və ya başqasına verməyə heç kimin haqqı yoxdur. 600 və ya 700 ildir ki, Şəmşəddil mənim nəslimə mənsub olmuş və bizə qulluq etmişdir"[2].

Məktub yetərincə barışdırıcı tonda yazılsa da, (Gəncə hakimi Knorrinqi Rusiyaya dostcasına münasibət bəslədiyinə əmin edirdi) Cavad xanın

[1] A.Bakıxanov. Gülüstani-İrəm, Bakı, 2001, səh. 109, 138.

[2] Azərbaycan tarixi. Bakı, 2007, IV cild, səh. 18.

Sisianova cavablarındakı ötkəm notlar nəzərə çarpmaqda idi.

1802-ci ilin martında general Knorrinq Şəmşəddil ağalarını öz tərəfinə çəkməyə cəhd etdikdə, Cavad xan ora oğlu Hüseynqulu xanın başçılığı altında silahlı dəstə göndərdi. Bu, Gəncə xanlığı ilə rus komandanlığı arasında yeni gərginliyin yaranmasına səbəb oldu. Cavad xan Knorrinqin məktubuna[1] cavab olaraq yazırdı: "Ayrım xalqı ulu əcdadlarımızdan bəri bizim təbəəmiz olmuşdur. O heç bir vaxt Gürcüstana mənsub olmamışdır və suçlu olduğu zaman biz onu əməllərinə görə cəzalandırmışıq. Ona görə də siz belə yazmamalı idiniz. Onu da yazırsınız ki, guya, Ayrım Gürcüstana daxildir. Heç vaxt. Ayrım Gəncə elləri sırasına daxildir. Siz başqa ölkələrdəki qonşulardan soruşun – Şəmşəddil bizim təbəəliyimizdə olmuşdur. Əgər o, Gəncəyə məxsus idisə, sizin nə sözünüz, nə də iddianız ola bilər. Əgər bütünlüklə Gəncəyə iddia edirsinizsə, bu, başqa məsələdir. Nə qədər ki, mən sağam, Gəncədən vaz keçməyəcəyəm"[2].

Knorrinq məsələni dinc yolla həll etmək üçün növbəti məktubunda yazırdı: "Hərçənd mən Şəmşəddilin Gəncə vilayətinə mənsubluğuna dair sizin sözlərinizə etimad edirəm, fəqət Georgi çarın zamanında Şəmşəddil Gürcüstandan asılı hesab olunduğundan Gürcüstanın əlahəzrət imperatorun qüdrətli himayəsi altına keçməsi ilə mən Gürcüstanın son çarın dövründəki bütün ərazilərini saxlamalıyam"[3].

Cavad xanın Şəmşəddil məsələsində güzəştə getməyəcəyini görən Knorrinq Gürcüstandakı rus qoşunları komandanı general Lazarevə Şəmşəddili tutmaq əmrini verdi. 1802-ci il mayın 25-də Lazarevin dəstəsi sultanlığı işğal etdi. Bununla əlaqədar Cavad xan Lazarevə yazırdı: "Bir yerə yiyələnmək iki yolla olur – ya qanunla, ya da zorla. Əgər siz qanuna əsaslanırsınızsa, bu ədalətsizlikdir. Yox, əgər zorla edirsinizsə, elan edin – niyə?.. Hamıya məlumdur, nə qədər ki, mən sağam, Şəmşəddili əldən verməərəm"[4].

Artıq ikinci dəfə idi ki, Cavad xan ruslara xitabən, "nə qədər ki, mən sağam, Şəmşəddili (Gəncəni) əldən vərmərəm" cümləsini işlədirdi.

Şəmşəddildə ruslarla çəkişmələr ara vermirdi. 1802-ci ilin oktyabr və noyabr aylarında əraziyə əlavə rus qoşunları yeridilmişdi. Bunun cavabında Cavad xan da, gürcü şahzadəsi Aleksandra dəstəyini artırır, İran hökmdarı Fətəli

[1] Azərbaycan tarixi. IX sinif üçün dərslik, – Bakı, 2009.

[2] Azərbaycan tarixi. Bakı, 2007, IV cild, səh 18.

[3] Yenə orada, səh. 18 – 19.

[4] Yenə orada, səh. 18.

şahla əlaqələrini gücləndirirdi.

Gürcüstanda sabitlik yarada bilmədiyi üçün Knorrinq P.D.Sisianovla əvəz olundu. Rusiyanın yeni sərdarı gürcü knyaz nəslindən idi. O hələ 1796-cı ildə Zubovun yürüşündə iştirak etmiş və Bakı qalasının komendantı olmuşdu.

Sisianov qafqazlılara həqarət edir və onları "kafir asiyalı", "kafir xalq", "kafir yaramazlar" adlandırırdı[1].

O, bu vəzifəyə təyin edilməmişdən əvvəl Knorrinqin 1802-ci il 4 dekabr tarixli məktubunda Cavad xanın aşağıdakı xarakteristikasına rast gəlmişdi: "Gəncə xanı Gürcüstanın birinci bədxahlarındandır. Onun Gürcüstanın Şəmşəddil əyalətinə iddiası var".

Buna oxşar xarakteristikanı Kovalenski də vermişdir: "Çoxdan bəri Gürcüstana münasibətdə pis niyyətini əlində rəhbər tutan, lakin İran siyasəti maskası altında gizlənən Cavad xan müəyyən zamandır özünü açıq-aşkar büruzə verir". Kovalenski Cavad xanı Şəmşəddil sakinlərini öz xanlığına köçməyə təşviq etməkdə, Rusiya əleyhinə qüvvələrlə əməkdaşlıq etməkdə, şahzadə Aleksandra himayə göstərməkdə, Gürcüstana gedən tacirləri qarət etməkdə və s. ittiham edirdi. Beləliklə, Sisianov hələ regiona gəlməmişdən əvvəl artıq Cavad xan haqqında qərəzli təsəvvürə malik idi.

Sisianov, Tiflisə gələr-gəlməz, 1803-cü il fevralın 25-də dərhal Cavad xana nəzakətli ifadələr işlənmiş məktub göndərdi: "Sizi sarsılmaz qalacaq niyyətinizə görə təbrik edirəm. O niyyət sizi və xalqınızı... Rusiya dövlətinin və monarxlardan ən həşəmətlisi və mərhəmətlisi mənim hökmdar imperatorumun ali, şanlı və çox qüdrətli himayəsinə çatdıracaq... Sizin bunca dostyana münasibətinizi təsdiq etmək ... üçün alimənsəb böyük oğlunuz Uğurlu ağanı Tiflisə bir əmanət kimi göndərmənizi xahiş edərdim. O burada ləyaqətinə və şanına uyğun münasib şəkildə təmin olunacaqdır"[2].

Cavad xan Sisianovun Rusiya himayəsini qəbul etmək təkidinə rədd cavabı verirdi. O yazırdı ki, 1796-cı ildə «Sənin padşahın fərman göndərdi və mən də onun təklifini qəbul edib qalanı təhvil verdim. Əgər indi də sənin padşahın belə fərman göndəribsə, onu mənə göstər. Onda mən onun iradəsini görərək, buna uyğun hərəkət edərəm». General tələb etməyi siyasi danışıqlardan üstün tutdu. O, məktublarında yekəxanalıqla Cavad xanı özündən uzaqlaşdırdı. Bu da qanlı döyüşlərə gətirib çıxardı[3].

---

[1] Azərbaycan tarixi, Bakı, 2007, IV cild, səh 18.

[2] AKAK, t. I, d. № 1172, səh 580.

[3] Azərbaycan tarixi, Bakı, 2007, IV cild, səh 18.

Sisianov Rusiya hakimiyyətini qəbul etmiş digər xanlardan fərqli olaraq, Gəncə xanlığına qarşı daha amansız tələblər irəli sürürdü. O, Cavad xana ildə 20000 çervon məbləğində, yəni sonralar Şəki, Qarabağ, Şirvan xanlıqları üçün müəyyənləşdirilmiş məbləğdən 3 dəfə çox ödənc tələb edir və yazırdı: «Əgər mənim təklifimi qəbul etməsən, Gəncəyə atəş və qılıncla gələcəyəm»[1].

1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları Gənsəyə hücum etdilər. Cavad xan və oğlu döyüşlərdə qəhrəmancasına həlak oldular. Gəncə xanlığı işğal edildi. Gəncə xanlığı ləğv edilərək, dairəyə çevrildi[2].

Cavad xanın qəhrəmanlığını rusların özləri də etiraf edirdi. Rus qoşunlarının baş komandanı markiz Pauliççi Abbas Mirzəyə 1812-ci il 20 fevral tarixli məktubunda yazırdı: «Mərhum Cavad xanın qohum-əqrəbasına rast gəldim. Öz vətəninə layiqincə xidmət edən adamları sevdiyim üçün Cavad xana haqq qazandırıram. O, şəhəri müdafiə edərək həlak olmuşdur. Mənim Cavad xana olan dərin hisslərimi və xüsusi hörmətimi nəzərə alaraq, onun nəslindən olanların hamısına azadlıq verdim ki, İrana köçsünlər»[3].

Tarixi minilliklərlə hesablanan Gəncənin adı dəyişdirilib, ona Rusiya çarı I Aleksandrın arvadı Yelizavetanın şərəfinə Yelizavetopol adı verildi.

Yeni qaydaya görə Gəncə sözünü dilinə gətirən hər bir kəs bir qızıl cərimə ödəməli idi.

Rus ordusunun baş komandanı general A.P.Yermolov 1826-cı il 26 iyulda Borçalı, Qazax və Şəmşəddil distansiyalarının sakinlərinə müraciət edərək deyirdi: «Bilirsiniz ki, iranlılar sərhədi keçib Qarabağa girib... Sizi şirnikləndirib vətəndən uzaqlara, İrana köçürmək istəyəcəklər. Dəmirçi Həsənlilərin çoxu Xorasandan geri köçüb, onlardan soruşsanız, orada necə pis yerlərdə yaşadıqlarını söyləyəcəklər».

Öz qüvvələrini Rusiyadan gəlmiş yeni qoşunlarla, o cümlədən dekabristlərin üsyanında iştirak etdiklərinə görə Qafqaza sürgün edilmiş qvardiya hissələri ilə artıran ruslar əks hücuma keçdilər. 25 iyulda podpolkovnik Simoniç komandanı olduğu Qafqaz qrenadyor polkunun (seçmə əsgər alayının) 4 rotası (bölüyü) və 4 topla Tiflisdən Şəmkir istiqamətinə hərəkət etdi. Yolboyu onlara gözətçi mövqeləri tutan Don kazakları da qoşuldu. Qraf Simoniçin

[1] Azərbaycan tarixi, Bakı, 2007, IV cild, səh. 18–19.

[2] Yenə orada, səh. 18.

[3] «Respublika qəzeti». 22 sentyabr, 1990.

xatirələrindən: «25 iyulda biz Soğanlığı tərk etdik… Mən Dəmirçi Həsənlidə dayandım. Arxada qalanlar gecə boyu gəlib bizə çatdılar və çayda çimib sərinləndilər. Burada birgünlük istirahət etməli olduq. Bu geniş düzənlikdə yürüş zamanı biz heç bir insana rast gəlmədik. Yay olduğuna görə dağlara köçmüş bəylərdən heç biri mənimlə görüşmək və öz xidmətlərini təklif etmək üçün Arana enməyi lazım bilmədi. Mən Tovuz kəndinə qayıtdım, Şnitnikovun kolonnası isə Tiflisə yola düşdü ... Tiflisi tərk etdiyim gündən mənim dəstəmin gücü 200 kazakın hesabına çoxalmışdı...»

XIX əsrin 20-ci illərindəki hərbi əməliyyatlar Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən zəbt edilməsi ilə nəticələndi. Azərbaycan xalqı müharibə nəticəsində zorla iki hissəyə bölündü, onlar bir-birindən fərqli, sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna düşməyə məcbur oldu.

Bununla belə, çar Rusiyası hər vasitə ilə Şəmşəddil əsilzadələrini sıxışdırmaq siyasətini davam etdirirdi. Çarizmin bu dövrdəki torpaq siyasəti öz əksini 1818-ci ildə verilmiş ağalar haqqında «Əsasnamə»də tapırdı. Çarizmin siyasəti buna əsaslanırdı ki, bütün ağalar kəndlərin sahibkarları deyildir. Rusiyaya göstərdikləri xidmətin müqabilində onlar bu kəndləri ancaq «idarə» edirlər.

Gürcüstanın mülki işlər üzrə rəisi general-mayor Zavilyevski Qafqazın Baş hakimi qraf Paskeviçə 1830-cu il 30 sentyabr raportunda «silahla alınmış torpaqlarda çoxlu vəsait tələb edən qoşunla möhkəmlənməyin mümkün olmayacağını, hökumətin yerli əsilzadələrə arxalana bilməyəcəyi bir şəraitdə, ən yaxşısı həmin ağaların torpaqlarının əllərindən alınaraq, rus zadəganlarına paylanmasını» yeganə çıxış yolu hesab edirdi: Qafqazın Baş İdarə Şurasının 1841-ci il 25 aprel qərarı ilə Borçalı, Qazax və Şəmşəddil ağalarının torpaqları (59 ağasının 102 kəndi) xəzinənin xeyrinə müsadirə edildi[1].

40-cı illərdə Şimali Azərbaycanın bir sıra bölgələrində (Şəmşəddil, Borçalı, Qazax, Yelizavetpol, Şuşa, Nuxa, Quba və s.) çarizmin müstəmləkə zülmü əleyhinə kəndli çıxışları baş verdi. Rus zadəganlarının bu yerlərə köçmək istəməməsi, xan və bəylərin güclü müxalifəti, üsyanlar hökuməti yerli feodallarla pozulmuş ittifaqı bərpa etməyə məcbur etdi. I Nikolayın Qafqazdakı vəziyyətlə tanış olmaq üçün hərbi nazir Çernışevi və Qafqaz komitəsinin sədri Baron Rozeni oraya göndərdi. 1842-ci ildə aparılan yoxlama nəticəsində ağaların və bəylərin torpaqlarının müsadirəsi dayandırıldı, onların torpağa olan sahibkarlıq hüququ toxunulmaz elan edildi. 1842-ci ildə Xüsusi

[1] Azərbaycan tarixi, Bakı, 2007, IV cild, səh 128.

Komitə, 1844-cü ildə Qafqaz canişinliyi yaradıldı. Qafqazın bütün hərbi və mülki hakimiyyəti canişinə məxsus idi. O, yalnız çarın qarşısında hesabat verirdi. Qafqazın ilk canişini qraf S.M.Vorontsov oldu. S.M.Vorontsov öz vəzifəsinin icrasına başlayan kimi mülki işlər üzrə idarə rəisi P.A.Ladınskinin köməyi ilə bəy və ağaların torpaq hüquqları haqqında layihə hazırlayıb İ.Nikolaya göndərdi. İkiillik müzakirədən sonra 1846-cı il 6 dekabrda bəy və ağaların hüquqları haqqında reskript (qanun gücündə olan rəsmi dövlət sənədi) imzalandı.

On iki maddədən ibarət olan bu reskriptin 10 maddəsində bəylərin torpaq hüquqlarından, ikisində isə feodal kəndli münasibətlərindən bəhs olunurdu[1].

İlk dəfə olaraq bəy və ağalara məxsus torpaqlar onların tam irsi mülkiyyəti kimi təsdiq olundu. Azərbaycanda mülk – xalisə torpaqları kimi tiyul da rəsmi olaraq bəy və ağaların mülkiyyəti elan olundu.

Bu reskript bəy və ağalara kəndlilər üzərində polis və məhkəmə hüququ verdi. 1846-cı il 6 dekabr reskripti ilə hökumət yerli əsilzadələrlə ittifaqa doğru mühüm bir addım atdı və "ali müsəlman" silkini mərkəzi hakimiyyətə yaxınlaşdırdı.

Reskriptin əsas mahiyyəti onun sonuncu bəndində aydın ifadə olunmuşdur. Belə ki, Cənubi Qafqazın «ali müsəlman silki»nin yaşlı nümayəndələri ilk çağırışda ordu sıralarına qoşulmağa borclu idi.

Reskriptdə kəndlilərin hüquqi cəhətdən rəiyyət, rəncbər, elat, nökərə bölünməsi qaydası ləğv edildi. Əvəzində sahibkar kəndlilərinə «mülkədar tabelisi» adı verildi. 1847-ci il 27 aprel və 28 dekabrda Qazax, Şəmşəddil və Borçalı nahiyələrində yaşayan kəndlilərə aid "Əsasnamələr" verildi. «Əsasnamələrə» görə, kişi cinsindən olan 15 yaşına çatmış hər bir kəndliyə 5 desyatindən az olmayaraq, yararlı torpaq sahəsi ayrılırdı. Əvəzində isə kəndli taxıl məhsullarının ondabirini bəy və ağa üçün ayırırdı. Kəndli bəyin otlağından istifadə əvəzində çorbaşı vergisi ödəməli idi. Ev işləri görmək üçün isə hər on evdən bir qadın qulluqçusu verilməli idi. Bəy ailəsində işləmək üçün qadın qulluqçusunun ayrılması kəndlilər arasında narazılıqla qarşılandığına görə bu qayda tezliklə ləğv edildi. Biyara gedən kəndli 18 gün bəy təsərrüfatında çalışmalı idi. Kəndin bütün kəndliləri isə iki gün hamılıqla bəy təsərrüfatında biyara çıxmalı idi. Çar Rusiyası 40 ildən çox bir müddətdə Şəmşəddil əsilzadələrini özünə düşmən olan qüvvələrdən «təmizlədikdən

[1] Azərbaycan tarixi, Bakı, 2007, IV cild, səh. 129–134.

sonra» bölgədə tam yerləşə bildi[1].

Şəmşəddil camaatı rəisləri Məsih bəy Şəmşəddillinin köməyi ilə Sulduzun cənub-şərqinə pənah apardılar.

[1] Azərbaycan tarixi, IV cild, Bakı, 2007, səh. 131–134.

# ZÜLQƏDƏR ELİNİN OYMAQLARI

Zülqədər eli Hacılar, Sarışıxlı, Çiçəkli, Camışlı, Qurğulu, Bayatoğlu, Eymur, Mehnalı, Qalxançıoğlu, Söklən, Qaraca-Sevgülən, Şəmşəddil, Dəmirçili, Tatılı oymaqlarından ibarətdir. Türkiyə Cümhuriyyətində 6 cilddə çap edilən tədqiqat əsərində Zülqədəroğullarının 7 oymaqda yaşadıqları göstərilir. Həmin oymaqlar bunlardır: Tatıoğlu, Koroğlu (Qırğulu), Qalxançıoğlu, Beytoğlu, Hacılu, Şəmşəddil, İmur (Eymir, Eymürli)[1].

Zülqədər eli əsasən Fars (Söhrəm) və Qarabağ (Şəmkir, Ağstafa (Həsənsu) nahiyələrində) vilayətində məskunlaşmışdı.

Türk Ensiklopediyasının Zülqədər eli (Dulkadir Eli) maddəsində, Azərbaycan Zülqədər Ulusu 12 boya ayrılır: Tatıoğlu, Beytoğlu, Hacılu, İmur (Eymür), Qalxançıoğlu, Koroğlu, Şəmşəddil, Sökülen-Sevgilən, Əlkəsənoğlu, Cəmilli, Sarı Təkəlü, Yıva-Kaçar[2].

Burada görkəmli türkoloq Ali-Sinan Bilgilinin bir məlumatı, fikrimizcə, yerinə düşər. O, "Azərbaycan tükrmənləri" adlı məqaləsində yazır: «Zülqədər bəyliyi ləğv ediləndən sonra torpaqları əllərindən alınmış Zülqədər camaatı müxtəlif yerlərə, o cümlədən İran istiqamətinə, xüsusilə Şimali Azərbaycana köç etmişlər. Azərbaycana köçən Zülqədər türkmənləri içərisində Kavurgalı, Söklü, Şəmşəddilli, Eymür, Hacılar, Sarı Şeyhlü, Camışlu və Çiçəkli obalarının adlarına rast gəlinir»[3].

**Hacılar oymağı.** Hacılar oymağı Zülqədər elinin böyük qollarından biridir.

Hacılar oymağı tarixi ədəbiyyatda bəzən Hacılı kimi də yazılır.

Türkiyənin Qeysəriyyə (Kayseri) vilayətində olduqca geniş bir əraziyə yayılan bir çox Hacılar oymağı vardır. Bunlardan biri 1411–1500 illər arasında Adanadan Qeysəriyyə (Kayseri) gələn, Kayı boyuna mənsub olan Kayserinin Hacılar rayonuna adını verən oymaqdır. Bu türkmən topluluğunun içərisində Qızılqoyunlu, Ağbaş və Lək kimi oymaqlar da var idi. Onlar 1691–1696-cı

[1] Türk Kültürü 6 ciltten nakleden Ahmet Dulkadiroğlu // Kırşehir ve Yöresinin Kavmi Yapısı-Dünden Bugüne Dulkadiroğulları. – Ankara, 2002, s. 122.

[2] Türk Ensiklopediyası. «Dulkadir Eli» maddesi.

[3] Ali Sinan Bilgili. Azerbaycan türkmenleri tarihi. Türkler özel sayısı. Cilt 7, – Ankara: Yeni Türkiye Yayınları, 2002, səh. 29.

illərdə Ərciyəs dağının ətəklərində məskunlaşmışlar. Hacıların digər qolu isə Ərciyəs dağının başqa istiqamətinə keçərək, Dəvəlidə Xırmancıq mövqeyində yerləşmişdir.

Səfəvilər dövründə Hacılar (qeydlərdə Bayat boyunun obası olaraq yazılır) Malatya qəzasının bir çox yerlərində yerləşərək aşağıdakı kəndləri yaratmışlar: Həkimxan rayonundakı Hacılar, Ərguvan rayonundakı Hacılar, Hacıköyü, Şaban Hacı[1].

Bundan başqa, Arquvanın cənubu ilə Fərat arasındakı nahiyənin adı Kiçik Hacılı idi[2].

Hacılar adlı iki kənddən biri günümüzədək çatan Həkimxan rayonunda yerləşir. Onun əhalisi ələvidir.

Günümüzə çatmayan Hacılar kəndi Həkimxan rayonunun İğdır kəndinin yaxınlığında idi. Hacılar obasının yaratdığı hər iki kənddə Şah Hüseyn adlı ziyarətgah var[3].

Hacılar kəndi camaatı, Hacım sultan ocağının ziyarətçiləridir.

Bundan başqa, digər yerlərdə də Hacılar adlı topluluqlar var. Azərbaycanda və xüsusilə də Türkiyədə «hacı» və «hacılı» adlı bir çox tayfalar var. Türkiyədə Hacılı adını daşıyan bölgə, Diyarbəkirin cənub-qərbində yerləşir. Hacılı topluluğunun Tunceli istiqamətində bir yurdu var. M.Ali Ünalın yazdığı kimi, Hacılı kəndi türk mənşəlidir[4].

Hacılı kəndinin türk mənşəli olduğu tam sübut olunub. Bu kənd hazırda Pülümür rayonunda yerləşir. Hacılı kəndinin Pir Sultan adlı ocaq ilə də bağlılıqları var. Ocaq sahiblərinin dediyinə görə, Pir Sultan Hacılı kəndində yeddi il sürgündə yaşamışdır. Yeddi il sonra Pir Sultan özü Banaza dönmüş, üç oğlundan biri olan Ərqaip isə Hacılı kəndində qalmışdır. Deyilənlərə görə, Pir Sultan kənddə bir məscid tikdirmişdir. Pir Sultan ocağının Hacılıdakı qoluna Ərqaip deyilir[5].

Əhalisi ələvi olub Hacılı oymağından olan kəndlərdən biri Diyarbəkirin Bismil

---

[1] R.Yinanç, M.Eliböyük. Malatya Tahrir Defteri, səh. 163, 168, 169, 213.

[2] Yenə orada, səh. 73–86.

[3] H.Aksüt. Anadolu Aleviliğinin Sosyal və Coğrafi Kökenleri, səh. 320–323.

[4] M.Ali Ünal. XVI Yüzyılda Çemişdəfəlk sancağı, səh. 84.

[5] Ali İldırım. İnanç öndəri olaraq Ozan Pir Sultan Abdal //Yol dərgisi. Hüseyn Gazi Dərneği yayın organı, sayı: 19.

rayonundakı Türkmən Hacılı kəndidir. Kənddə «Bəyazıdı Bostan» adlı baba ocağı var. Bəyazıdı Bostan türbəsi Kırıkxandadır.

Çorumdakı Almahacılı və Şəkərhacılı adlı ələvi kəndlərinin də Hacılı topluluğuyla əlaqəsinin olduğu sübut olunmuşdur.

Çorumdakı və Ərzurumdakı Həmzəhacılı kəndləri Ağqoyunlu türkmənləri içindəki Həmzəhacılıların qalığıdır. Həmzəhacılı oymağı Ağqoyunlulara qatılan topluluqlardandır. Uzun Həsən bəyin elçilərindən Ayna bəy Həmzə Hacı, bu oymaqdandır[1].

Çorumdakı və Ərzurumdakı Həmzəhacılı kəndlərinin camaatı ələvidir.

Hacılar oymağının tanınmış nümayəndələrindən biri Keçəl Şahverdi bəydir. Keçəl Şahverdi bəy Astrabadın hakimi olmuşdu. O, Oxlu türkmənləri tərəfindən öldürülmüşdü.

**Şahverdi bəyin İlyas bəy adlı oğlu vardı.**

I Şah İsmayıl zarafatla «Keçəl bəy» adlandırdığı İlyas bəyi 1502-ci ildə Kars əyalətinə vali təyin etdi. Əyalətin Cöhrəm mahalı onun övladlarına irsi mülk kimi verildi.

İlyas bəy şah tərəfindən 1505-ci ildə öldürülmüşdü.

**İlyas bəyin İbrahim bəy adlı oğlu vardı.**

İbrahim bəy I Şah Təhmasibdən əvvəlcə sultan, sonra xan titulu almışdı. 1539-cu ildən Fars əyalətinin bəylərbəyi olmuşdu. Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi yazırdı: «…Gərmrudun Miyanə məntəqəsinə çatdıqda, Qazixan vəfat etdi. Qazi xanın vəzifəsi Keçəl bəy Hacılı Zülqədərin oğlu İbrahim bəyə verildi. İbrahim xan ləqəbi aldı»[2].

**İbrahim xanın Mənsur bəy, Yaqub bəy, Zeynal bəy adlı oğlanları vardı.**

Mənsur bəy I Şah Təhmasibə xidmət etmişdi. Bir müddət Xoyda yaşamışdı.

Hacılar oymağının məşhur əmirlərindən biri də Məhəmmədqulu bəy idi. O da Şahdan xəlifə titulu almışdı.

İbrahim xanın ikinci oğlu Yaqub bəy I Şah Təhmasibə, II Şah İsmayıla, Məhəmməd Xudabəndəyə və I Şah Abbasa xidmət etmişdi. I Şah Abbas Fars əyalətini ona həvalə etdi. O, Yəzd döyüşündə Bəktaş xan Əfşara qalib gəldi və Farsa daxil oldu, İstəxr qalasının möhkəmliyinə güvənib üsyan və

[1] Ebu Bekr-i Tihrani. Kitab-ı Diyarbekriyye. Çevireni Mürsel Öztürk. səh. 217.

[2] Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Təkmilətül-əxbar, Bakı, 1996, səh. 84.

itaətsizlikdən dəm vurmağa başladı. I Şah Abbas İstəxr qalasına üz tutdu. Sonralar Yaqub bəy I Şah Abbasa qarşı çıxdığı üçün İstəxr qalasına saldırılaraq öldürüldü.

İbrahim xanın üçüncü oğlu Zeynal bəy əvvəlcə sultan, sonra xan titulunu almışdı.

İlyas bəyin qardaşı oğlu Məhəmməd bəy Səfəvi ordeninin yerlərdəki nümayəndəliyinin başçısı, xəlifə idi. O, bir müddət Astrabadın hakimi olmuşdur.

Məhəmmədqulu xəlifə Hacılar-Zülqədər 1578-ci ildə Şirvana bəylərbəyi təyin edildi.

Hacılar oymağının tanınmış şəxslərindən biri də Pirəli bəydir. O «Keçəl Pirəli» ləqəbi ilə tanınırdı. Qorçu idi. I Şah Təhmasib onu 1534-cü ildə Osmanlı sultanın yanına elçi göndərmişdi.

Elaldı ağa da Hacılar oymağının məşhur nümayəndələrindən olmuşdur. I Şah Təhmasib onu Osmanlı dövlətinə elçi göndərmişdi.

Hacılar oymağının tanınmış əmirlərindən biri də Müstədam bəy idi. Müstədam bəy sultan titulu almış və Astarabadın Kəbudcamə bölgəsinə başçılıq etmişdi.

**Sarışıxlı oymağı.** Zülqədər elinin Sarışıxlı oymağının əhalisi Anadoludan İrana gələndən sonra Fars əyalətində məskunlaşdı. Onlar sonradan Azərbaycanda da məskunlaşaraq tiyul, soyurqal və mülk sahibləri olmuşlar.

Əfşar elinin də Sarışıxlı oymağı var idi. Hər ikisinin bir kökdən gəlməsi ilə bağlı müəyyən mübahisələr var, lakin bu hələ sübuta yetirilməyib.

Sarışıxlı oymağının tanınmış nümayəndələrindən biri Kəlbəli bəydir. Kəlbəli bəy I Şah İsmayıla xidmət etmişdi. Kəlbəli bəy I Şah Təhmasibdən sultan titulu almışdı.

**Kəlbəli bəyin Ümmət bəy, Qazı bəy adlı oğulları vardı.**

Ümmət bəy 1506-cı ildə Xəlil sultan rütbəsi ilə Farsın bəylərbəyi təyin olunmuşdu. 1520-ci ildə Xəlil sultan Şah tərəfindən öldürülmüşdür.

Qazı bəy I Şah Təhmasibdən əvvəlcə sultan, sonra xan titulu almışdı. 1533-cü ildə Həmzə sultan Camışlının yerinə Fars əyalətinə bəylərbəyi təyin edilmişdi.

1540-cı ildə Həsən sultan qiyam qaldırdı. Bu hadisədən bəhs edən tarixçi Əli Əbdi bəy Şirazi qiyamın yatırılması, Həsən sultanın I Şah Təhmasibin sarayına gətirilməsi haqqında belə məlumat verir: «Qiyamın yatırılmasında böyük rol oynayan Qazı xanın vəzifəsi ölümündən sonra Keçəl bəy Hacılı Zülqədərin

oğlu İbrahim bəyə verildi və o, İbrahim xan ləqəbi aldı»[1].

II Kəlbəli bəy Sarışıxlı oymağının məşhur əmirlərindən olmuşdur. II Kəlbəli bəy şahdan sultan rütbəsi almış və I Şah Abbasa xidmət etmişdir.

Sarışıxlı oymağının məşhur əmirlərindən biri də Şahrux bəydir. Kəlbəli sultanın qardaşıdır. Əvvəlcə şahdan sultan, sonra xan titulu almışdır.

Sarışıxlı oymağının adlı-sanlı əmirlərindən olan Hümbət bəy şahdan sultan, sonra xan titulu almışdı. Salman xanın ölümündən sonra o, Farsın bəylərbəyi olmuşdu. 1585-ci ildə Sultan Məhəmməd Xudabənd şaha qarşı qiyamda iştirak etmişdir.

**Çiçəkli oymağı.** Osman dövlətinin ərazisində yerləşən Çiçəkli oymağı Zülqədər elinin oymaqlarındandır.

Qaynaqlara görə, 1563-cü ildə Çiçəkli tayfalarının yaşadıqları Görmüsək nahiyəsində Dərikli-Viran kəndində 35 ev, Xanlı kəndində 35 ev, Bəyviran kəndində 13 ev qeydə alınmışdı.

Faruq Sümer «Bozok tarihine dair araştırmalar» adlı tədqiqatında Çiçəkli adının boy bəylərinin adından götürüldüyünü yazır[2].

Çiçəkli oymağının iki ən böyük kəndi – Taf və Yaplısu (Yapalaq) idi.

Qaynaqlara görə, 1558–1559-cu illərdə Boğoz sancağının Boğazlıyan nahiyəsində 199 ev qeydə alınmışdır. Çiçəkli oymağının əhalisi əkinçilik və maldarlıqla məşğul olmuşlar.

Nahiyədəki başlıca kəndlər və oymaqlar bunlardır: Baba Yağmur, Cəfərli, Qaraquyu, Göyçəli, Müdərrisli (digər adı Çalapverdi), Əkizcə, Qaraqoç, Sırçalu (Sırçalıtekke), Pınarbaşı, Oğulcuq, Yoğun İsalu (Yoğunhisar), Gözəlcə Köprü (digər adı Uzunlu). Bu dəftərə görə, Boğazlıyanda 594 nəfər vergi ödəyən vardı.

Çiçəkli oymağının tanınmış nümayəndələrindən biri Əli bəydir. Əli bəy I Şah İsmayıldan sultan titulu almışdı.

1520-ci ildə Xəlil sultan Sarışıxlı öldürüldükdən sonra Farsın bəylərbəyi Əli sultan Çiçəkli-Zülqədər olmuşdur. O, ustacluların 1525-ci il qiyamını yatırtmağa cəlb edilmişdir. Əli sultan Çiçəkli-Zülqədər 1525-ci ildə Təbrizdə vəfat etmişdir. Onun yerinə əvvəl qardaşı oğlu Murad sultan, sonra isə Həmzə

---

[1] Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Təkmilətül-əxbar, Bakı, 1996, səh. 84.

[2] Faruq Sümer. Bozok tarihine aid araştırmalar. DTCF. Cümhuriyyətin 50 illini anma kitabı. – Ankara, səh. 136.

sultan Camışlı-Zülqədəri təyin edilmişdir[1].

Çiçəkli oymağının adlı-sanlı əmirlərindən biri də Əli sultanın qardaşı oğlu Murad bəydir. 1525-ci ildə əmisinin vəfatından sonra bir müddət Farsın bəylərbəyi olmuşdu.

**Camışlı oymağı.** Zülqədər elinin bu oymağı tarixi ədəbiyyatda bəzən «Caməspli» kimi də təqdim edilir.

Camışlı oymağının tanınmış nümayəndələrindən biri Həmzə bəydir. Həmzə bəy sultan titulu ilə 1525-ci ildə Fars əyalətinə bəylərbəyi təyin edilmişdir. O, 1533-cü ilədək Farsın bəylərbəyi olmuşdur.

Həmzə bəy Camışlı Yəzddə olarkən Bəktaş xan Əfşarın qəzəbinə gəlmişdi. Bəktaş xan onu həbs etdirmişdi. I Şah Abbas tərəfindən Farsın bəylərbəyi təyin edilmiş Yaqub xan təyinat yerinə gedərkən yolunu Yəzddən saldı. Bəktaş xandan Həmzə bəyin əfv edilməsini istədi. Bəktaş xan Yaqub xanın xahişi ilə Həmzə bəyi həbsdən azad etdi. Yaqub xan onu öz nümayəndəsi kimi Şiraza göndərdi. Bu hərəkəti ilə Bəktaş xan Fars zülqədərlərinin böyük hörmətini qazandı.

Bəktaş xan Həmzə bəyi həbsdən azad etdiyi üçün peşman olub, Yaqub xanı da həbs etmək fikrinə düşdü. Yaqub xan bundan duyuq düşüb Şiraza çəkildi və burada fitnəkarlığa başladı. Bəktaş xan Zülqədər camaatını incitməyə başladı. Özü təyin etdiyi Həmzə bəyi yenidən həbs etdirib, qorçu Əliqulu bəy Şamlının yanında gözdustağı saxladı. Bu hərəkət Zülqədər eli ilə Bəktaş xan arasında düşmənçiliyə səbəb oldu. Yaqub xanın atası Vəli xan oğlunu danlayıb düşmənçilikdən daşındırmağa çalışdı. Yaqub xan fitnə-fəsaddan nəinki çəkinmədi, hətta qonşu Kerman torpağına da əl uzatdı.

Bəktaş xan Əfşar Yaqub xan Zülqədərlə daha sərt danışmaq qərarına gəldi. Əvvəlcə Həmzə bəy Camışlını gözdustaqlığından azad etdirdi. 150 nəfər igid Əfşar oğlunu Həmzə bəyə köməyə göndərdi. Sonra Yəzd qalasını Yaqub xanın yaxın adamı Əliqulu bəy Şamlının əlindən almağa girişdi. Əliqulu bəy qalanı verməkdən imtina etdikdə Bəktaş xan müharibə əmrini verdi. Həmzə bəyə də xəbər göndərdi ki, döyüşə qatılsın.

I Şah Abbas Bəktaş xanın üsyan etməsini eşidib, narahat oldu. Üsyanı yatırmaq üçün Qəzvindən İsfahana yola düşən I Şah Abbas Kaşanda Bəktaş xanın ölüm xəbərini eşidib, sevincək oldu. I Şah Abbasın Bəktaş xanla ədavəti vardı. O, anasının ölümündə Bəktaş xandan da şübhələnirdi. Bəktaş xanın özbaşınalığına dözə bilməyən I Şah Abbas Fars əyalətinə bəylərbəyi təyin

---

[1] I Şah Təhmasibin təzkirəsi. – Bakı, 1996, səh. 18.

etdiyi Yaqub xan Zülqədəriyə Bəktaş xanı aradan götürməyi əmr etmişdi. «Qızılbaşlar tarixi»ndə yazılır: «I Şah Abbas İbrahim xan Zülqədərin oğlu Yaqub xanı Farsa hakim təyin etdikdən sonra, Yaqub xan yola düşüb Yəzdə çatdı. Bəktaş xan onu və adamları ilə birgə həbs etmək istədi. Yaqub xan onların istəyini başa düşüb yorğunluğunu bəhanə gətirərək, Əhəristanda yerləşən Baği-Gülşəndə dayandı. Həmin günün axşamı icazəsiz və vidalaşmadan Farsa yollandı. Orada qoşun toplayıb, 10-12 min nəfərlə Yəzdə tərəf yeridi. Bəktaş xan yanında olan süvari və piyadaları toplayıb min nəfər ordu ilə onun qarşısına çıxdı. Yəzdin 4 fərsəxliyində yerləşən Cəmtəft düzənliyində onların qoşunları üz-üzə gəldilər. Bəktaş xan məğlub olub geri qayıtdı. Bəktaş xan Mirmiranın – Əmir Qiyasəddinin hündür hasarları olan evində gizləndi. Onu təqib edən Yaqub xan Əhəristanda düşərgə saldı və Bəktaş xan gecə evinin arxa qapısından çıxıb Kermana getmək istəyəndə, onu izləyən İbrahim bəy Alıcı Zülqədərlə rastlaşdı. Onu tutub Yaqub xanın yanına aparmaq istədi. Bundan qəzəblənən Bəktaş xan o qədər vuruşdu ki, axırda həlak oldu»[1].

Bəktaş xanın əmri ilə üsyana başlayan Həmzə bəy və Zülqədər elinin bir hissəsi Sülüstan istiqamətində hərəkət etdi. Camışlı oymağının böyük bir qrupu o istiqamətə köçmüşdü. Əfşar eli Ağ qalaya hücum edib, möhkəm istehkamı ələ keçirdi. Camışlılar da hücuma keçib, bir çox yerləri ələ keçirmişdilər. Yaqub xan Zülqədər çoxsaylı qoşunla onların üstünə göndərildi. Həmzə bəyin sərkərdəsi İsmayıl xəlifə İshaq xəlifə oğlu Sülüstan qalasına tərəf çəkildi. Qalanın komandanı onların oymağından olmasına baxmayaraq, Yaqub xanın qorxusundan heç kimi qalaya buraxmadı. Yaqub xan qoşunu ilə yetişdi. Həmzə bəyin tərəfdarları Kuhgiluyə istiqamətinə, Əfşarların köməyinə getmək istədilər. Kuhgiluyə hakimi onları sərhəddən buraxmadı. Nəhayət, Yaqub xanın qoşunu onlara çatdı. Camışlıların böyük bir dəstəsi əsir alındı. Həmzə bəy isə döyüşdə öldürüldü.

**Qurğulu oymağı.** Zülqədər elinin Qurğulu oymağının tanınmış şəxslərindən olan Misir bəy I Şah Təhmasibin sarayında qorçu vəzifəsində qulluq etmişdir.

Qurğulu oymağının tanınmış əmirlərindən biri də Şahqulu bəydir. O, xəlifə titulu daşımışdır. Əvvəlcə eşikağası olan Şahqulu xəlifə 1533-cü ildən, Mahmud bəyin ölümündən sonra, möhrdar vəzifəsinə təyin olunmuşdur.

Şahqulu xəlifə 1558-ci ildə qulunc xəstəliyindən vəfat etmişdir.

Qurğulu oymağının digər məşhur əmiri Dərgahqulu bəy Şahqulu xəlifənin oğlu, Nadir xan möhrdarın qız nəvəsidir. Dərgahqulu bəy şahdan sultan titulu almışdı. Fars əyalətinin bəzi mahallarına sahib idi.

[1] Qızılbaşlar tarixi. – Bakı, 1993, səh. 33–34.

Qurğulu oymağının məşhur əmirlərindən biri də Əliqulu bəydir. O da Şahqulu xəlifənin oğul, Nadir xan möhrdarın qız nəvəsidir. Əliqulu bəy də şahdan sultan titulu almışdı. Bir müddət möhrdar olmuşdu.

Qurğulu oymağının tanınmış nümayəndələrindən olan İbrahim bəy 1557-ci ildə şah tərəfindən cəzalandırılmışdır. Yüzbaşı kimi xidmət etmiş İbrahim bəy şahdan sultan titulu almışdı. O, Xorasanın Sərəxs vilayətinin hakimi olmuşdur.

Qurğulu oymağının tanınmış nümayəndələrindən biri Qara bəydir. Qara bəy 1557-ci ildə öldürülmüşdür.

Qurğulu oymağının tanınmış əmirlərindən biri də xəlifə titulu almış Məhəmmədqulu bəydir[1].

**Bayatoğlu oymağı.** Zülqədər elinin oymaqlarından olan Bayatoğlu bəzi tarixi qaynaqlarda Beytoğlu kimi də yazılır. Bu oymaq Qurğulu oymağının bir qolu kimi də göstərilir.

Bayatoğlu oymağının tanınmış şəxslərindən biri Qılıc bəydir. Qılıc bəy I Şah İsmayıla xidmət etmişdir.

**Qılıc bəyin Süleyman bəy, Həsən bəy adlı oğlanları vardı.**

Süleyman bəy I Şah Təhmasibin əmiraxuru olmuşdur. 1557-ci ildə şah tərəfindən öldürülmüşdür.

Qılıc bəyin ikinci oğlu Həsən bəy qorçu yüzbaşısı vəzifəsində xidmət etmişdir. 1557-ci ildə o da qardaşı kimi şah tərəfindən cəzalandırılaraq öldürülmüşdür.

Bayatoğlu oymağının tanınmış əmirlərindən biri də Zülqədər elinin ağsaqqalarından olan Şahqulu sultandır. I Şah Təhmasibin oğulları İsmayıl Mirzənin və Heydər Mirzənin tərəfdarları bir-birinə qarşı çıxanda, şahzadələr Sultan Mahmud Mirzə və Sultan Mustafa Mirzə Şahqulu sultanı tapıb, onları barışdırmağa göndərdilər. Şahqulu sultan İsmayıl Mirzənin tərəfdarı idi. O, imtina etmək istəsə də getməli oldu.

Şahqulu sultan şahlığa namizəd olan şahzadələrin tərəfdarlarını bir yerə toplayıb, onlara məsləhət gördü ki, şahı özünəlayiq dəfn etdikdən sonra Qızılbaş ağsaqqalları yığışıb, hamının hörmət etdiyi şahzadəni şah seçsinlər.

Heydər Mirzənin tərəfdarları sultanı eşitmədilər. Şahqulu sultan nəsihətinin eşidilmədiyini görüb, hiylə işlətməyə başladı. Bir nəfəri öyrədib Heydər Mirzənin tərəfdarlarının yanına göndərdi ki, İsmayıl Mirzə artıq şəhərin

[1] İsgəndər bəy Türkmən (Münşi). Tarix-i aləm aray-i Abbasi. 1-ci cild, 2-ci cildin yarısı, – Tehran, 1382.

kənarındadır. Ağsaqqallara bildirdi ki, I Şah Təhmasib oğlu İsmayıl Mirzənin namizədliyi haqqında vəsiyyətnamə yazıb. Oğlunu da özü şəhərə ona görə çağırmışdı. Heydər Mirzənin tərəfdarları Şahqulu sultanın sözlərindən sonra artıq uduzduqlarını başa düşdülər.

Məhəmmədqulu xəlifə möhrdar, Heydər sultan Çabuq Türkman və başqaları Hüseynqulu xəlifə Rumlunun evinə getdilər. Heydər Mirzənin qatı tərəfdarı olan Ustaclı elinin başçılarından biri Allahqulu sultan Aycəkoğlu dəstədən ayrılıb saraya yollandı[1].

Şahqulu sultan 1587-ci ildə Naxçıvan və İrəvan valisi təyin edilmişdir. O, Naxçıvan və İrəvanın Osmanlılardan alınıb, müstəqil olması üçün uzun müddət mübarizə aparmışdır[2].

**Eymur oymağı.** Məşhur türkoloq Faruq Sümerə görə, Eymur oymağı Zülqədər əhalisinin bir qoludur. 1525-ci ildə Eymur obası 48 kənddən ibarət olmuşdur. Bu obalardan çoxu Maraş və ona bağlı Pazarcıq, Qurupinar və Haruniyyə nahiyələrində qışlayırdı. Yayda Axır və Sandıq dağlarına yaylağa çıxırdılar. Onlar əkinçilik və maldarlıqla məşğul olurdular. Maraş bölgəsindəki eymurlar XVI yüzilin ikinci yarısından etibarən Maraş və Antəp kəndlərində məskunlaşmağa başlamışlar[3].

Müəllif sonra eymurlərdən bəhs edərkən yazır: "Səfəvi dövlətini yaradan qızılbaş boylarından biri zülqədərlərdir. Eymur obası Zülqədər ulusunun İrana gəlmiş bir qoludur.

I Şah Təhmasibin hakimiyyəti dövründə şaha xidmət etmiş Zülqədər əmirlərindən olan Şir Hüseyn bəy Eymur obasına mənsub idi. 1535–1536-cı illərdə Azərbaycandan İstanbula qayıdarkən İranı zəbt etmək istəyən Qanuni I Şah Təhmasib Qacar Qara bəylə Eymur Şir Hüseyn bəyi ön keşikçilər kimi qabağa göndərmişdi. Şah Abbas dövründə Zülqədər əmirlərindən Kəlbəli sultan ilə oğlu Xəlil sultan da eymurlardandır"[4].

Zülqədər ulusunun başlıca oymaqlarından biri olan Küşnə isə **Eymuroğlu** adını daşıyır.

---

[1] İsgəndər bəy Türkmən (Münşi). Tarix-i aləm aray-i Abbasi. 1-ci cild, 2-ci cildin yarısı, – Tehran: Əmir, Kəbir, 1382 hicri şəmsi.

[2] M.F. Kırzıoğlu, Osmanlıların Kafkas ellerinin fethi (1451–1590), – Ankara, 1993, səh. 359.

[3] Faruq Sümer. Göstərilən əsəri, səh. 325.

[4] Yenə orada. səh. 326 – 327.

Eymur oymağının bir qolu Zülqədər elinin tərkibində Qızılbaş tayfa ittifaqına qoşulmuşdu. Bu oymağın əhalisi əsasən Fars əyalətində məskunlaşmışdı.

Eymur oymağının bir qolu Qarabağa gəlmiş, digəri isə Otuzikilərin tərkibinə daxil olmuş, başqa bir hissəsi isə Gürcüstan sərhədinə yaxın bir yerdə məskunlaşmışdı.

Eymur oymağının tanınmış simalarından biri Şirhəsən bəydir. Şirhəsən bəy I Şah Təhmasibin sarayında qorçu kimi xidmət etmişdi. 1534-cü ildə şahın tapşırığı ilə 30 qorçu ilə Vana kəşfiyyata getmişdir. Qorçubaşı titulu almışdır.

Eymur oymağının tanınmış nümayəndələrindən biri də Aydın ağadır.

**Aydın ağanın Yolqulu bəy adlı oğlu vardı.** Mövlana Yolqulu bəy mədrəsədə oxumuşdu. Savadlı adam kimi, Yolqulu bəy şahın hərəmxanasında eşikağası vəzifəsində xidmət etmişdir. Bir müddət Marağanın hakimi olmuşdur. 1567 (1568)-ci ildə Yolqulu bəy gilanlılar tərəfindən öldürülmüşdür.

Eymur oymağının məşhur əmirlərindən biri Kəlbəli bəydir. Kəlbəli bəy Qarabağın tanınmış oğullarından olmuşdur. Şahdan sultan titulu almışdır.

Kəlbəli sultanın Xəlil bəy adlı oğlu olmuşdur. Xəlil bəy şahdan sultan titulu almış, Qarabağda qoşun başçısı olmuşdur.

Eymur oymağı Qarabağda Əmirli, Gürcüstanda isə İmirli adlanırdı. Hazırda Bərdədə İmirli adında kənd vardır. Tovuz rayonunun ərazisindəki bir çox kəndlər Eymur oymağının qalıqlarıdır.

Ali Sinan Bilgiliyə görə, Eymir (Eymirli) tayfası zülqədərlərlə birlikdə Azərbaycana göçmüşlər. Onlar Gəncə, Qarabağ, Rəvanda məskunlaşmışdılar. 1727-ci ildə Gəncənin Şəmkir nahiyəsində və xəlifə (Haliha) qəzasında beş qrup halında yaşayırdılar. Şəmkirdə Qaraazıq, Kalhada kiçik Eyüblü, Gulası, Qaraxanlı kəndlərində yaşamaqda idilər[1].

**Mehnalı oymağı.** Zülqədər elinin Mehnalı oymağının tanınmış nümayəndələrindən biri Tabat ağadır. Tabat ağa 1555-ci ildə I Şah Təhmasibin tapşırığı ilə Osmanlı dövlətinə elçi getmişdir. Xorasanda Camənin hakimi olmuşdur.

[1] Ali Sinan Bilgili. Azerbaycan türkmenleri tarihi. Türkler özel sayısı. Ankara, 2002, Cilt 7, səh. 29.

**Tabat ağanın Şahqulu bəy adlı oğlu vardı.**

Şahqulu bəy I Şah Təhmasibə xidmət etmişdir. Şahdan sultan rütbəsi almışdır. 1581-ci ildə Sultan Məhəmməd Xudabəndə şah tərəfindən Osmanlı dövlətinə elçi göndərilmişdir.

**Qalxançıoğlu oymağı.** Zülqədər elinin oymaqlarından biri də Qalxançıoğludur. Bəzi tarixi ədəbiyyatda «Qılmançıoğlu» kimi də qeyd olunur.

Qalxançıoğlu oymağından çıxan məşhur adamlardan biri Hüseyn bəydir. Hüseyn bəy yasavulbaşı kimi xidmət etmişdir. 1564-cü ildə Pirməhəmməd xan ibn Canıbəy xan Özbəyin yanına elçi göndərilmişdir.

Qalxançıoğlu oymağının məşhur əmirlərindən biri Vəli bəydir. Vəli bəy şahdan əvvəlcə sultan, sonra xan titulu almışdır. II Şah İsmayıl onu Fars vilayətinə bəylərbəyi təyin etmişdir. Məhəmməd Xudabəndə Mirzənin lələsi olmuşdur.

**Vəli xanın Yaqub bəy adlı oğlu vardı.**

**Söklən oymağı.** Zülqədər elinin bir oymağı da Ağdağ ətəklərində məskunlaşmış söklənlər idi.

XVI–XVIII yüzilliklərdə Oğuzların sağ qolu olan türkmənlərin Ağdağ ətrafı, Qırxlı Hisar-Beglü Qızıl-Qocalu və Söklənə köçmüşlər. Ağdağ Qara tatarlar deyilən monqolların yaşadıqları başlıca yerdir. XV–XVIII yüzilliyin başlanğıcında Söklən oymağının əhatəsinin bir çoxu Əmir Teymur tərəfindən Türküstana köçürülmüşdür.

Söklənlərin Bozoqdakı yurdları Ağdağ istiqamətində yerləşmişdir. Oymağın adı bəylərinin birinin adından götürülmüşdür.

Söklənlərin bir qismi Maraşdan İrandakı Zülqədər elinə köçmüşdür.

Oymağın tanınmış əmirlərindən biri Rüstəm bəydir. Rüstəm bəy şahdan sultan titulu almışdır.

**Rüstəm sultanın Əmir bəy adlı oğlu var idi.**

Əmir bəy əvvəlcə sultan, sonra xan titulu almışdır. O, Kermanın hakimi olmuşdur. Şah Səfinin hakimiyyəti dövründə qorçubaşı olmuşdur.

Oymağın məşhur əmirlərindən biri də Nəzərəli xandır. Nəzərəli xan I Şah Abbasın hakimiyyəti dövründə Ərdəbilin hakimi olmuşdur.

Söklən oymağının tanınmış əmirlərindən biri də Xəndanqulu bəydir.

Oymağın digər tanınmış əmiri Şahverdi xəlifədir. I Şah Təhmasibə xidmət etmiş, bir müddət qorçu, sonra bayraqdar olmuşdur.

Söklən oymağı Qarabağda Sevgülən adlanırdı. Oymaq Qacar elinin tərkibinə daxil olmuşdur.

**Qaraca-Sevgülən oymağı.** Zülqədər elinin bir qolu kimi Qaraca-Sevgülən oymağı Qarabağda yerləşmişdi. Bu oymaq sonralar böyüyərək kənd şəklinə düşmüş, «Sevgülən» adlanmışdır.

Rus qaynağında Sevgülən obasının 1823-cü ili haqqında məlumat vardır. Sevgülən obası 1823-cü ildə dövlətə vergi ödəyən 7 evdən ibarət olmuşdur[1].

Sevgülən kəndində bir Zülqədər bəy ailəsi var idi. Həmin ailənin nəsil şəcərəsi belədir:

Bu soyun ulu babası Vəli bəydir. Vəli bəy XVIII yüzillikdə yaşamışdır. **Vəli bəyin Haqverdi bəy adlı oğlu olmuşdur.**

Haqverdi bəy Sevgülən kəndində dünyaya gəlmiş və həmin kəndin yüzbaşısı olmuşdur.

**Haqverdi bəyin Vəli, Ələkbər bəy, Allahverdi bəy adlı oğlanları vardı.**

Vəli bəy 1796-cı ildə Sevgülən kəndində doğulmuşdur. Molla yanında oxumuşdur. Atasından sonra kəndin yüzbaşısı olmuşdur.

**Vəli bəy Pəri xanımla ailə qurmuş və onların Əliverdi bəy, Talıb bəy adlı oğlanları, Leyli xanım adlı qızları olmuşdur.**

Əliverdi bəy 1843-cü ildə Sevgülən kəndində anadan olmuşdur. Vəli bəyin ikinci oğlu Talıb bəy 1845-ci ildə doğulmuşdur.

Haqverdi bəyin ikinci oğlu Ələkbər bəy 1824-cü ildə Sevgülən kəndində anadan olmuşdur. O, əkinçiliklə, qismən də heyvandarlıqla məşğul olmuşdur. Ələkbər bəy Gülnisə xanımla ailə həyatı qurmuşdur.

Haqverdi bəyin üçüncü oğlu Allahverdi bəy 1834-cü ildə Sevgülən kəndində anadan olmuşdur. Onun da əsas təsərrüfat məşğuliyyəti əkinçilik və qismən də heyvandarlıq olmuşdur.

**Şəmşəddil oymağı.** Zülqədər elinin Şəmşəddil oymağı Qarabağ əyalətində yerləşir.

Zülqədər eli əsasən Qarabağ əyalətinin Tavus və Həsənsu nahiyələrində yaşayırdı. Bu nahiyələrə sonralar Şəmşəddil mahalı deyilirdi.

---

[1] Описание Карабахской провинции, составленное в 1823 году по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским Советником Могилевским и полковником Ермоловым. – Тифлис, 1866, стр. 120

Zülqədər elinin böyük qollarından olan Şəmşəddil oymağı öz adını mahala vermişdi.

Abbasqulu ağa Bakıxanov Şəmşəddil əhalisinin Zülqədər elindən olması haqqında yazırdı: «Sultan Səlim, 1515-ci ildə, Çaldıran döyüşündə Şah İsmayıla qalib gəldi və Təbrizi aldı. O, burada doqquz gün qaldıqdan sonra Ruma qayıtdı. Qürurunun çoxluğundan, Zülqədəroğlu Əlaüddövlə bu iki padşahdan heç birini (Sultan Səlimi və Şah İsmayılı) tanımaq istəmirdi. Buna görə Sultan Səlim Fərhad Paşaya onu cəzalandırmağı əmr etdi. Əlaüddövlə öz tayfasından bir çoxu ilə bərabər öldürüldü. Sağ qalanlardan bəzisi Ruma dağıldı və bir hissəsi də sonralar Azərbaycana gəldi. Şəmşəddil mahalı bunlardandır. Zülqədərlərin bəziləri də Car, Tala və Dağıstanla qonşu olan yerlərə dağıldılar. Ləzgilər «z» hərfini «b» hərfi ilə dəyişərək, bunlara indi də Bülqədər deyirlər».

İ.P.Petruşevski yazırdı: «Şəmşəddil, Zəyəm dairəsi və onun qərbindəki sahə – I Şah İsmayılın dövründən Şəmşəddil tayfası buranı irsi ölkə kimi alıb. Şəmşəddil tayfasının adı ilə bağlı olan bu dairə sonralar Şəmşəddilli adlanıb. Şəmşəddil tayfası qızılbaş eli olan Zülqədərin qoludur. 1605-ci il mayın 10-da Əli sultan Şəmşəddil-Zülqədər I Şah Abbasdan Şirvanda ölkə almışdı. O, bu ölkəni irsən övladlarına verə bilərdi. Onun varisi Səlim xan Şəmşəddil-Zülqədər şah qoşunları 1622–1623-cü ildə Gürcüstandakı Axalsix qalasını alandan sonra oraya sahib oldu. Bu qala əvvəllər osmanlıların hakimiyyəti altında idi. XVIII yüzilin ikinci yarısından sonra Şəmşəddil tayfasının taleyi Qazaxlı tayfasının aqibəti kimi oldu"[1].

M.Vəlili (Baharlı): «Azərbaycan: Coğrafi-təbii etnoqrafik və iqtisadi mülahizat» adlı kitabında Zülqədər elinin Gəncə vilayətinin Şəmşəddil mahalında yerləşməsindən bəhs edərək yazırdı: «Zülqədərlər ilk əvvəl Şirazı işğal edərək burada məskunlaşdılar. Sonradan buradan da Kiçik Asiyaya köçüb, Diyarbəkir və Mosulda oturdular. Burada qüvvətlənib bir xanlıq qurdular. Bu məmləkəti 1278-ci ildən 1525-ci ilə kimi doqquz nəfər hakim idarə etmişdir. Qonşu millət və qəbilələr də onlara tabe idilər. 1515-ci ildə bu xanlıq Sultan Səlimə tabe edildi. Bu hadisədən sonra zülqədərlərin bir hissəsi Qafqaziya Azərbaycanına keçdilər və Gəncə vilayətinin Şəmşəddil nahiyəsində oturdu. Onlar indi də orada yaşamaqdadılar»[2].

---

[1] И.П.Пертушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. - Ленинградский Государственный Университет, 1949 г.

[2] M.Vəlili (Baharlı). Azərbaycan: Coğrafi-təbii etnoqrafik və iqtisadi mülahizat. – Bakı, 1993, səh. 49.

Qarabağ bəylərbəyi İmamqulu xan Yıva-Qacar osmanlılara qarşı savaşda Şəmşəddil oymağının gücündən istifadə edirdi. Qarabağ, Gəncə və Bərdənin Qızılbaş mənşəli əhalisindən başqa, Qafqaz dağının Şirvan və s. yaylaq və qışlaqlarında yaşayan, Şəmşəddilli, Qaramanlı, İyirmidördlər, Otuzikilər, Hacılı və Qazaxlı deyilən ərazilərin igidlərini silahlandırılıb, orduya müharibəyə göndərilmişdir[1]. «Büyüksu» boyundakı vuruşmasına, Ərzurum və Maraş əsgəri də qoşulmuşdur. Sərdar Fərhad Paşa tərəfindən dəbdəbə ilə qarşılanan Davud Xan, Qızılbaş papağını çıxarıb, «mücevveze» geyindi; özünə və oğlu ilə yanında gələn «Gürcüstan Bəyzadələri»nə hörmət edildi; əsgərə də hədiyyələr verildi».

Tarixçi İsgəndər bəy Türkmən (Münşi) də bu barədə yazır: «Qarabağ tərəkəmələri və oymaqları, Otuziki Qacar uluslar ilə Qazaqlar, Şəmşəddil və Qaramanlu boyları ilə Qarabağ ölkəsini geri almağa göndərildi. Arazbardan Arazı aşıb Qarabağa girən Ziyadoğlu qoşunu Gəncə üzərinə çatıb istehkam elədikləri yerlərdən keçib yurdlarını tutdular"[2].

Şəmşəddil oymağının adlı-sanlı əmirlərindən biri Səlim bəydir. Səlim bəy şahdan əvvəlcə sultan, sonra xan titulu almışdır. Bir müddət Axısqa qalasının başçısı olmuşdur.

Şəmşəddil oymağının başçılarından biri də Əlixan sultan olmuşdur. Əlixan sultan 1606-cı ildə I Şah Abbasın əmri ilə Şirvanı azad etməyə göndərilmişdir. Şah ona xan titulu vermişdir.

Şəmşəddil oymağının digər tanınmış nümayəndəsi Hüseyn bəydir. Qorçu yüzbaşısı vəzifəsinə yüksələn Hüseyn bəy Şah Abbasın Gürcüstan səfərində iştirak etmişdir. Gürcülər körpünü uçurub zülqədərləri mühasirəyə aldıqlarından çox az adam suya atılıb canını qurtara bilmişdi.

Hüseyn bəy Şəmşəddil qərargaha çağırıldı. Onu sorğu-suala tutdular. Onu kəşfiyyat aparmadan hücum etdiyinə görə danladılar, çox adamın ölümünə səbəb olduğuna görə öldürdülər.

Şəmşəddil oymağının tanınmış əmirlərindən biri Məhəmməd sultandır. Qarabağ əmirlərindən olan Məhəmməd sultan Gürcüstan səfərində iştirak etmişdi. O, Təbriz bəylərbəyi Pirbudaq xan Pörnək-Türkmən ilə Kür çayını keçib Qabırrı istiqamətinə getmişdi. Məhəmməd sultanın əhalinin gizləndiyi qala və sığınacaqları Səfəvi ordusuna nişan verəcəyi Gürcüstan valisi

[1] M.F.Kırzıoğlu. Göstərilən əsəri, səh. 355.

[2] İsgəndər bəy Türkmən (Münşi). Göstərilən əsəri, Tehran, 1382, 1-ci cild, 2-ci cildin yarısı.

Təhmirazı qorxuya salmışdı.

1616-cı ildə Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyadoğlu-Qacar I Şah Abbasın əmri ilə Məhəmməd sultan Şəmşəddili də götürüb Təhmirazı cəzalandırmağa yollandı. Payız aylarında Gürcüstana gələn qoşun kaxetiyalıları cəzalandırdı. Baş verən döyüşlərin birində Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyadoğlu-Qacar öldürüldü.

Fars hakimi İmamqulu xan osmanlıların üstünə gedəndə şah Məhəmməd sultan Şəmşəddilə tapşırmışdı ki, Urmiyada öz dəstəsi ilə ona qoşulsun.

Şahın əmri ilə Məhəmməd sultan Qars–Ərzurum yolunu nəzarətə götürmüşdü. O, bu yoldan keçən fərariləri tutub öz hissəsinə göndərir, casusları isə qərargaha təhvil verirdi.

Məhəmməd sultan Şəmşəddil İsfahanda olarkən xəstələndi. Onu müayinə və müalicə üçün şah ən yaxşı həkimləri göndərdi. Böyük qızılbaş sərkərdəsi qürbətdə vəfat etdi.

Şəmşəddil oymağının məşhur əmirlərindən biri də başqa Məhəmməd sultan idi. O, Dəli Məhəmməd adı ilə tanınırdı. Şah onu Gürcüstana vali və Tiflis qalasına qalabəyi təyin etmişdi.

Şəmşəddil oymağı Öksüzlü, Əmirli camaatlarına ayrıldı.

Öksüzlü camaatı XVIII yüzilliyin önlərində Tavus nahiyəsinin Dürrəxan, Saatlı, Kosalar, Qəlbiməli, Vahidli kəndlərində yaşayır, əkin-biçinlə məşğul olurdular. Əmirli camaatı isə Ərəbli, Qaraxanlı, Gülacı kəndlərində yaşayırdı.

Nəsib sultan Şəmşəddil mahalının Öksüzlü obasında anadan olmuşdu. Əli Sultandan sonra mahal başçısı (1747–1761) olmuşdu.

Nəsib sultan Qazax ağalarını Gəncə hakiminə qarşı səfərbər etmişdi. Yaxşı təlim görmüş 300 qazaxlı süvari çar generalının əmri ilə Gəncənin işğalında iştirak etmişdi[1].

El şairi Gəncəli Həsən yazırdı:

**Gəncəli Həsənəm, ürəyim acı,**

**Moskov fürsət tapıb çaldı qılıncı,**

**Şəmşəddil, Qazax, Borçalı, gürcü,**

**Taladı, qalmadı malı Gəncənin...**

[1] ÜQVİA, f.VUA, d–4278, c–2.

Nəsib sultan Şəmşəddil Gəncənin alınmasında göstərdiyi xidmətə görə mayor rütbəsi ilə təltif olunmuşdu. Gəncənin işğalı başa çatdıqdan sonra Nəsib sultanın səlahiyyətləri genişlənmişdi. O, Şəmşəddil və Qazax mahallarının başçısı təyin edilmişdi. Xidmətlərinə görə Həsənsuyundan başlamış Şahdağına qədər olan ərazi onun idarəsinə verilmişdi. Lakin bu səlahiyyət uzun sürmədi. Nəsib sultan 40 nəfər çar əsgərini öldürməsində günahlandırıldı. A.S.Yermolov general-leytenant Velyaminova Nəsib sultanı və Mustafa ağanı nəzarətdə saxlamağı tapşırmışdı: «Qorxulu adamdılar, xalqı iğtişaşa qaldırmaq üçün məqam axtarırlar. Mən qəti surətdə deyirəm, əgər lazımdırsa, onları həbsə alın, inanılmış nəzarətçilərlə Mozdok komendaturasına aparıb təhvil verin»[1].

Nəsib sultanla Mustafa ağanı həbsə almaq üçün knyaz V.Q.Madatov xüsusi tapşırıqla Yelizavetpola göndərilmişdi. 1807-ci il mayın 7-də general-leytenant V.Q.Madatov Gəncəyə gəlib Nəsib sultanı və Qazax mahalı kənd sakini şair Mustafa ağa Arifi həbsə alaraq Tiflisə apardı. Onlar həbs edilərək Rusiyaya sürgün olundular[2].

Nəsib sultan 1819-cu il mayın 11-də öldürüldü. Onun övladları İrana, Sulduz ətrafına qaçdılar.

Nəsib sultanın törəmələri Sultanov soyadını daşıyırdılar.

**Onun Yusif xan, Məsih xan, İsgəndər bəy, Mehdixan bəy adlı oğulları, Xədicə xanım adlı qızı vardı.**

Yusif xan Şəmşəddil mahalında doğulmuşdu. Onun Şahnəzər bəy adlı oğlu, Hürcahan xanım adlı qızı var idi. Hürcahan xanım Şəmşəddil mahalının Öysüzlü obasında doğulmuşdu. O, Əhməd xan İbrahimxəlil xan oğlu Sarıcalı-Cavanşirlə, sonra Süleyman xan Səlim xan oğlu Şəkinski ilə ailə qurmuşdu. Birinci nikahdan Xanlar ağa adlı oğlu, Bikə bəyim adlı qızı olmuşdu.

Nəsib sultanın ikinci oğlu Məsih xan Şəmşəddil mahalında anadan olmuşdu. Məsih xanın Museyib ağa adlı oğlu var idi.

Nəsib sultanın üçüncü oğlu İsgəndər bəy Öksüzlü obasında anadan olmuşdu.

Nəsib sultanın dördüncü oğlu Mehdixan bəy Şəmşəddil mahalının Öksüzlü kəndində anadan olmuşdu. Mehdixan bəyin Nəsib bəy, Əsəd bəy adlı oğulları vardı[3].

---

[1] AKAK, том VI, ч. 1, 1022.

[2] Yenə orada.

[3] AKAK, c. II, 1689, səh. 820–821.

Abdı bəy Şəmşəddil mahalın tanınmış bəylərindən idi. 1747–1761-ci illərdə Şəmşəddil mahalının sultanı olmuşdur.

Abdı bəyin Əli bəy adlı oğlu var idi. Əli bəy də sultan titulu almışdı. O, 1761–1797-ci illərdə Şəmşəddil mahalının başçısı olmuşdur.

*Şəmşəddil mahalının kəndləri:*

1. Öksüzlü kəndi
2. Göycəli kəndi
3. Bəyazidli kəndi
4. Tatılı kəndi
5. Əlibəyli kəndi
6. Quşçu kəndi
7. Azaplı kəndi
8. Bayramlı kəndi
9. Cırdaxanlı kəndi
10. Hətəmağalı kəndi
11. Haqverdibəyli kəndi
12. Səmədbəyli kəndi
13. Xatunlu kəndi
14. Bozalqanlı kəndi
15. Şərifbəyli kəndi
16. Qırıxlı kəndi
17. Dügərli kəndi
18. Çuğullu kəndi
19. Morul kəndi
20. Əyyublu kəndi
21. İrmaşlı kəndi
22. Tomaxlı kəndi
23. İbrahimhacılı kəndi
24. Əbülbəyli kəndi
25. Xılxına kəndi

Bir çox mənbələr, o cümlədən Avqust fou Qastqauzen və Firudin bəy Köçərli Şəmsəddil mahalının əhalisinin əsas məşğuliyyət sahələri haqqında məlumat vermişlər.[1]

Avqust fou Qastqauzen XIX yüzillikdə Azərbaycanda olmuşdur. O, yazırdı: «Yelizavetpol qəzasının Şəmşəddil dairəsində … tatarlar (azərbaycanlılar) məskundur. Tatarlar çoxdurlar və varlı ərazilərdə yaşam sürürlər».

Firudin bəy Köçərli «Köçərilərin obya və əhvalı» məqaləsində Şəmsəddil mahalının əhalisinin əsas məşğuliyyəti haqqında yazmışdır.[2]

**Dəmirçili oymağı.** Dəmirçili Zülqədər elinin oymaqlarından biridir. Oymağın yayıldığı ərazilər bunlardır: Qəhrəmanmaraş, Malatya, Toqat və Çorumdakı bir çox kəndlər, Azərbaycan, Gürcüstan və İran. Əfşar elinin Salmanlı oymağında da onların yaşadıqları söylənilir.

Diyarbəkir və Urfadakı bir çox məskənlərə Dəmirçi oymağının adı verilmişdi.

Dəmirçili oymağı Ağqoyunlu tayfa ittifaqına da qatılmışdı. XVI əsrdə Dəmirçili oymağının bir qolu Əlbistan, Pınarbaşı, Tarsus və Qanqalda yerləşmişdi. Dəmirçilinin bir hissəsi Zülqədər elinin tərkibində Səfəvi dövlətinə qatılmışdı. Müasir dövrdə onlar Güney Azərbaycanda Şahsevənlərin içində və Şimali Azərbaycanın Qazax bölgəsində yaşayırlar.

Səfəvilər dövlətində mühüm rol oynayan Zülqədəri oymaqlarından biri Dəmirçili olmuşdur. I Şah Abbasın hakimiyyəti dövründə Fars bəylərbəyi olmuş Bünyad bəy bu oymaqdan idi[3].

Dəmirçili oymağının Anadoludakı yurdları Zülqədər bəyliyinin torpaqlarındadır. Bunlardan ən məşhuru Əlbistan obasındakı Dəmirçilik qəsəbəsidir. Dəmirçilik XVI yüzillikdə 17 nəfərlik bir kənd olmuşdur[4].

Dəmirçili camaatı Hurman nahiyəsinin Öyücek Ördəklü, Kürtünlü (dən Atlixanlı), Kalacık Kaya, Qaracaviran kəndlərində, Zamantı qəzasının Hınzırı nahiyəsinin Tərsaxan, Qaynar Pınar, Sarımbəy Viranı (keçmiş adı Əbulxeyr qışlağı) kəndlərində yaşayırdı[5].

---

[1] Барон Август фон Гастгаузен. Закафгазский край. Санкт-Петербург, 1857, стр. 155.

[2] Firudin bəy Köçərli. Seçilmiş əsərləri. – Bakı, 1963, səh. 229.

[3] Faruq Sümer. Səfəvi dövlətinin qurulmasında və genişlənməsində Anadolu türklərinin rolu. – Ankara, 1976, səh. 180.

[4] R.Yinanç, M.Eliböyük. Maraş Tahrir Dəftəri. C. 1–2, – Ankara, 1988. səh. 573.

[5] Yenə orada, səh. 657, 661, 675, 677, 802, 803.

Bundan başqa, Karahayıt nahiyəsindəki Geçit Höyüğü kəndində 12 nəfərlik bir Dəmirçili obası vardı[1].

Dəmirçi əhalisinin ilk yaşadıqları yer, Urfa-Viranşəhir, Ələvi ərənlərin qışlaq kəndlərinin çox olduğu istiqamətdə idi. Burada Dəmirli Viranı, Dəmirli Ülya, Dəmirli Süfla kimi yerlər onların adı ilə adlanmışdı[2].

Dəmirçi əhalisi Ağqoyunlu dövlətinin mövcudluğu dövründə də mühüm rol oynamışdır. Ağqoyunlu sərkərdələrindən Şeyx Məhəmməd Dəmirçi və Əli bəy Dəmirçi bu oymaqdandı[3].

Müasir dövrdə Dəmirçilərin bir hissəsi Malatyanın Kuluncak rayonunun Tərsaxan (yeni adı Qonaqtəpə) kəndində yaşayır. Bunlardan ayrılan bir hissə Qeysərinin (Kayseri) Sarıoğlan rayonunun Karaözü qəsəbəsində, başqa bir qrup isə Malatyanın Həkimxan rayonunun Cüzüngüt (yeni adı Gözəlyurd) qəsəbəsinin Çermik məhəlləsində yaşayır.

Dəmirçili oymağının böyük tayfası Tatıoğludur. Sonralar bu oymaq Tatılı kimi tanınmışdı. Tatılı oymağı Dəmirçili oymağının tərkibindən çıxıb müstəqil olmuşdur.

[1] Yenə orada, səh. 177.

[2] M.Salih Erpolat. XVI Yüzyılda Diyarbekir Beylerbəyliğindeki Yer İsimləri. Basılmamış doktora tezi, s. 142.

[3] Əbu Bekr-i Tihrani. Kiyab-ı Diyarbəkriyyə. Sayı 217, çev. Mürsel Öztürk, səh. 117, 124.

# HƏSƏNSU NAHİYƏSİ

Nahiyənin sahibləri: Sadıq bəyin oğlu Kərbəlayı Şahnəzər bəy Şahnəzərov (Tatılı), Mehdixan bəyin oğlu Nəsib bəy Sultanov, Mehdixan bəyin oğlu Əsəd bəy Sultanov (Öksüzlü), Mehdixan ağanın oğlu Məhəmmədrza ağa Sultanov, Məhəmmədrza bəyin qızı Cəvahir xanım Sultanova, Mustafa ağanın oğlu Yaqub ağa, Əmiraslan ağa Sultanov, Məsih ağa Sultanov, Kərbəlayı Paşa ağa Sultanov, Həsən ağa Sultanov, Əhməd ağa Sultanov, Əhməd ağanın oğlu Hidayət bəy Sultanov, Əhməd ağanın oğlu Əbdül bəy Sultanov, Şəmşad ağa Sultanov, Süleyman ağanın qızı Xırda xanım Sultanova (Şəmşad ağanın həyat yoldaşı), Qasım bəy Sultanov, Eyyub ağa Sultanov, Kərbəlayı Tağı bəy Sultanov, Mehdi ağanın oğlu Mədət ağa Rüstəmbəyov (Əlibəyli), Mustafa ağanın oğlu Şəmşad bəy Rüstəmbəyov, Kərbəlayı Baba bəy, Mehdi ağanın oğlanları Kərbəlayı Həsən ağa və Nağı bəy, Sadıq bəyin oğlu Əhməd ağa, Paşa bəyin oğlu Xankişi bəy Sultanov, Mirzəli ağa Sultanov, Məmməd ağanın oğlanları Nadir bəy və Tağı bəy, Nadir ağa İbrahim ağa oğlu, Kazım ağanın oğlanları Mülü ağa və Məmməd ağa, Qəhrəman ağanın oğulları Əsədulla ağa və Museyib ağa, Əli ağanın oğlu Vəli ağa, Məhəmmədhüseyn ağanın oğlu Vəli ağa, Məhəmmədhəsən ağanın oğlu Allahyar ağa, Hüseynxan ağanın qızı Anaxanım xanım Rüstəmbəyova, Səfixan ağanın oğlu Hüseynxan ağa, Tağı bəyin oğlu Nəsir ağa, Hüseynqulu ağanın oğlanları Nəbi ağa və Süleyman ağa Qacarovlar, Kərbəlayı İsmayıl ağanın oğlanları Əsgər ağa, Xanbuta ağa, Ağabala ağa, Əlibala ağa Qacarovlar, Nağı bəyin oğlu Hüseynqulu ağa Qacarov (Əlibəyli), Ağa bəyin oğlanları Məmməd ağa və Məhəmmədrza ağa Qacarovlar (Əlibəyli).

Nahiyəyə bu sahələr daxil idi: Bez düzü, Zamba qaya, Sarı qışlaq, Xara yataq, Polutlu dərəsi, Xası-Dərəbaşı, İydəli.

Nahiyədə aşağıdakı arxlar olmuşdur: Govur arxı, Qarabörk arxı, Saray arxı, Kəngirmə arxı, Gödək arx, Bəyazidli arxı, Bazarmud arxı[1].

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı, 2000, səh. 228, 233.

# TATILI

## Tatılı oymağı

Tatılı oymağı Zülqədər elinin Dəmirçili oymağından ayrılıb. Öz adını **Tatı bəy** Dəmirçilinin adından götürüb.

Tatıoğlu oymağı – hələ XI yüzildən bəllidir. Türkiyənin Afyon vilayətinin Dazkırı rayonunun Aşağıyengicə kəndinin əhalisi Böyük Səlcuq imperiyası dövründə Adana tərəfdən gələrək yerləşən Farsı (Varsaq) elinin və alay qüvvələrində olan Tatıoğlu əyanlarının törəmələridir.

Farsak əyanları ilə qaynayıb-qarışan Tatıoğlu əyanlarından bir qol Başmakçıya, bir qol da Yuxarı Yericəyə keçərək orada məskunlaşmışdılar. Əvvəllər yaylaq yeri olan Yuxarı Yenicə sonralar böyük bir kəndə çevrilmişdi.

Tatılı oymağının tanınmış əmirlərindən biri **Əli bəydir.** Əli bəy I Şah Təhmasibdən sultan titulu almışdı. 1552-ci ildən Məşhədin hakimi olmuşdu.

II Əli sultan 1556-cı ildə Farsın bəylərbəyi təyin olunmuşdur. İbrahim xan Hacılar-Zülqədər 1556-cı ildə Gərmsir şəhərinin kələntəri Əmir Şəmsəddin Şəhriyar Cöhrəmini kor etdiyinə görə, şah tərəfindən tutularaq işdən çıxarıldıqdan sonra Şirazın idarəsi Əli sultana verildi. Şahrux bəy atası müqəddəs Məşhəddən Şiraza gələnə qədər Şiraz hökümətini idarə etdi»[1].

**Əli sultanın Şahrux bəy adlı oğlu var idi.**

Şahrux bəy şahdan əvvəlcə sultan, sonra xan titulu almışdı.

Osmanlı sultanı III Murad (1574–1585) vəziri Sinan paşanı Şirvana yürüş edəcək ordunun komandanı təyin etmişdi. Sinan paşa yürüşdən əvvəl öz elçisindən Səfəvi sarayına məktub göndərmişdi.

Qızılbaş əmirləri, xüsusilə də, Şahrux xan möhrdar, özlərini Osmanlı dövlətinin ordusuna qarşı dura bilməkdə kifayət qədər güclü hiss etmirdilər. Onlar öz aralarında birliyin olmamasını dərk edərək məyus oldular.

Şahrux xan 1583-cü il hadisələrində mühüm rol oynamışdı. Möhrdar vəzifəsində xidmət edirdi.

Şahrux xan qızılbaş əmirlərinin içində sayılan, seçilən bir şəxsiyyət idi.

[1] Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Təkmilətül-əxbar, Bakı, 1996, səh. 104.

Şahrux xanın 1586-cı ildə Təbrizdə osmanlılara qarşı döyüşdə öldürülməsi ilə bağlı İsgəndər bəy Türkmən yazır: «Qala uğrunda döyüşlərdə qızılbaşlar özlərinin ən qabiliyyətli sərkərdələrindən birini – Zülqədər elinin başçısı Şahrux xan möhrdarı itirdilər. Qiyamçı türkmən və Təkəli əmirləri gəlib çıxanadək qalanı ələ keçirməyə cəhd göstərən Şahrux xan ehtiyatsızlıq etmiş, kiçik bir dəstə ilə qala divarlarına yaxınlaşmışdı. Bu vaxt türk dəstəsi gözlənilmədən qaladan çıxmış və Şahrux xan yaralı halda əsir götürülərək öldürülmüşdür»[1].

**Şahrux xanın Əsləməs bəy, Təhmasibqulu bəy adlı oğlanları vardı.**

Əsləməs bəy şahdan sultan və xan titulları almışdı.

1586-cı ildə atası öləndən sonra Əsləməs xan şah tərəfindən möhrdar vəzifəsinə təyin edilmişdir.

Əsləməs xanın möhrdarlığı ilə Əliqulu sultan Zülqədər barışa bilmirdi. O, babası Şahqulu xəlifə Qurğulunun möhrdar olmasını əsas gətirib, bu vəzifəni özünün qanuni haqqı bilirdi. Şaha və vəkilinə müraciət edib, möhrdarlıq vəzifəsinin ona verilməsini istədi. Məşvərət zamanı Qarabağ və Fars zülqədərləri Əsləməs xanı müdafiə etdilər. Zülqədər eli içinə nifaq düşsə də əmirlər el ağsaqqalları tərəfindən barışdırıldı.

Əsləməs xanın oğlu **Şahsuvar xan** Səfəvi hökmdarı II Şah Abbasın hakimiyyəti dövründə Həsənsu nahiyəsinə köçmüşdü.

Şahsuvar xanın oğlu **Şahnəzər bəy** Həsənsu nahiyəsinin Tatılı kəndində anadan olmuşdu.

Şahnəzər bəyin oğlu **II Əsləməs bəy** də Həsənsu nahiyəsinin Tatılı kəndində doğulmuşdu.

**II Əsləməs bəyin Əhməd bəy, Gülməhəmməd bəy adlı oğulları olmuşdur.** Əhməd bəy Həsənsu nahiyəsinin Tatılı kəndində dünyaya gəlmişdi. Mədrəsə təhsili almışdı. El-obalarının dini işləri ilə məşğul olan Əhməd bəy el içində «Mola Əhməd» kimi tanınırdı.

Molla Əhmədin **Şahnəzər bəy** (II Şahnəzər bəy) adlı oğlu var idi. Şahnəzər bəyin də **Məmmədrza bəy** adlı oğlu olmuşdur.

Şahrux xanın ikinci oğlu Təhmasibqulu bəy əvvəlcə şah Məhəmməd Xudabəndəyə, sonra isə I Şah Abbasa xidmət etmiş, ondan sultan titulu almışdı.

[1] İsgəndər bəy Türkmən (Münşi). Tarix-i aləm aray-i Abbasi. 1-ci cild, 2-ci cildin yarısı, Tehran, 1382, səh. 282.

XVIII yüzilliyin əvvəllərində Tatılı oymağının camaatı Həsənsu nahiyəsinin Tatılı, Aşatan, Köçəsgər, Əmirqulu, Mikayıllı, Yarabdallı, İmamqulubəyli, Qonaqgörməz kəndlərində qışlayır və əkin-biçinlə məşğul olurdu[1].

Sonralar Tatılı oymağının ("Tatılı" sözü son yüzillikdə transkripsiya dəyişikliyinə uğramışdır, "Tatlı" kimi işlənir) bəyləri Bəyazidli kəndinin torpaqlarını da ələ keçirmişdilər.

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, səh. 228 – 233.

## Tatılı oymağının şəcərəsi



Tatılı oymağı Şəmşəddilli adlanan mahalda bir neçə kənd salmışdı. Tatılı kəndi Tatılı, Yarabdullu, Köhnəqışlaq, Köçəsgər torpaqlarından ibarət idi.

Sovet dövründə antitürk əhval-ruhiyyəsi hökm sürdüyündən Azərbaycanın türk mənşəli Tatılı obasının tarixi də elmi araşdırmalardan kənarda qalmışdır. Məhz bu səbəbdən Azərbaycan tarixşünaslığında «Tatılı obası»nın tarixi ilə bağlı bir-birindən fərqli, müxtəlif izahlara rast gəlinir.

Azərbaycan tarixi dərsliklərində, eləcə də Salman Nəcəfovun «Kaspi» qəzetində çap olunmuş «Adını mən qoydum» məqaləsində «Tatılı kəndinin adı Sasanilər dövründə imperiyanın şimal sərhədlərini qorumaq üçün buraya köçürülmüş tayfaların adı ilə bağlanır»[1].

Tofiq Əhmədov «El-obamızın adları» kitabında Tatılı (hazırda Ağstafa rayonunun ərazisində kənd) kəndinin adı XIX əsrdə Cənubi Azərbaycandan buraya əkinçiliyə gəlmiş adamlarla əlaqələndirilir. Müəllifin fikrincə, «tat», yəni «yadyerli», «yadelli», «özgə tayfa» və s. deməkdir[2].

N.A.Abelova görə isə «maldarlıqla məşğul olan yerli əhali döyüm vaxtı Cənubi Azərbaycandan «tat» adlanan biçinçiləri dəvət edirdilər. Onların müəyyən hissəsi yerli əhali ilə nigaha girərək, burada yaşamağa qalırdılar.

Türkiyə və Cənubi Azərbaycan mənbələrində Tatılı kəndinin adının yaranması ilə bağlı aşağıdakı mülahizələr verilir.

«Tatılı» oymağı XI yüzillikdən məlumdur. Türkiyənin Ayfan vilayətinin Daykırı rayonunun Aşağıyendicə kəndinin əhalisi Böyük Səlcuq dövləti dövründə burada məskunlaşan Farsaq (Varsaq) elinin və alay qüvvələrində olan Tatıoğlu əyanlarının törəmələridir.

«Farsaq əyanları ilə qaynayıb-qarışanTatıoğlu əyanlarından bir qol Başmakçıya, bir qol da Yuxarı Yenicəyə köçərək orada məskunlaşmışlar. Əvvəllər yaylaq yeri olan Yenicə, sonralar böyük bir kəndə çevrilmişdir.

Bu gün Dəmirçi deyilən Tatdəmirçi kəndi 2300 nəfərdən ibarət böyük bir yaşayış məskənidir. Pəltək bir Tatıoğlu əyanı ailəsi ilə burada yerləşmiş, qılınc və mizraq düzəltməyə başlamışlar. Məskunlaşdıqları yerə də o, öz adını vermişdir»[3].

---

[1] «Kaspi qəzeti». 18 fevral 2009-cu il.

[2] Tofiq Əhmədov. El-obamızın adları. Bakı, 1984, səh. 78.

[3] İsgəndər bəy Türkmən (Münşi). Tarix-i aləm aray-i Abbasi. Tehran, 1382, 1-ci cild, 2-ci cildin yarısı, səh. 261–262.

Sultan Süleyman Qanuninin dövründə (1520–1565) ən çox əhalisi olan oymaqlardan biri Tatılı (Tatalu) oymağı olmuşdur. Qaynaqlarda 40 oymaq arasında 25-ci sırada yer alan Tatılı oymağının 177 evinin vergi verdiyi qeyd olunmuşdur. Sultan III Muradın dövründə isə Tatılı oymağında cəmi 10 vergi verən ev qeydə alınmışdır[1].

Tatılı oymağının adındakı «Tat» deyil, «Tatıdır». Bu ad Zülqədər elinin Dəmirçili oymağının başçılarından olmuş Əli bəy Tatıoğlunun soyundan gəlmədir. Dəmirçili oymağının böyük tayfalarından biri «Tatıoğlu» adlanırdı. Tatıoğlu tayfası güclənərək Dəmirçili oymağının tərkibindən ayrılıb, müstəqil olmuşdur[2].

Görkəmli türk tədqiqatçısı Əli Sinan Bilgilinin «Azərbaycan türkmənləri tarixi» adlı məqaləsində Şeyx Heydərin dövründə Maraş torpaqlarından bir çox türkmənin Şimali Azərbaycana köçdükləri əsaslı şəkildə qeyd olunur. O bildirir ki, Şimali Azərbaycanın Qarağac (hazırkı Ağcabədi), Gəncə, Xoy, Aran, Dağıstanın sərhəd rayonlarında yaşayan türkmənlər Zülqədəroğulları adı ilə tanınır[3].

Bəzən də Tatılı oymağının I Təhmasibin hakimiyyəti dövründə (1524–1576) Fars əyalətindən Qarabağ əyalətinin Şimal hissəsinə (Şəmkir, Tovuz və Ağstafaya 1531-ci ildə) köçürüldüyü qeyd olunur.

İ.P.Petruşevskiyə görə isə 1605-ci il mayın 10-da Əli sultan Şəmşəddilli Zülqədər I Şah Abbasdan (1587–1629) Şirvanda ölkə almışdır. O, bu ölkəni irsən övladlarına vermişdir[4].

Köhnəqışlaq kəndində Qabaqtəpə, Atamoğlanlar və başqa sahələr Şahnəzərovların idi.

[1] Erhan Afyoncu. Ulu Yörük (1495–1574). Anadoluda və Rumelidə Yörükler və Türkmenler sempozyumu Bildirileri. – Ankara, 2000, səh. 5, 6, 7.

[2] Faruq Sümer. SDAKTR. səh.180.

[3] Ali Sinan Bilgili. Azerbaycan türkmenleri tarihi. Türkler özel sayısı. Ankara, 2002, Cilt 7, səh. 22.

[4] И.П.Пертушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Ленинград, 1949.

## Tatılı oymağının əhalisi

XVIII əsrin 20-ci illərində Gəncə–Qarabağ ətrafı Osmanlı dövlətinin tərkibinə daxil olduğu zaman əhalinin vergi ödəyən hissəsi siyahıya alınmışdı (1727-ci il). Həmin siyahıda Tatılı camaatı da var idi.

Tatılı camaatı bəylərbəylik dövründə Həsənsu və Tavus nahiyələrindən ibarət idi. Qaynaqlarda həmin dövr Tatılı camaatı haqqında müəyyən məlumat var. Məlumatlardan aşağıdakıları göstərmək olar.

Məskəni – Həsənsu nahiyəsi, əhalisi Tatılı camaatı olan Aşatan kəndi.

Gəlir:

Bennak (əkin sahəsi yarım çift və ya ondan az olan evli rəiyyət) və subay vergisi – 40 ağça (1328 – 1687-ci illərdə Osmanlı imperiyasında dövriyyədə olmuş gümüş pul. 1687-ci ildə ağçanın yerinə 120 ağça dəyərində olan «quruş» dövriyyəyə buraxılmışdır. Bu dövrdən başlayaraq, maliyyə işlərində «ağça» sadəcə hesablama vahidi kimi istifadə edilmişdir[1]).

Buğda-...tağar (192 kq. Bərabər olan çəki vahidi) – 2.000 ağça.

Arpa-...tağar – 1.000 ağça.

Darı-...tağar – 500 ağça.

Pambıq vergisi – 500 ağça.

Bostan vergisi –160 ağça.

Gəlinlik vergisi – 200 ağça.

Kərəyağı vergisi – 300 ağça.

Əkin yeri üçün tapu (rəiyyət üçün ömürlük verilən əraziyə sahibliyini təsdiq edən sənəd) –150 ağça.

İşlənmiş günah və törədilmiş cinayət üçün –150 ağça.

Yekun: 50.000 ağça[2].

---

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, səh. 571

[2] Yenə orada, səh. 228.

Həsənsu nahiyəsinə daxil olan, əhalisi Tatılı camaatından ibarət Köçşəkər kəndi. Əhalinin əsas məşğuliyyəti – əkinçilik.

Gəlir:

Buğda -...tağar – 2.000 ağça.

Arpa -…tağar – 1.500 ağça.

Darı -...tağar – 680 ağça.

Pambıq -…batman – 500 ağça.

Əkin yeri üçün – 160 ağça.

Yekun: 5.000 ağça[1].

Məskəni – Həsənsu nahiyəsi, əhalisi Tatılı camaatı olan Tatılı kəndi.

Əsləməs oğlanları – Molla Əhməd (Əhməd bəy) və Gülməhəmməd, Molla Məhəmmədin oğlu Tağ, Paşa oğlu Bayram, Bayram oğlu Dünyamalı, Ağalının oğlanları – Aşur və Hökməli.

Məhəmmədin oğlu Əhməd, Əhmədin oğlanları – Dünyamalı və Məhəmmədəli, Aşurun oğlanları – Qədir və Dünyamalı.

Əlinin oğlu Hökməli, Əmirin oğlu Yusif, Yusifin oğlu Zaman, Məhəmmədəlinin oğlu Şərif, Əliməhəmmədin oğlu Mukim, Mukimin oğlu Məhəmməd.

Əlinin oğlu Bədiyar, Bədiyarın oğlu Seyid, Əlinin oğlanları – Murğuzəli və Haqverdi, Xəlilin oğlu Çoban, Əlinin oğlu Zamanqulu.

Gəlir:

Bennak və subay vergisi – 960 ağça.

Buğda -...tağar – 15.000 ağça.

Arpa -...tağar – 3.000 ağça.

Darı -...tağar – 2.000 ağça.

Pambıq vergisi – 4.000 ağça.

3 dəyirman – 720 ağça.

İpək vergisi – 4.000 ağça

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, səh. 229.

Üzüm bağları daxil olmaqla bağ vergisi – 175 dönüm. Bir dönüm 24 ağçadan olmaqla 4.200 ağça.

Bostan və tərəvəz vergisi – 600 ağça.

Çöldə olan bostan üçün vergi – 380 ağça.

Əkin yeri üçün tapu – 100 ağça.

İşlənmiş günah və törədilmiş cinayət üçün 100 ağça. Yekun: 32.000 ağça[1].

Həsənsu nahiyəsində Əmirqulu kəndi. Bu kəndin də əhalisi Tatılı camaatındandır.

Əmirqulunun oğlanları Şərif, Haqverdi və Vəli, Vəlinin oğlanları – Qoca və Gülməhəmməd, Əvəzin oğlu Həsən.

Vəlinin oğlu Vəli, Vəlinin oğlu İbrahim, Seyfinin oğlu İlyas, Qaranın oğlanları – Məhəmməd və Maşallah, Məhəmmədin oğlu Mustafa, Mustafanın oğlu Əhməd, Əhmədin oğlu Əli, Mustafanın oğlu İsmayıl, İsmayılın oğlanları – Əmirəli və Məhəmməd, Məhəmmədin oğlu Əli.

Uğurlu oğlanları – Məhəmməd və Məhərrəm, Əlinin oğlu Ocaqqulu, Ocaqqulunun oğlanları – Əli və Vəli[2].

Gəlir:

Bennak və subay vergisi – 920 ağça.

Buğda -... tağar – 11.000 ağça.

Arpa -… tağar –3.420 ağça.

Darı -…tağar – 2.000 ağça.

İpək vergisi – 5 batman – 2.400 ağça.

Pambıq vergisi – 600 ağça.

Üzüm bağları daxil olmaqla bağ vergisi – 170 dönüm. Bir dönümü 24 ağçadan olmaqla 4.080 ağça.

2 dəyirman vergisi – 480 ağça.

---

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, səh. 229.

[2] Yenə orada, səh. 230.

Gəlinlik vergisi – 300 ağça.

Kərəyağı vergisi – 500 ağça.

Əkin yeri üçün tapu – 300 ağça.

Yekun: 26.000 ağça[1].

Həsənsu nahiyəsində və Mikayıllı və Yarabdallı kəndləri. Bu kəndlərin də əhalisi Tatılı camaatındandır.

Molla Hüseynin oğlu Molla Əbdi, Molla Əbdinin oğlu Hüseyn, Əlinin oğlanları – Süleyman və Musa, Musanın oğlu Gülməhəmməd, Süleymanın oğlu Məhəmməd.

Mustafanın oğlu Əbdi, Əbdinin oğlu Mustafa, Mustafanın oğlu Məhəmməd, Nəqdəlinin oğlu Molla Vəli.

Peykanın oğlanları – Əliqulu və Tağı, Tanrıverdinin oğlanları – Həsən və Baba, Kosaların oğlanları – Gülməhəmməd və Xanməhəmməd, Mirzəəlinin oğlu Əmirmahmud, Əmirmahmudun oğlu Məhəmməd.

Sərdarın oğlanları – Ələmqulu və Sofi, Vəlinin oğlu Əliqulu, Allahqulunun oğlu Pirqasım, Danəlinin oğlu Yusif, Yusifin oğlanları – Danəli və Qırzəli, Murğuzun oğlu Məhəmmədvəli, Məhəmmədvəlinin oğlanları – Məhəmməd və Əminəli, Pirinin oğlanları – İbrahim və Vəli.

Əhmədin oğlu Yaqubəli, Vələdin oğlu Nağı, Əlinin oğlu Mövlaqulu, Hacı Yusifin oğlu Hacı Əhməd, Məhəmmədin oğlu Xəlil, Məhəmmədin oğlu Yaqub.

Nəqdinin oğlu Həsən, Lütfəlinin oğlu Vəli, Haqnəzərin oğlu Hüseynəli, Əlinin oğlu Rzaqulu.

Gəlir:

Bennak və subay vergisi – 1.600 ağça.

Buğda -… tağar – 10.640.

Arpa -…tağar – 5.000 ağça.

Darı-tağar – 2.000 ağça.

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, səh. 230.

3 ding – 2.000 ağça.

Üzüm bağları daxil olmaqla bağ vergisi – 900 ağça.

Kərəyağı vergisi – 1.600 ağça.

Gəlinlik vergisi – 360 ağça.

Əkin yeri üçün tapu – 500 ağça.

İşlənmiş günah və törədilmiş cinayət üçün – 400 ağça.

Yekun: 25.000 ağça[1].

Həsənsu nahiyəsində və əhalisi Tatılı camaatı olan İmamqulubəy kəndi.

İmamaqulunun oğlu Əbdürrəhim, İbrahimin oğlu Məhəmməd, Məhəmmədin oğlanları İbrahim Əbdi və Əli, Həsənəlinin oğlu Gülməhəmməd, Gülməhəmmədin oğlanları Hökməli və Həsən, Tabunun oğlu Tanrıqulu, Tanrıqulunun oğlu Murtuzaqulu, Murtuzaqulunun oğlu Təhmasqulu, Yusifin oğlu Əliqulu.

Əmirhəmzənin oğlu Əmirhəmzə, Qurbanqulunun oğlu Dərgahqulu.

Gəlir:

Bennak və subay vergisi – 560 ağça.

Buğda -...tağar – 3.000 ağça.

Arpa -...tağar – 1.500 ağça.

Darı -...tağar – 440 ağça.

Pambıq vergisi – 620 ağça.

İpək üçün – 2,5 batman – 3.000 ağça.

5 dəyirman üçün vergi – 1.200 ağça.

Üzüm bağları vergisi – 20 dönüm – 480 ağça.

Bostan vergisi – 5 dönüm – 300 ağça.

---

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, səh. 230, 231.

Gəlinlik vergisi – 300 ağça.

Əkin yeri üçün tapu – 300 ağça.

İşlənmiş günah və törədilmiş cinayət üçün – 300 ağça.

Yekun: 12.000 ağça.

5 kənddən ibarət olan Tatılı camaatından əldə edilən gəlir: 80.000 ağça[1].

Həsənsu nahiyəsində və əhalisi Bəyazidli camaatı olan Bəyazidli kəndi.

Allahverdinin oğlu Şirin, Abbasın oğlanları – Məhəmmədəli və Ərzənəli, Həsənəlinin oğlu Məhəmmədəli, Əlinin oğlanları – Aşurəli və Tanrıverdi.

Hüseynəlinin oğlu Baba, Babanın oğlu Ağakişi, Möhsünəlinin oğlu Allahverdi, Allahverdinin oğlu Məhəmməd, Şahgəldinin oğlanları – Qırzəli və Məhəmmədhüseyn.

Məhəmmədhüseynin oğlu Şahgəldi, Xəlilin oğlanları – Əbdürrəhman və Sultanqulu, Allahqulunun oğlu Məhəmməd, Xəlilin oğlu Baba, Maqsudəlinin oğlanları – Həsən və Hüseyn, Həsənin oğlu Maqsudəli, Qaracanın oğlu Kosaəli, Kosaəlinin oğlu Qaraca, Aşurun oğlanları –Teymur və Əhmədəli.

Həsənin oğlanları – Qurban və Süleyman, Qurbanın oğlu Həsən, Əlinin oğlu Məhəmməd, Əmirin oğlu Qaraca, Qubadın oğlu Həsən.

Ağaxanın oğlu Əli, Almasın oğlu Almas.

Gəlir:

Bennak və subay vergisi – 1.280 ağça.

Buğda -...tağar – 26.000 ağça.

Arpa -...tağar – 15.000 ağça.

Darı -...tağar – 5.820 ağça.

Pambıq vergisi – 1.200 ağça.

Gəlinlik vergisi – 400 ağça.

---

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, səh. 231.

Kərəyağı vergisi –1.200 ağça.

Əkin yeri üçün tapu – 500 ağça.

İşlənmiş günah və törədilmiş cinayət üçün – 600 ağça.

Yekun: 52.000 ağça[1].

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, səh. 231.

## TOVUZ NAHİYƏSİ

Tatılı camaatından bir qol da Tavus nahiyəsində yaşayırdı. Tavus nahiyəsində və əhalisi Aran Tatılı camaatı olan Əlibəyli kəndi.

Məhəmmədin oğlanları – Musa və Həsən, Əhmədin oğlu Bağır, Bağırın oğlu Əhməd, Əhmədin oğlu Tağı, Rüstəmin oğlu Məhəmməd.

Ziyanın oğlanları – Məhəmməd və Şəkər, İsanın oğlu Bayram, Nəzərin oğlu Rza, Lələ Seyid Qasımın oğlu, Əlinin oğlu Vəli.

Əlinin oğlu Cənnət, Nəqdəlinin oğlu İmamqulu, İmamqulunun oğlu Nəqdəli[1]:

Gəlir:

Bennak və subay vergisi – 15 nəfər – 600 ağça.

Buğda -...tağar – 2.000 ağça.

Arpa -...tağar – 1.000 ağça.

Darı -...tağar – 560 ağça.

İpək üçün – 1 batman –1.200 ağça.

Üzüm bağ vergisi – 20 dönüm. Bir dönümün 24 ağcadan olmaqla 1440 ağça.

Pambıq vergisi – 300 ağça.

Kərəyağı vergisi – 200 ağça.

Yaylaq vergisi – 120 ağça.

Gəlinlik vergisi – 300 ağça.

2 dəyirman üçün vergi – 240 ağça.

Bostan və tərəvəz vergisi – 200 ağça.

Əkin yeri üçün tapu – 300 ağça.

İşlənmiş günah və törədilmiş cinayət üçün – 300 ağça.

Yekun: 9.000 ağça[2].

---

[1] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Bakı, 2000, səh. 241.

[2] Yenə orada.

*Tatılı mülkədarları:*

**1851-ci il**

1. Əmirqulu bəy praporşik Əli bəy oğlu
2. Yusif ağa Məmmədəli ağa oğlu
3. Nağı ağa Məmmədəli ağa oğlu
4. İsmayıl ağa Məmmədəli ağa oğlu
5. Nağı ağa Məmmədrəhim ağa oğlu
6. Qasım ağa Məmmədrəhim ağa oğlu
7. Məmmədrza ağa Məmmədrəhim ağa oğlu
8. Mehdi ağa Məmmədrəhim ağa oğlu
9. Sadıq bəy Kərim ağa oğlu

**1895-ci il**

1. Şahnəzər ağa Sadıq bəy oğlu Şahnəzərov
2. Kərim ağa Kazım ağa oğlu Əvəzov
3. İsgəndər ağa Rəhim ağa oğlu Əvəzov
4. Mehdi ağa Məmmədrəhim ağa oğlu Şahnəzərov
5. Qəhrəman ağa Kazım ağa oğlu Şahnəzərov
6. Məhəmməd ağa Usub ağa oğlu Şahnəzərov
7. Abbas ağa Əsgər ağa oğlu Şahnəzərov
8. Mehdixan ağa Rəhim ağa oğlu Əvəzov
9. Gövhər xanım Əli bəy qızı
10. Şamama xanım Əli bəy qızı

**1908-ci il**

1. Mustafa ağa Həsən ağa oğlu Şahnəzərov
2. Camal ağa Həsən ağa oğlu Şahnəzərov
3. Ağa bəy Həsən ağa oğlu Şahnəzərov

4. Göyçək xanım Baba ağa qızı Şahnəzərova
5. Güləndam xanım İsmayıl ağa qızı Şahnəzərova
6. Abbas ağa Əsgər ağa oğlu Şahnəzərov
7. Bibixanım xanım Əsgər ağa qızı Şahnəzərova
8. Fatma xanım Əsgər ağa qızı Şahnəzərova
9. Şəhla xanım Əli bəyin dul arvadı Şahnəzərova
10. Şamama xanım Əli bəy qızı Şahnəzərova
11. Gövhər xanım Əli bəy qızı Şahnəzərova
12. Mustafa ağa Nağı ağa oğlu Knyazev
13. Süleyman ağa Nağı ağa oğlu Knyazev
14. Ağa bəy Qasım ağa oğlu Knyazev
15. Xankişi bəy Qasım ağa oğlu Knyazev
16. Böyükxanım xanım Qasım ağa qızı Knyazeva
17. Məmmədrza ağa Rəhim ağa oğlu Knyazev
18. Mehdi ağa Rəhim ağa oğlu Knyazev
19. İsgəndər ağa Rəhim ağa oğlu Əvəzov
20. Mehdixan ağa Rəhim ağa oğlu Əvəzov
21. Kazım ağa Rəhim ağa oğlu Əvəzov
22. Mustafa ağa Rəhim ağa oğlu Əvəzov
23. Kərim ağa Əvəzov

*Tatılı oymağının məhəllələri:* Həsənağalı, Mehdiağalı, Aşırlı, Rzalı, Şəmmədli, İsgəndərli, Əlləzlər, Ağamalılar, Muradlı, Niyazlı, Alfılılar, Baymalılar, Yasavullular.

# HƏSƏNAĞALI TAYFASI

II Şahnəzər bəyin törəmələri Şahnəzərov soyadını daşıyırdılar. Onun Məhəmmədrza bəy adlı oğlu var idi. Məhəmmədrza bəy Şəmşəddil mahalının Tatılı obasında anadan olmuşdu. Məhəmmədrza bəyin törəmələrindən bəziləri Məmmədrzayev soyadını daşıyırdılar.

**Məhəmmədza ağanın Kərim bəy, Məmmədrəhim bəy, Kazım bəy, Yusif bəy, Əsgər bəy adlı oğulları vardı.**

Kərim bəy Şəmşəddil mahalının Tatılı obasında doğulmuşdu. Onun Rəhim bəy adlı oğlu var idi. Rəhim bəy 1761-ci ildə Şəmşəddil mahalının Tatılı obasında doğulmuşdur. Onun da Sadıq bəy adlı oğlu var idi.

Sadıq bəy 1783-cü ildə Şəmşəddil mahalının Tatılı obasında dünyaya gəlmişdi. Mülkədar idi.

Sadıq bəyin Şahnəzər bəy adlı oğlu olmuşdur. III Şahnəzər bəy 1811-ci ildə Şəmşəddil mahalının Tatılı obasında anadan olmuşdur. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi.

Kərbəlayı Şahnəzər bəy 1860-cı ildə Tatılı kəndinin mülkədarlarından biri idi. XIX əsrin II yarısına aid sənədlərdə Mehdixan bəy Şahnəzərov (bəzən Knyazov kimi qeyd edilir) və Yusif bəy Şahnəzərovun nəvəsi olduğu göstərilir[1]. 1883, 1896 və başqa illərə aid qeydlərdə də torpaq sahibkarları arasında göstərilir.

Kərbəlayı Şahnəzər bəyin Həsən bəy və Mehdi bəy adlı oğlanları var idi. Həsən bəy 1832-ci ildə Şəmşəddil mahalının Tatılı obasında anadan olmuşdu. Mülkədar idi. O, 1883-cü ildə Göycəli Mehdi Dəllək oğlu ilə bərabər Tiflis–Bakı dəmiryolunun Ağstafa stansiyasındakı köşkü dağıtmışdı. Burda işləyən erməni Xaçaturov ona sataşdığından o, bu işə vadar olmuşdu[2].

[1] MDTA, f. 23, opis 3, saxlama vahidi 23.

[2] MDTA, f. 183, siyahı 183-1, saxlama vahidi 1053.

Məhəmmədrza ağanın ikinci oğlu Məmmədrəhim ağa idi. O, Şəmşəddil mahalının Tatılı obasında anadan olmuşdu.

**Məmmədrəhim ağanın Nağı ağa, Qasım ağa, Məhəmmədrza ağa, Mehdi ağa adlı oğulları vardı.**

Nağı ağa, Qasım ağa, Məhəmmədrza ağa və Mehdi ağa Tatılı obasında anadan olmuşdu. Dördü də mülkədar idi.

Məhəmmədrza ağanın üçüncü oğlu Kazım ağa da (Qəhrəman ağa adlı oğlu olmuşdur), dördüncü oğlu Yusif ağa Qazax qəzasının Tatılı obasında anadan olmuşdu. Yusif ağanın Məhəmməd ağa adlı oğlu vardı, Qazax qəzasının Tatılı obasında doğulmuşdu.

Məhəmmədrza ağanın beşinci oğlu Əsgər ağa da Qazax sahəsinin Tatılı obasında anadan olmuşdu. Onun Abbas ağa adlı oğlu vardı, Qazax qəzasının Tatılı obasında doğulmuşdu.

**Əvəzovlar.** Tatılı obasının bu kəndlərinin də sayılıb-seçilən insanları olmuşdur. Onlardan aşağıdakıları göstərmək olar:

Rəhim ağanın Mehdixan ağa, İsgəndər ağa, Mustafa ağa adlı oğlanları var idi. Mehdixan ağa Qazax qəzasının Tatılı obasında doğulmuşdu.

Rəhim ağanın ikinci oğlu İsgəndər ağa Qazax qəzasının Tatılı obasında anadan olmuşdu. İsgəndər ağanın Mələk xanım adlı qızı var idi.

Rəhim ağanın üçüncü oğlu Mustafa ağa Qazax qəzasının Tatılı obasında anadan olmuşdu.

Kazım ağanın Kərim ağa adlı oğlu var idi. Kərim ağa Qazax qəzasının Tatılı obasında doğulmuşdu.

**Köhnəqışlaq kəndi.** Bu kəndin də əhalisi Tatılı oymağındandır.

Köhnəqışlaq kəndinin tayfaları bunlardır: Sədilər, Ağazeynallı, Gödəkəhmədli, Mazanlar, Qaraoğullar, Ustahasanlar, Xələflilər, Bəylələlilər, İsaxanlılar, Boşçalılar, Arpadərəlilər, Dəliabbaslılar, Dəmirxançallılar, Avdılar.

Qeyd edildiyi kimi, Tatılı oymağının Həsənağalı məhəlləsi və onun da həmin adda tayfası olmuşdur. Həsənağalı tayfası geniş şəcərəyə malikdir. Aşağıda Həsənağalı tayfasının şəcərəsini veririk. Şəcərənin bu şəkildə verilməsi əvvəldə göstərilənləri daha görümlü edir.

Həsən bəyin törəmələrindən bəziləri Həsənov soyadını daşıyırlar. Həsən bəyin Ağa bəy, Camal bəy, Mustafa bəy adlı oğulları, Qönçə xanım, Əbuhəyat xanım və Şükufə xanım adlı qızları var idi.

Ağabəy 1857-ci ildə Qazax qəzasının Tatılı obasında anadan olmuşdur. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi. Kərbəlayı Ağabəy 1907-ci ildə vəfat etmişdir.

Kərbəlayı Ağabəyin Ağalar bəy, Xankişi bəy adlı oğlanları, Cəvahir xanım və Qızxanım xanım adlı qızları var idi.

Ağalar bəy Ağabəy oğlu Məmmədrzayev 1886-cı ildə Qazax qəzasının Tatılı kəndində anadan olmuşdu. Qohumları Böyük ağa Mehdi ağa oğlu Knyazev və Məmməd ağa Əli ağa oğlu Əlibəyovla bərabər I Dünya müharibəsində iştirak etmişdir. Ağalar bəy cəbhədə həlak olmuşdur. Ağalar bəyin Aftaf adlı qızı var idi.

Kərbəlayı Ağabəyin ikinci oğlu Xankişi bəydir. Qazax qəzasının Tatılı kəndində anadan olmuşdur.

Xankişi bəyin Ağabəy, Balabəy, Zahid və Zabit adlı oğulları, Abutel xanım adlı qızı var.

Ağabəy 1927-ci il iyulun 1-də Ağstafa rayonunun Tatılı kəndində doğulub. 1948-ci ildə orta məktəbi bitirdikdən sonra Bakıda meşəçilik üzrə texnikumda oxumuşdur. 1960-cı ildə Tiflis Kənd Təsərrüfat İnstitutunun meşəçilik ixtisasına daxil olmuş və 1964-cü ildə təhsilini başa vurmuşdur. Qax, Gədəbəy, Şəmkir rayonlarında Meşə Təsərrüfatı İdarəsində işləmişdir. Hazırda Ağstafa rayonunun Vurğun qəsəbəsində yaşayır. Təqaüdçüdür. Ağabəyin beş övladı: Yaqut, Əminə adlı qızları, Hikmət, Camal və Elşən adlı oğlanları olmuşdur.

Xankişi bəyin ikinci oğlu Balabəy 1932-ci ildə Ağstafa rayonunun Tatılı kəndində doğulmuşdur. Onun 6 övladı var. Balabəy 2009-cu ildə dünyasını dəyişmişdir.

Xankişi bəyin üçüncü oğlu Zahid 1940-cı ildə Ağstafa rayonunun Tatılı kəndində doğulmuşdur. Hazırda Tatılı kəndində yaşayır. 6 övladı var.

Xankişi bəyin dördüncü oğlu Zabit 1943-cü ildə Ağstafa rayonunun Tatılı

kəndində doğulmuşdur. 1989-cu ildə dünyasını dəyişib. Bir qızı var.

Həsənova Abutel Xankişi qızı 1924-cü ildə Ağstafa rayonunun Tatılı kəndində anadan olmuşdur. Onun 6 övladı var. Təqaüdçüdür.

Həsən ağanın ikinci oğlu Camal ağa 1859-cu ildə Qazax qəzasının Tatılı obasında anadan olmuşdur. Xorasan torpağını, Məşhədi ziyarət etmişdi.

Məşədi Camal ağa Sona xanımla ailə qurmuşdur. İbrahim bəy, Valeh bəy adlı oğlanları vardır. Valeh bəy vəfat etmişdir. İbrahim bəy İkinci dünya müharibəsində iştirak etmiş və müharibə vaxtı itkin düşmüşdür.

Həsən ağanın üçüncü oğlu Mustafa ağa 1861-ci ildə Qazax qəzasının Tatılı obasında anadan olmuşdur. Müqəddəs Kərbəla torpağını ziyarət etmişdi. Kərbəlayı Mustafa ağanın törəmələri Mustafayev soyadını daşıyırlar.

Kərbəlayı Mustafa ağanın ilk evliliyindən Həsən ağa adlı övladı olmuşdur. Həyat yoldaşı vəfat etdikdən sonra o, ikinci dəfə Xuraman xanımla ailə qurmuşdur. Bu izdivacdan Kərbəlayı Mustafa ağanın Yusif bəy, Nəsib bəy, Əsəd bəy adlı oğlanları, Surə xanım, Xurşid xanım, Badisəfa və Xanım adlı qızları olmuşdur.

II Həsən ağa 1882-ci ildə Qazax qəzasının Tatılı obasında anadan olmuşdur. Həsən ağa Bilqeyis xanımla ailə qurmuş və bu izdivacdan İsrafil, Mehdi adlı oğlanları, Qönçə və Şükufə adlı qızları olmuşdur.

II Həsən ağanın oğlu İsrafil (Mustafayev soyadını daşıyırdı) 1906-cı ildə Tatlıda anadan olmuş və 1995-ci ildə dünyasını dəyişmişdir. Onun 5 övladı: Arif, Həsən, Nofəl, Rəşid adlı oğlanları və Solmaz adlı qızı vardır.

II Həsən ağanın qızı Qönçə xanım (Mustafayeva soyadını daşıyırdı) 1927-ci ildə Tatlıda anadan olmuş və 1960-cı ildə dünyasını dəyişmişdir.

Mehdi Həsən ağa oğlu 1914-cü ildə Qazax qəzasının Tatılı kəndində anadan olmuşdur. Sovet dövründə II Həsən ağanın bütün var-dövləti müsadirə olunmuşdur. Fiziki cəhətdən məhv edilməmək üçün Mehdi Mustafayev tərcümeyi-halında kəndli ailəsindən çıxdığını yazırdı. O, orta məktəbi Köçəsgər kəndində bitirmiş, 1931-ci ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunun üzümçülük fakültəsinə daxil olmuşdur. 1936-cı ildə ali təhsilini başa vurandan sonra

Şamaxı rayonuna üzümçülük üzrə baş aqronom təyin edilmişdir. Dörd il burada baş aqronom işlədikdən sonra o, 1940-cı ildə Şəmkir rayonunun Qarayeri sovxozuna direktor göndərilmişdir. Mehdi Mustafayev İkinci dünya müharibəsi dövründə dövlət tərəfindən İrana (Cənubi Azərbaycana) göndərilmişdir. Güney Azərbaycanda Calusun komendantı təyin edilmiş Mehdi Mustafayev orada ciddi nizam-intizam yaradılmasında böyük rol oynamışdır[1]. 1946-cı ildə Cənubi Azərbaycandan qayıtdıqdan sonra Azərbaycan Yeyinti Sənayesi və Kənd Təsərrüfatı Nazirliyinə şöbə rəisinin müavini təyin edilmişdir.

Mehdi Mustafayev 1946–1948-ci illərdə Tovuz rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləmişdir.

Mehdi Mustafayev Lenin ordeni ilə təltif edilmiş və Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. O, 1948-ci ildə Azərbaycan Meşə Təsərrüfatı naziri təyin olunmuş, 1954-cü ilə qədər həmin vəzifədə işləmişdir. Kənd Təsərrüfatı Nazirliyi ilə Meşə Təsərrüfatı Nazirliyi birləşəndən sonra isə Mehdi Mustafayev nazir müavini təyin edilmişdir.

Mehdi Mustafayev 1958-ci ildə Moskva Ali Partiya Məktəbini qiyabi oxumuş, 1960-cı ildən 1979-cu ilə kimi Meşə Təsərrüfatı Komitəsinin sədri vəzifəsində işləmişdir. O, bir neçə orden və medallarla təltif edilmiş, bir neçə çağırış Azərbaycan Ali Sovetinin deputatı olmuşdur.

Mehdi Mustafayev 1979-cu ildə vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

Mehdi Mustafayevin Mustafa adlı oğlu, Məleykə xanım, Rəna xanım adlı qızları var.

Mustafayev Mustafa Mehdi oğlu 1954-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1971-ci ildə Bakıdakı 190 nömrəli orta məktəbi bitirmişdir. Təhsilini Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitet) davam etdirmişdir. 1976-cı ildə əla qiymətlərlə təhsilini başa vuran Mustafa Azərbaycan Dövlət Baş yol Polisi İdarəsində əmək fəaliyyətinə

[1] Cəmil Həsənli. "Güney-Azərbaycan". Tehran–Bakı–Moskva (1939-1945). Bakı 1998, səh. 122–123.

başlamış, işlədiyi müddətdə inspektorluqdan yol rəisi vəzifəsinədək yüksəlmiş və polkovnik-leytenant rütbəsi almışdır. Onun Mehdi adlı oğlu və Leyli adlı qızı var. Mehdinin Kamil adlı oğlu var.

Hazırda o, Bakı şəhərində yaşayır və işləyir.

Mustafayeva Məleykə Mehdi qızı Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi Bakı şəhərində bitirmiş Məleykə Mehdi qızı, ali təhsilini Moskva Dövlət Universitetində davam etdirmişdir.

Məleykə xanım Azərbaycanın xalq yazıçısı Hüseyn Abbaszadənin oğlu İlqar Abbaszadə ilə ailə qurmuşdur. Ailə qurduqdan sonra o, həyat yoldaşının soyadını – Abbaszadə götürmüşdür. Bu izdivacdan onun Nigar və Nərgiz adlı qızları olmuşdur. Nərgizin Yoxim Azəri və Adilə Şirin adlı qızları var.

Məleykə xanım 1975-ci ildə SSRİ EA Hesablama mərkəzində tədqiqatçı, 1977-ci ildən 1987-ci ilədək Azərbaycan EA Kibernetika İnstitutunda elmi işçi vəzifəsində işləmişdir. O, 1988-ci ildə Ukrayna EA V.M.Qluşkov adına Kibernetika İnstitutunda namizədlik dissertasiyasını müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. 1987-ci ildən Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunda hesablama texnikası və informatika tədrisi üzrə müəllim vəzifəsində işləmişdir. 1989–1990-cı illərdə M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışmışdır.

1994-cü ildən Məleykə Mehdi qızı Abbaszadə TQDK-da sədr əvəzi vəzifəsində işləmişdir. 2000-ci ilin oktyabr ayından isə o, TQDK-nın sədri vəzifəsinə təyin olunmuşdur.

Məleykə xanım Abbaszadənin rəhbərliyi ilə TQDK 2000–2001-ci illərdə Mərkəzi Seçki Komissiyası ilə birlikdə Milli Məclisə seçkilərin avtomatlaşdırılmış informasiya sisteminin yaradılması və tətbiqində yaxından iştirak etmişdir. TQDK «İnformasiya, kommunikasiya texnologiyalarının inkişafı üzrə milli strategiyanın işlənib hazırlanması və ilkin mərhələdə həyata keçirilməsi» layihəsinin icraedici orqanı, TQDK-nın sədri – M.Abbaszadə həmin layihənin Milli koordinatoru təyin edilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2002-ci il 9 yanvar tarixli

sərəncamı ilə M.Abbaszadəyə layihəni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti verilmişdir.

Mehdi Mustafayevin ikinci qızı Rəna 1955-ci il oktyabrın 27-də Bakı şəhərində doğulmuşdur. 1972-ci ildə Bakıdakı 189 saylı məktəbi bitirdikdən sonra o, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (hazırkı BDU-nun) kimya fakültəsinə daxil olmuş və oranı müvəffəqiyyətlə bitirmişdir. Hazırda kimya elmləri doktoru olan Rəna xanım Azərbaycan Tibb Universitetində işləyir.

Rəna xanımın Emil və Rüstəm adlı oğulları var.

Qönçə xanımın yeganə övladı Yaqut Həsənova 1955-ci il sentyabrın 11-də Qax şəhərində anadan olmuşdur. O, 1972-ci ildə Ağstafa rayonunun Tatılı kəndində orta məktəbi bitirmişdir. 1976-cı ildə o, M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutuna qəbul olmuş və 1981-ci ildə institutu bitirmişdir. 1982 – 1989-cu illərdə ailə vəziyyəti ilə əlaqədar Özbəkistanda yaşamış və orada ixtisası üzrə rus dili və ədəbiyyatı müəllimi işləmişdir. Hazırda Bakıda yaşayır. Ailəlidir, 2 övladı, Bəxtiyar adlı oğlu və Dürdanə adlı qızı var.

II Həsən ağanın qızı Şükufə xanım (Mustafayeva soyadını daşıyır) 1928-ci ildə Tatlıda doğulmuş və hazırda Bakı şəhərində yaşayır. Onun Tahir və Mövsüm adlı oğlanları var. Tahirin Cəmilə adlı qızı və Cavid adlı oğlu, Cəmilənin isə İbrahim adlı oğlu və Nərgiz adlı qızı var. Mövsümün Anar və Emin adlı oğlanları, Anarın isə Kamil adlı oğlu var.

# ZÜLQƏDƏR BƏYLİYİNİN MEMARLIĞI

Zülqədəroğulları yaşadıqları dövrdə, demək olar ki, bütün iri şəhər və yaşayış məskənlərində müxtəlif məscidlər, mədrəsələr, saraylar, qalalar, körpülər tikdirmişlər. Zülqədəroğullarının ən məşhur məscidlərindən bir qismi haqqında ətraflı məlumat veririk.

**Adıyaman Ulu məscidi.** Əyalətin ən böyük məscidi olan Ulu məscid Adıyamanın mərkəzində və bazarın ortasında yerləşir. Qaynaqlara görə, Adıyaman və ətrafı XV və XVI yüzilliklərin müəyyən dövrlərində Zülqədərlərin idarəsində olmuşdur. Zülqədərlərlə bağlı olan Adıyaman Əlaüddövlə Bozqurdun (1480–1515) oğlu Duraq (Turak) bəy tərəfindən idarə edilirdi.

Məscidin inşası Duraq bəyin idarə etdiyi dövrə aiddir.

Ulu məscidin minarəsinin şərqə baxan üst tərəfindən tapılmış kitabələrdən aydın olur ki, məscid 1798–1854-cü illərdə bərpa edilmiş, 1873-cü ildə isə sökülərək əvvəlki formasında yenidən tikilmişdir. Ulu məscid 1902-ci ildə Mehmet Fevzi tərəfindən yenidən bərpa olunmuşdur[1]. Girişdəki taxta qapı Mehmet Fevzi tərəfindən düzəldilmiş son dərəcə gözəl bir sənət əsəridir.

Adıyaman Ulu məscidin XIX yüzillikdə qərbləşmə üslubuna uyğun xüsusiyyətləri varsa da, klassik milli memarlıq nümunələrindən biridir.

Klassik dövrün bir çox məscidlərində olduğu kimi, məscid mərkəzi plan sxeminə uyğun olaraq kvadrata yaxın, düzbucaqlı planlı olub, kəsmə daşdan və 4 dayağın üzərində tikilmişdir. Onun mərkəzi qübbə ilə örtülüdür. Bundan başqa, mərkəzi qübbənin 4 küncündə 4 kiçik qübbə saxlanmışdır. Orta qübbə olduqca hündürdür, məscidin biri şimala, biri qərbə və digəri şərqə açılan 3 qapısı vardır. Qərbdəki qapıdan 5 pilləli bir nərdivanla daxilə keçmək üçün istifadə olunur. Məscidin şimal girişinin qarşısındakı 4 sütunun üstündə çarpaz eyvan və namaz yeri vardır.

[1] Yard. Doç. Dr. Hamza Gündoğdu. Dulkadir Beyliği Mimarisi. – Ankara: Kültür Bakanlığı Yayınları, 1986, № 617.

Məscidin kvadrat bünövrəsi, silindrik gövdəli minarəsi şimal-qərb küncdə yerləşir.

**Baxça Ağca bəy məscidi.** Baxça rayonunun mərkəzində, Bələdiyyə meydanında yerləşir.

Ağca bəy məscidi bugünkü adını və şəklini 1809-cu ildə almışdır. Giriş qapısının üstündə sərt kirəç daşı üzərində yazılmış altı sətirlik kitabədən aydın olur ki, məscid köhnə abidənin yerində, türkmən ağalarından olan Ağca bəy tərəfindən yenidən tikilmişdir. Məsciddəki təmir-tikinti işləri Əli oğlu Qənbər tərəfindən görülmüşdür[1].

Ağca bəy və onun ailəsinin məzarı şəhər kənarındakı məzarlıqdadır.

Orijinal abidənin Zülqədəroğullarından və bu bəyliyin son böyük hökmdarı olan Əlaüddövlə Bozqurd bəy tərəfindən tikildiyi zənn edilir. Ancaq bunu təsdiq edən heç bir kitabə tapılmamışdır. Köhnə abidənin qalan tək hissəsi minarədir. Bu minarə Qəhrəmanmaraşdakı digər Zülqədər məscid minarələrinin memarlıq üslubuna uyğundur.

31x17m ölçülərində olan məscidin ətrafı şərqdən bir az əyri şəkildə, yanları isə cənubdan qapalı idi. Məscidin taxta sütunlu altı mehrabı vardır. Mehrabın ortasından içəriyə keçid verən əsl qapısının qərbində, aralarında minarə gövdəsinin də olduğu ikinci bir qapı yerləşirdi. Orijinal şəkli tamamilə pozulmuş olan məscidin içi taxta tavanla örtülmüş, çöldən isə üstü kirəmitli saçaqlı dik bir dam ilə müasir şəklə salınmışdır.

Ağca bəy məscidində də Qəhrəmanmaraşda Ulu məscidin (bax: səh. 142-yə) və Xatuniyə məscidinin (bax: səh. 146-ya) minarələrində olduğu kimi, qibləyə bir az çarpaz şəkildə yerləşdirilmiş minarəsi var və bu minarənin gövdəsi bugünkü şəklini sonradan aldığı zənn edilən mehrabın divarı ilə birləşmişdir.

Məscid kvadrata yaxın, düzbucaqlı planlıdır. İçərisində bəzək elementləri yoxdur. Məscidin yanındakı minarənin daş bünövrəsi silindrik gövdəli olub, üstü yivlərlə birləşdirilmişdir. Eyvanın alt hissəsi isə qabarıq bəzəklərlə bəzədilmişdir.

Günbəz şəklindəki səkkizbucaqlı gövdəli, dağılmış binalardan çıxarılan xırda daşlardan tikilən türbənin üstü konik damla örtülmüşdür.

[1] Yard. Doç. Dr. Hamza Gündoğdu. Dulkadir Beyliği Mimarisi, Ankara, 1986.

**Çandır Şahrux bəy məscidi.** Şahrux bəy məscidi Boğazlıyan-Çandır yolunun sağında, Çandır rayonunun mərkəzində yerləşir.

XV yüzilliyin sonu–XVI yüzilliyin əvvəllərində Kayseri, Kırşəhir və Yozqatın şərq rayonlarını əllərində saxlayan Zülqədəroğulları dövründə, Zülqədər bəyliyinin son böyük hökmdarı Əlaüddövlə Bozqurd bəyin oğlu Şahrux bəy tərəfindən tikdirilmişdir. Bunu, məscidin giriş qapısı üzərində yerləşən dörd sətirlik kitabə təsdiq edir.

Kitabədən aydın olur ki, 1744–1745-ci illər tarixində Əhməd bəy oğlu Aslan Paşa tərəfindən təmir olunmuşdur. Məscid Zülqədər bəyliyinin böyük hökmdarı Əlaüddövlə Bozqurd bəyin dövründə onun oğlu Şahrux bəy tərəfindən tikdirilmişdir.

Görkəmli tədqiqatçı prof. dr. Faruq Sümer, «Bozoq tarixinə dair araşdırmalar» məqaləsində məscidin tarixi ilə bağlı ətraflı məlumat vermişdir. O göstərir ki, məscid Çandırda Şahrux bəyin mərhum arvadı (Şahsuvar bəy qızı) Şahsultan Xatun üçün tikdirilmişdir[1].

Məscidin giriş qapsı üzərindəki kitabədə aşağıdakı məlumatlar vardır:

1. Sahibi – şöhrətli mərhum Şahrux bəy;

2. Əlaüddövlə bəyin minlərlə məscidindən biri;

3. Əhməd bəy Arslan Paşa tərəfindən 1157/1744–1745 təmir edilmişdir və s.

Şahrux bəy məscidinin qarşısında beş sütun üzərinə yerləşən camaatın namaz qıldığı yer və qırma tavanlı üst örtüyü, ilk baxışda, Baxça rayonundakı Ağça bəy məscidini xatırladır.

Camaatın namaz qılması üçün iç ətraf və iki sütun ayrılmışdır. Məsciddən bu günə yalnız iki minarə qalmışdır. Qırma tavanlı, kirəmit örtüklü abidə kəsmə daşdan hörülmüşdür. Qərbdəki daş gövdəli köhnə minarənin damından yüksələn hissəsi çox qısa gövdəlidir, eyvana qədər olan hissəsi isə kərpicdəndir. Silmə şəklindəki daş bilərziklə silindirik qısa gövdədən iki sıra halında eyvan altlığına keçilmişdir. Kəsmə düz daşlarla örtülmüş eyvan, digər Zülqədərli minarələrində olduğu kimi, olduqca qısadır. Minarə klassik konik qüllə ilə tamamlanır.

Məscid içərisindəki mehrab, şəkil və bəzəklər baxımından Qəhrəmanmaraşdakı məscid mehrablarının daha sadə təkrarıdır.

---

[1] Faruq Sümer. Bozok tarihine dair araştırmalar. DTCF. Cümhuriyyətin 50 ilini anma kitabı. – Ankara, 1973, səh. 309–351, 897 H.(1492 M.).

Haqqında bəhs olunan minarə Mədəniyyət və Turizm Nazirliyi, Kayseri Mədəniyyət və Təbiəti Müdafiə Etmə və Qoruma Mərkəzi tərəfindən mədəniyyət nümunəsi kimi 1988-ci ildən qeyd olunaraq, qorunma nəzarəti altına alınmışdır.

**Darəndə Ulu məscidi.** Malatyada yerləşən Darəndə rayonunun şimal-şərqində, bugünkü şəhər mərkəzindən 2 km uzaqlıqdakı Köhnə Darəndə yolu kənarında yerləşir.

Darəndə Ulu məscidinin kitabəsi tapılmadığından, onun tikilmə tarixi dəqiq məlum deyil. Məscidin Zülqədəroğullarının dövründə inşa edildiyi ehtimal olunsa da, bu, dəqiq təsdiqini hələlik tapmamışdır.

XV yüzillikdə (1467-ci il) Şahsuvar bəy tərəfindən ələ keçirilən Darəndə şəhəri 1500-cü ilə qədər zülqədərlərdə qalmışdır.

Üzərində və ətrafında hər hansı bir kitabənin tapılmaması abidənin tarixinin dəqiqləşdirilməsində çətinliklər törədir. Ancaq zülqədərlərin bu bölgəyə hakim olduqları dövrdə – onların hökmdarı Əlaüddövlə Bozqurd zamanında (1480–1515) tikilmiş ola biləcəyi ehtimal olunur.

Minarənin aid olduğu yerdə 1–1,5m hündürlüyündə divar qalıqları 1970-ci ilə qədər qalmaqda idi. Məscidin qərb və şərq divarları, minarələrdən başqa, köhnə izlər illər keçdikcə tamamilə aradan qalxmışdır. Daş divarlar üzərində bugünkü məscid inşa edilmişdir. Köhnə izlərdən məlum olur ki, məscid, 26.25x21.75m. ölçülərindən, düzbucaqlı sahə üzərində tikilmiş və mehrab divarına paralel beş yerə ayrılmışdır. Bundan başqa, şimal divarının ortasında giriş qapısı olaraq istifadə edilən keçidlə birlikdə, hər üç yan divarlarda da, iki ədəd pəncərə açılmışdır. Divarının üst hissəsi və damı tamamilə yıxıldığından, abidənin üst örtüyü haqqında məlumat yoxdur.

Bu günümüzə məscidin yalnız qərb və şərq divarları və minarəsi gəlib çatmışdır. Qalıqlar məscidin kəsmə və tökmə daşdan, düzbucaqlı plan əsasında tikildiyini göstərir. İbadət yeri daxildən sütunlarla beş yerə ayrılmışdır.

Məscidin Qəhrəmanmaraşdakı (bax: səh. 142-yə) bəzi Zülqədərli minarələrinə və Adıyaman Ulu məscidi (bax: səh. 140-a) minarəsinə çox bənzəyən minarəsinin, qısa və silindrik gövdədən sonra, bir neçə cərgə halındakı qısa eyvan altlığı və birdən-birə sona yetən qısa pətək hissəsi bu bənzərliyi daha da artırır.

Bu məsciddən günümüzə gəlib çatan minarə hissəsi kəsmə daşdan olub, daha kvadrat üzərində silindrik gövdəlidir. Alt hissəsi səkkizbucaqlı, üst hissəsi

on altı bucaqlı olan gövdənin mərkəzinə bir daş qurşaq yerləşdirilmişdir. Tək eyvanlı minarənin qüllə hissəsi də yıxılmışdır.

Tərk edilmiş məscid bir müddət depo kimi istifadə edilmiş, sonralar Seyid Osman Xülusi Əfəndi vəkfi tərəfindən bərpa edilmiş, ətrafına hasar çəkilmişdir. Müasir dövrdə məscidin üstü geniş bir dam ilə örtülmüş, ibadət yeri – mehrab əlavə olunmuşdur.

**Əlbistan Ulu məscidi.** Əlbistan Ulu məscidi (bax: səh. 143) Qəhrəmanmaraş şəhərinin Əlbistan rayonunun Günəşli məhəlləsində yerləşir.

